# “Binokl diplomatiyası”, Cənubi Qafqaz və Bellonaya sitayiş

**Avropa İttifaqının Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan tərəfindəki mülki müşahidə missiyasının ofisi, sanki, pirdir. Avropalı diplomatlar, eləcə də Ermənistana səfər etmiş xaricilər oranı ziyarət edirlər. Deyə bilmərik, orada hansısa konkret ayin icra edirlər ya yox, amma bu adamların missiyanın ofisinə baş çəkmələri Bellonaya sitayişdir. Xatırladaq ki, Bellona qədim Romada müharibə tanrısı sayılırdı.**

Bəli, Niderland Krallığının Ermənistandakı səfiri Mariek Monro-Vinter də Aİ-nin Ermənistandakı müşahidəçilər missiyasının ofisində olub. Bu barədə məlumatı missiya özünün saytında yayıb. “Niderlandın Ermənistandakı səfiri xanım Mariek Monro-Vinteri Aİ missiyasının ofisində qəbul etmək mənim üçün böyük şərəfdir”, – deyən missiyanın rəhbəri Markus Ritter razılığını bildirib. Sən demə, Hollandiyanın Aİ missiyasının nəzdində ayrıca qərargahı da var imiş və səfir Monro-Vinter həmin qərargahda olub. O, eyni zamanda, Xaçik kəndi ərazisində patrul dəstəsinə qoşulub. Məlumatda, habelə, hazırda Aİ missiyasında 7 hollandiyalı ekspertin çalışdığı bildirilib.

*(ardı 3-cü səhifədə)*




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 279 (30683) 18 dekabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Rusiya–Azərbaycan münasibətlərində Tatarıstan önəmli rol oynayır

## Prezident İlham Əliyevin Tatarıstanın Rəisi ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşüb.**

Əvvəlcə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycanın “Dostluq” ordeni ilə təltifedilmə mərasimi oldu. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Minnixanov “Dostluq” ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev dedi: Layiq olduğunuz mükafat münasibətilə Sizi təbrik edirəm. Uzun illərdir ki, Siz ənənəvi əlaqələrimizin möhkəmlənməsi üçün çox iş görürsünüz. Ona görə də belə yüksək mükafatı Sizə təqdim etmək və yeni uğurlar arzulamaq mənim üçün çox xoşdur.

**(ardı 2-ci səhifədə)**

**Suriyada hakimiyyətə gələn silahlı müxalifətin lideri Əhməd əl-Şaraa (Əbu Məhəmməd əl-Culani ləqəbi ilə tanınır) ərəb televiziya kanallarına proqram müsahibəsi verərək ölkənin yeni rəhbərliyinin prioritetlərini açıqlayıb. Sabiq cihadçının Rusiya haqqında dedikləri diqqəti çəkib. O bildirib ki, yeni hakimiyyət Rusiyaya qarşı deyil, lakin Moskvanın Suriya siyasətinə yenidən baxmasını gözləyir. Sızdırılan məlumatlara görə, Rusiya artıq Suriyada iki hərbi bazasını saxlamaq üçün danışıqlar aparır. Bu fonda dünya və regional güclər ölkədə nüfuz uğrunda mübarizəyə başlayıblar.**

# Suriya dinc həyata qayıda biləcəkmi?

*Aktorlar qaliblərin yanında yer tutmağa çalışırlar*



Bu gün Suriyanın gələcəyini təhlil etmək cəhdi çox çətindir. Çünki hələ də dəqiq bilinmir ki, ölkəyə hansı qüvvə rəhbərlik edəcək. Bundan başqa, bu sual da açıq qalır ki, Suriyada silahlı qarşıdurma mərhələsi başa çatıbmı? Bu sualın da dəqiq cavabı yoxdur, amma müxalifət lideri Əhməd əl-Şaarın (Əbu Məhəmməd əl-Culani ləqəbi ilə tanınır–red.) sözlərinə görə, Suriyada silahlı qarşıdurma artıq başa çatıb.

**(ardı 11-ci səhifədə)**

# İsveçrənin “aşağı palataçıları”nın erməni təəssübü

*Qarabağ avantürasına növbəti illüziya dəstəyi*



**İsveçrə parlamentinin aşağı palatası olan Milli Şura “Dağlıq Qarabağ: sülh konfransı” adlı qətnamə qəbul edib. Qətnamənin müəllifi ermənipərəst deputat Erix Fontobeldir. Müzakirələrdə ölkənin Xarici İşlər naziri İqnasio Kassis də iştirak edib. Hələlik, tam mənada demək olmaz ki, sənədin qəbulunda ölkə rəhbərliyinin rolu var. Çünki nazir İ.Kassis 96 nəfərin “lehinə”, 80 nəfərin “əleyhinə” səs verdiyi, 16 nəfərin isə bitərəf qaldığı sənədə qarşı çıxıb. Amma...**

*(ardı 3-cü səhifədə)*




# Qərbin anti-Azərbaycan ritorikası və “Əlikərimçilik”

*Cənubi Qafqazı “masa”larla qarışdırmaq cəhdinə sözardı*

**Bəlkə Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli özünün sosial şəbəkə paylaşımında ABŞ-nin ölkəmizdəki keçmiş səfiri və aktiv anti-Azərbaycan mövqeyi ilə seçilən Riçard Kozlariçdən sitat gətirməsəydi, onun dediklərini bir o qədər diqqətə almaq lazım gəlməyəcəkdi. Əslində, bu qeydlərimiz o demək deyil ki, Kərimliyə, yaxud Kozlariçə hansısa formada reaksiya veririk. Çünki hər ikisi ilə bağlı hər şey aydındır. Ancaq bəzi məqamları vurğulamağa ehtiyac var.**

*(ardı 3-cü səhifədə)*

## Erməni “tarixçi”nin Qərbi Azərbaycan xofu

*Görəsən, Mikael Malxasyan uydurduğu yalanlara özü inanırmı?*

**Ötən əsrin 80-ci illərinin sonlarında yüz illərlə yaşadıqları Qərbi Azərbaycan ərazisini tərk etməyə məcbur edilmiş azərbaycanlı əhalinin tarixi yurd yerlərinə qayıdışı məsələsi bu gün həmin torpaqlarda mövcud olan Ermənistan dövlətinin rəhbərliyini bərk narahat edir. Rəsmi İrəvan soydaşlarımızın qayıdış hüququnu tanımaq istəyində olmadığını açıq şəkildə ortaya qoyur.**




Halbuki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda zorla çıxarılmış əhalinin geriyə qayıtmaq hüquqları təsbit olunub. Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınmış suveren ərazisinin 20 faizini 30 ilə yaxın işğal altında saxlamış Ermənistan BMT Təhlükəsizlik Şurasının bununla bağlı çıxardığı 4 qətnaməyə məhəl qoymadığı kimi, soydaşlarımızın geriyə qayıtmaq hüququna əsaslanmaqla öz yurdlarına qayıtmalarına da etinasız yanaşır.

**(ardı 4-cü səhifədə)**

## “Böyük manipulyator”




Səhifə ⇨ 5

## “S&P” COP29-un maliyyə uğurunu alqışlayır




**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının ötən ay Bakıda keçirilmiş 29-cu sessiyasından (COP29) sonra “S&P Global Ratings” beynəlxalq reytinq agentliyi reytinq tərtibatında dəyişiklik edib. Agentliyin təqdim etdiyi yenilənmiş yanaşmadakı dəyişikliklərin məqsədi cari bazar tendensiyalarını nəzərə almaq və təbii fəlakətlərə daha çox həssas olan ölkələr üçün borcun təbiətin mühafizəsi tədbirlərinə dəyişdirilməsi və ödənişlərin ertələnməsi kimi yeni mexanizmlərin qiymətləndirilməsində şəffaflığı təmin etməkdir. Bu barədə məlumat “S&P” reytinq agentliyinin hesabatında yer alıb.**

*(ardı 7-ci səhifədə)*

## Qərb Gürcüstanda etimadı itirir

Radikal müxalifətin zorakılıq resursu isə sıfıra endirilib



Səhifə ⇨ 11

# Prezident İlham Əliyevin Tatarıstanın Rəisi ilə görüşü



(əvvəli 1-ci səhifədə)

**Rüstəm Minnixanov dedi:** Cənab Prezident, çox sağ olun. Bu, yüksək mükafatdır. Biz Rusiya–Azərbaycan münasibətləri çərçivəsində əlaqələrimizi yüksək qiymətləndiririk. Tatarıstan burada xüsusi yerə malikdir. Tarixən belə alınıb ki, qardaş xalqlarımız və ən başlıcası, liderlərimiz – Azərbaycanın lideri Heydər Əliyev və birinci Prezidentimiz Mintimer Şaripoviç Şaymiyev bizim inkişaf etdirdiyimiz həmin kursun əsasını qoyublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov birgə nahar ediblər.

***AZƏRTAC***

# R.N.Minnixanovun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Nurqaliyeviç Minnixanov “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 17 dekabr 2024-cü il**

# “Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 sentyabr tarixli 1436 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 1 sentyabr tarixli 1436 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 976 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 17 dekabr 2024-cü il**

# “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

**1** Aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

“10. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 3.1-1-ci bəndi 2030-cu il yanvarın 1-dək qüvvədədir.”.

**2.** Həmin Fərmanla təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1.1.2.9-cu yarımbəndə “aparılmasına,” sözündən sonra “aqrotexniki xidmətlərdən istifadə edilməsinə,” sözləri əlavə edilsin;

2.1.2.aşağıdakı məzmunda 1.2.9-1-ci yarımbənd əlavə edilsin:

“1.2.9-1. dincə qoyulmuş torpaq subsidiyası – bu Qaydanın 1.2.9-cu yarımbəndinə uyğun olaraq əkin subsidiyasına görə müraciət edilmiş torpaqlarda kənd təsərrüfatı bitkilərinin Şuranın müəyyən etdiyi dövr ərzində ardıcıl olaraq becərilməsindən sonra həmin torpaqların münbitliyinin bərpası və alaq otlarının azaldılması məqsədilə 1 (bir) il müddətinə dincə qoyulan sahəsinin hər hektarına görə verilən subsidiya;”;

2.1.3.1.2.12-ci yarımbəndə “buzova” sözündən sonra “və balağa (camış balasına)” sözləri əlavə edilsin.

2.2. 2-ci hissə üzrə:

2.2.1.2.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“2.4.1. əkin subsidiyasının tətbiqi üçün vahid əkin sahəsi elan edilən yerlərin siyahısının, regionlar üzrə bitkilərin siyahısının və onlara tətbiq edilən əkin əmsallarının, həmçinin “Aqrar sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aqrar sığorta predmetinə aid bitkilərdən sığortalanması tələb olunanların (bundan sonra – sığortalanmalı olan bitkilər) siyahısının (bu Qaydanın 2.5-1-ci bəndi nəzərə alınmaqla) və onların əkin sahələrinin minimum ölçüsünə dair tələblərin təsdiqi;”;

2.2.2.aşağıdakı məzmunda 2.4.1-1-ci və 2.4.3-1-ci yarımbəndlər əlavə edilsin:

“2.4.1-1. dincə qoyulmuş torpaq subsidiyasının tətbiqi üçün ərazilərin siyahısının, həmin ərazilərin ardıcıl becərilmə dövrlərinin və onlara tətbiq edilən dincə qoyulmuş torpaq əmsallarının təsdiqi;”;

“2.4.3-1. bitkiçilik sahəsində subsidiyaların tətbiqi üçün torpağın sahəsi və keyfiyyət parametrləri, çoxillik bitkilərin əkin ili, əkilən toxum və tinglər, aqrotexniki tədbirlərin aparılması, müasir suvarma sistemlərinin tətbiqi nəzərə alınmaqla əmsalların fərqləndirilməsi;”;

2.2.3.2.5-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.5-1. Bu Qaydanın 2.4.1-ci yarımbəndinə uyğun olaraq Şura tərəfindən əkin subsidiyasının tətbiqi üçün sığortalanmalı olan bitkilərin siyahısı təsdiq edilərkən həmin bitkilərin ixracyönümlü olması və ya ərzaq təhlükəsizliyinin təmin edilməsindəki rolu əsas götürülür.”.

2.3. 3-cü hissə üzrə:

2.3.1.3.1-1-ci bənddə “İstifadəsində olan 10 hektar və daha çox torpaq sahəsində (sahələrində) bu” sözləri “Bu” sözü ilə əvəz olunsun və həmin bəndə “bitkinin” sözündən sonra “minimum ölçüdən az olmayan əkin sahəsində” sözləri əlavə edilsin;

2.3.2.aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

“3.4-1. Dincə qoyulmuş torpaq subsidiyasının məbləği aşağıdakı qaydada hesablanır:

baza məbləği × dincə qoyulmuş torpaq əmsalı = dincə qoyulmuş torpaq subsidiyası

dincə qoyulmuş torpaq əmsalı – müəyyən ərazilər üzrə dincə qoyulmuş torpaqlar üçün Şuranın müəyyən etdiyi göstərici.”;

2.3.3.3.8.1-ci yarımbəndə “çoxillik əkmələr” sözlərindən sonra “, habelə dincə qoyulmuş torpaqlar” sözləri əlavə edilsin;

2.3.4.3.12-ci bənd üzrə:

2.3.4.1. birinci cümləyə “çoxillik əkmələr” sözlərindən sonra “, dincə qoyulmuş torpaq subsidiyası ilə bağlı dincə qoyulmuş torpaq sahələri” sözləri əlavə edilsin;

2.3.4.2. ikinci və üçüncü (hər iki halda) cümlələrə ismin müvafiq hallarında “kart hesabı” sözlərindən sonra ismin müvafiq hallarında “(hüquqi şəxsin cari hesabı)” sözləri əlavə edilsin;

2.3.5.3.13-cü bəndə “aparılması,” sözündən sonra “aqrotexniki xidmətlərdən istifadə edilməsi,” sözləri əlavə edilsin.

2.4. 4-cü hissə üzrə:

2.4.1.4.1-ci bəndə “buzova” sözündən sonra “və balağa (camış balasına)” sözləri əlavə edilsin;

2.4.2.4.4.4-cü yarımbənddə “iyun” sözü “sentyabr” sözü ilə əvəz edilsin.

2.5. 5-ci hissə üzrə:

2.5.1.5.1.2-ci yarımbəndə “çoxillik əkmələrin” sözlərindən sonra “, habelə dincə qoyulmuş torpaq sahələrinin” sözləri əlavə edilsin;

2.5.2.5.1.3-cü yarımbəndə “yerlərdə,” sözündən sonra “dincə qoyulmuş torpaq sahələrində,” sözləri əlavə edilsin;

2.5.3.5.2-ci bəndin birinci abzasına “əkmələrə” sözündən sonra “, habelə dincə qoyulmuş torpaq sahələrinə” sözləri əlavə olunsun və həmin abzasda “subsidiyası” sözü “və dincə qoyulmuş torpaq subsidiyaları” sözləri ilə əvəz edilsin;

2.5.4.5.4-cü bəndin üçüncü cümləsində “DAİM-in mütəxəssisi” sözləri “Agentliyin və ya DAİM-in digər mütəxəssisləri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 17 dekabr 2024-cü il**

# Tatarıstan Rəisinin xatirə ziyarətləri



**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov dekabrın 17-də Ulu öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.**

Əvvəlcə Fəxri xiyabana gələn Rüstəm Minnixanov xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Tatarıstan Respublikasının Rəisi Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

**XQ**

# Rüstəm Minnixanov Ələt Azad İqtisadi Zonasında

**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov dekabrın 17-də Ələt Azad İqtisadi Zonasında (ƏAİZ) olub.**



Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, ƏAİZ-in İdarə Heyətinin sədri Valeh Ələsgərov və Tatarıstanın Rəisi Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətinin iştirakı ilə keçirilən görüş zamanı Ələt Azad İqtisadi Zonasının fəaliyyəti, unikal qanunvericilik bazası, eləcə də müasir mühəndis-kommunikasiya sistemləri ilə təchiz edilmiş, istifadəyə hazır daxili və xarici torpaq sahələri haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, 2023-cü ildən fəaliyyət göstərən FEZ1 Standart sənaye zonasında ümumi ərazisi 30 hektar olan investor sahələri mövcuddur. Diqqətə çatdırılıb ki, Ələt Azad İqtisadi Zonasında, ümumilikdə, 27 investor qeydiyyatdan keçib. Bunlardan dörd investor sahəsində fəal tikinti işləri aparılır.

Qeydiyyatdan keçmiş daha üç investor isə 2025-ci ilin əvvəlindən tikinti işlərinə başlayacaq.

Bildirilib ki, investor sahələrinə tələbat nəzərə alınaraq 18 ay əvvəl ümumi sahəsi 138 hektar olan yeni ərazidə infrastruktur işlərinə başlanılıb. Bu işlərin 2025-ci ilin birinci yarısında tamamlanması planlaşdırılır.

Bununla yanaşı, ağır sənaye təyinatlı FEZ3 adlı ərazidə də infrastruktur quruculuğu işləri aparılır. Ümumi sahəsi 350 hektar olan ərazidə tikinti işləri fəal davam edir.

Eyni zamanda, ümumi sahəsi 4313 hektar olan 4-cü zonanın 748 hektarlıq hissəsində SW-AFEZCO şirkətinə məxsus hava limanının tikinti-quruculuq işləri sürətlə davam edir. Hava limanı xüsusilə innovativ texnologiyalar və farmasevtik məhsulların istehsalı üzrə müəssisələr üçün nəzərdə tutulub.

Görüşdən sonra Tatarıstan Rəisi Rüstəm Minnixanov tərəfindən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına üç ədəd mikroavtobus hədiyyə edilib. Mikroavtobuslar Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevə təqdim olunub.

***XQ***

# TDT ölkələrinin hüquqi əməkdaşlığı

**“2009-cu il, oktyabrın 9-da Naxçıvan şəhərində imzalanan müqavilə ilə Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının təsis edilməsi, daha sonra isə həmin təsisatın təkmilləşdirilərək Türk Dövlətləri Təşkilatına çevrilməsi ilə qardaş xalqlar arasında inteqrasiya prosesləri yeni müstəviyə qədəm qoyub”.**




Bunu “Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər” mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycanın Baş prokuroru Kamran Əliyev deyib.

Onun sözlərinə görə, ötən dövr ərzində türk dövlətlərinin hüquq mühafizə orqanları, məhkəmə akademiyaları və təlim mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin institusionallaşması ilə bağlı əməli addımlar atılıb: “2022-ci il, dekabrın 11-də İstanbul şəhərində özündə üzv statusunda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın ədliyyə və prokurorluq orqanlarının təlim-tədris mərkəzlərini və akademiyalarını, eləcə də müşahidəçi statusunda Macarıstan və Şimali Kiprin müvafiq qurumlarını birləşdirən Türk Ədliyyə Təlim Şəbəkəsi (Turkish Judicial Training Network) təsis edilib. Azərbaycan tərəfini həmin Şəbəkədə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi təmsil edir. Azərbaycan 2024-cü ildə Şəbəkəyə sədrlik etməyə başlayıb”.

K.Əliyev vurğulayıb ki, bu gün öz işinə başlayan beynəlxalq konfransda aktivlərin bərpası prosesinin səmərəliyinin artırılması, ekoloji hüquqpozmalara qarşı mübarizə, transmilli hüquqpozmaların qurbanlarının mülki-hüquqi müdafiəsi, türkdilli ölkələrin kommersiya hüququ sahəsində qanunvericilik bazasının inkişafı kimi məsələlərin müzakirəsi planlaşdırılıb:

"Bizim üçün qardaş ölkələrin bu sahədə təcrübəsinin öyrənilməsi, öz müsbət təcrübəmizlə bölüşmək çox əhəmiyyətlidir. Əminəm ki, hakim və prokurorların peşə hazırlığında da müasir texnologiyaların, proqram təminatlarının tətbiqi ilə bağlı müzakirələr xüsusi əhəmiyyətə sahib olacaq".

***XQ***

# “Binokl diplomatiyası”, Cənubi Qafqaz və Bellonaya sitayiş

**(əvvəli 1-ci səhifədə)**

Qeyd etdiyimiz kimi, Bellona müharibə tanrısıdır və Aİ-nin sözügedən missiyası da məhz savaş gündəliyini rəhbər tutan təsisatdır. Fikrimizi əsaslandıracağıq. Amma əvvəlcə bir məqama diqqət yetirərək deyək ki, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dekabrın 12-də jurnalistlərə açıqlamasında Ermənistan ərazisində hansısa üçüncü ölkənin qüvvələrinin yerləşdirilməsini narahatlıq doğuran faktor kimi qiymətləndirmişdi. H.Hacıyev bildirmişdi ki, Azərbaycan tərəfi qarşılıqlı anlaşma və sülh şəraitində aparılan delimitasiya prosesində üçüncü tərəfin iştirakına ehtiyac görmür: “Ermənistan–Azərbaycan sərhədindəki Avropa İttifaqının missiyasının fəaliyyəti artıq başa çatmalıdır. Missiyanın yerləşdirilməsi Praqada Azərbaycan Prezidenti İlham Əliyevin, Fransa prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə razılaşdırılmışdı. O missiya qısamüddətli olmalı idi. Biz gördüyümüz kimi, bu, davamlı bir missiyaya çevrilir və tərkibi, habelə coğrafi mandat ərazisi genişləndirilir. Ermənistan və Azərbaycan arasında qarşılıqlı anlaşma və sülh şəraitində aparılan delimitasiya prosesində üçüncü tərəfin iştirakına hər hansı ehtiyac görmürük. Biz Avropa İttifaqının missiyasının regionda sülhün möhkəmləndirilməsinə xidmət edən faktor olduğunu hesab etmirik. Bu, narahatlıq doğuran faktordur".

Qeyd edək ki, cənab Hacıyev bu ilin sentyabrında da Aİ-nin sərhəd missiyasına ehtiyacın duyulmadığına dair fikirlər səsləndirmişdi. Bildirmişdi ki, hazırda iki dövlət arasında nizamlama prosesinin sülh, qarşılıqlı anlaşma şəraitindəki gedişatı var. Bu səbəbdən Aİ-nin sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməsinə ehtiyac yoxdur, təsisatın işinə xitam verilməsinin zamanı yetişib.

Prezident İlham Əliyev isə 2024-cü il oktyabrın 14-də Belçika Krallığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən, Bakı ilə İrəvan arasındakı sülhyaratma prosesində Aİ-yə etimadsızlıq doğuran faktorlardan biri kimi, məhz sözügedən missiyanı önə çəkmişdi. Dövlətimizin başçısı belə bir təsisatın qalmasının Azərbaycan–Aİ münasibətlərində də etimadsızlıq yaratdığını vurğulamış və əlavə etmişdi ki, 2023-cü ildə “Avropa müşahidəçilər missiyasının” müddəti ölkəmizin razılığı olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılıb. Dövlətimizin başçısı “Binokl diplomatiyası”-nın qəbuledilməz olduğunu, normal siyasi mədəniyyət standartlarından kənarlığını bildirmiş, habelə, Azərbaycanın Aİ ilə təmaslarında bu məsələnin qaldırılacağını dilə gətirmişdi.



Bəli, bütün bunlardan, xüsusən, H.Hacıyevin sonuncu açıqlamasından sonra Niderland Krallığının Ermənistandakı səfirinin Aİ-nin missiyasının qərargahına baş çəkməsi o deməkdir ki, qurum Azərbaycanın mövqeyinə etinasız yanaşdığını göstərir və onun özünün məxsusi gündəmi var. Heç şübhəsiz, gündəmi müəyyənləşdirən Fransadır. Yeri gəlmişkən, Fransanın Ermənistandakı səfiri Olivye Dekotini də dekabrın ilk ongünlüyündə şərti sərhəddə olmuş, holland səfir Monro-Vinter kimi o da Xaçik kəndində missiyanın patrul dəstəsinə qoşulmuşdu. Hər iki səfirin məhz sözügedən kənddə olmaları isə ayrıca maraqlı məqamdır. Məsələ ondadır ki, Xaçik sivilizasiyadan təcrid olunmuş ərazidə, dağlıq bölgədə, dəniz səviyyəsindən 1900 metr yüksəklikdə yerləşir. Hazırda ərazi qar örtüyünə bürünüb. Belə başa düşmək olar ki, istər Fransanın, istərsə də Hollandiyanın səfirlərinin Xaçikə baş çəkmələrində məqsəd qarlı şəraitdə ekstrim yaşamaq, adrenalin almaq olub.

Başlıca məqsəd isə Aİ-nin şərti sərhəddəki missiyanın vacibliyini göstərməkdir. Vaciblik müşahidəçilərin başa çatmaqda olan müddətlərinin uzadılması üçün gündəmə gətirilir. Axı 2023-cü ilin fevralından fəaliyyətdə olan missiyanın üzvləri hazırda NATO-nin Cənubi Qafqazdakı emisarları kimidirlər. Bu səbəbdən əminliklə deyə bilərik ki, regionun sülh gündəmi Qərb üçün heç bir önəm daşımır. İstər Dekotininin, istərsə də hazırda Monro-Vinterin missiyanın ofisini ziyarət etməsi və onun üzvləri ilə patrul fəaliyyətinə qoşulması belə söyləməyə əsas verir.

Sonda onu da deyək ki, Aİ-nin sərhəd missiyası sırf qlobal siyasi məqsədə, regional miqyasda rəqabətin formalaşmasına hesablanmış təsisatdır. Səmərəsizlik baxımdan onu ATƏT-in vaxtilə mövcud olmuş Minsk qrupu ilə eyniləşdirmək mümkündür. Çünki hər iki format, mahiyyətcə, qeyri-müəyyənliyi saxlamaq məramından qaynaqlanır. Minsk qrupu vaxt uzatmaqla işğalı leqallaşdırmaq istəyirdisə, nəticə etibarilə nə sülh, nə müharibə məntiqini rəhbər tuturdusa, Aİ-nin missiyası da oxşar funksiyanı yerinə yetirir. Fərq ondadır ki, Qarabağda erməni avantürası canını tapşırdığından, ATƏT-in Minsk qrupunun ermənipərəst təəssübkeşlik dövrü tarixə çevrilib. Sözügedən missiya isə hələlik illüziya qaynağıdır. Ermənistan rəhbərliyi və onun havadarları avropalı müşahidəçilərin timsalında özlərinin indiyədək itirdiklərinin bərpasına dəstək verəcək söz sahiblərini görürlər. Ona görə rəsmi İrəvan Aİ-nin missiyasının müddətinin uzadılmasında maraqlıdır və böyük etimalla müəyyən vaxtdan sonra müşahidəçilərin regionda qalma müddətinə aydınlıq gələcək.

Deməli, 2025-ci ildən də sülh gözləməyə dəyməz. Sülhsüzlüyə gəlincə, bu mühitin qalması müharibə təhlükəsinin mövcudluğu deməkdir. ATƏT-in Minsk qrupunun təcrübəsi bunu sübuta yetirdi. Elə isə Avropanın səfirləri Xaçikdə Bellonaya sitayiş etmələrində, qartopu oynamalarında, buzda sürüşmələrində olsunlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qərbin anti-Azərbaycan ritorikası və “Əlikərimçilik”




**(əvvəli 1-ci səhifədə)**

Son zamanlar Qərbin Azərbaycana qarşı, belə demək mümkünsə, daha aqressiv kökləndiyini görürük. Elə təəssürat yaranır ki, sanki ölkəmizə qarşı “səlib yürüşü” başlanıb. Əlbəttə, bu “yürüşün” məqsədləri aydındır. Bilirik ki, Qərb cəbhəsinin anti-Azərbaycan ritorikasının arxasında rəsmi Bakını Ermənistanla ədalətsiz sülhə məcbur etmək əzmi dayanır. Daha doğrusu, Qərb, o cümlədən, ABŞ çalışırlar ki, Cənubi Qafqazda erməni avantürizmini diri saxlasınlar.

Rəsmi İrəvanın təmsilçiləri ölkəmizlə sülh gündəliyindən söz açarkən, bir qayda olaraq, “Dünyanın kəsişməsi” ideyası üzərində dayanırlar. Bu ideyanın məğzi Ermənistanı regional kommunikasiyaların açar fiquruna çevirməkdir. Yəni, istək budur ki, ölkə Qərbdən Şərqə, Şimaldan Cənuba daşımaların kəsişən nöqtəsinə çevrilsin. Bəs belə bir düzən nə üçün vacibdir?

Birincisi, Qərb ölkədə 2018-ci il inqilabının nəticələrini, necə deyərlər, əlini cibinə salmadan qorumaq niyyətindədir. Nəzərə alaq ki, Ermənistan tranzit habına çevrilsə, xeyli gəlir əldə edəcək.

İkincisi, ortada işlək sistem olacaq ki, onun nəticəsində müxtəlif maraqlı qütblər əvvəlcədən öz gəlirlərini proqnozlaşdıracaq və həmin gəlirlərdən hansı faydaları götürmələrini hesablayacaqlar. Təsəvvür edin, İrəvan açar fiqur kimi istənilən an bütün hesablamaları pozmaq imkanı əldə edəcək. Bu, Qərbə imkan yaradacaq ki, qlobal nəqliyyat habının iştirakçılarını fakt qarşısında qoysun, onlara özünə sərfəli istənilən gündəmi sırısın. Bir sözlə, Qərb Ermənistanın əli ilə region dövlətlərinin, o cümlədən, regiona maraqlı qütblərin müstəqil, bərabərtərəfli münasibətlər sistemindən faydalanma imkanlarını şübhə altına alacaq.



Üçüncüsü, regionda açar fiqur statusu Ermənistana, necə deyərlər, sırf şəxsi planda da dividend gətirəcək. İrəvan avantürizminin yeni mərhələyə qədəm qoyması üçün tədbirlər görmək şansı qazanacaq, avantürizm naminə qlobal kommunikasiya setini daim tükdən asılı vəziyyətə gətirəcək. Tutalım, Azərbaycana qarşı hansısa iddia irəli sürəcəksə, o zaman bunu həmin setin işini iflic hala salmaqla gerçəkləşdirəcək ki, qlobal marşrutun digər iştirakçıları status-kvonun pozulmaması üçün Bakıya İrəvanın şərtlərini qəbul etmək üçün təzyiq göstərsinlər.

Bir sözlə, Qərbin dəstəklədiyi “Dünyanın kəsişməsi”nin Ermənistana hərtərəfli faydaları var. Əvvəldə də vurğuladığımız kimi, layihə, ümumən, erməni kartını aktiv saxlamaq məramına söykənir. Lakin bütün bunlar Bakı ilə İrəvan arasında sülh mümkün olmadan reallaşa bilməz. Ona görə də ABŞ və Qərbin digər aktorları Azərbaycanı ədalətsiz sülhə məcbur etmək istəyirlər. Nəzərə alaq ki, Qərbin diktə etdiyi sülh şərtləri Cənubi Qafqazdakı tarixi maraqların üzərindən xətt çəkilməsini də hədəf seçib. Yəni, sülh bölgədə Rusiyanın, Türkiyənin və İranın maraqlarını arxa plana atmağa hesablanıb. Həmin maraqları nəzərə almamaq, balanslı siyasətdən uzaqlaşmaq, siyasi oyun qaydalarını pozmaq isə son dərəcə təhlükəlidir ki, məsələ Qərb üçün elə bir əhəmiyyət daşımır. Çünki regiondan uzaqdır, bölgənin Liviyanın və ya Suriyanın, yaxud İraqın gününə düşməsi, xarabazara çevrilməsi onun üçün heç bir önəm daşımır. Əsas olan özünün maraq və mənafelərinin hansısa ön şərt olmadan təmin edilməsidir.

*

Bəli, Qərb Azərbaycana Ermənistanla sülh gündəmini diktə etmək əzmindədir və bunun üçün ən müxtəlif təzyiq üsullarına əl atır. Bakıda ötən ay keçirilmiş nüfuzlu COP29-la bağlı da həmin üsullar gündəmə gəldi. Çox çalışıldı ki, toplantıyadək sülh sazişi imzalansın. Daha doğrusu, elə zənn edildi ki, Azərbaycan COP29-un dividend prezumpsiyasını sülh sazişindən üstün tutacaq. Lakin ölkəmizin rəhbərliyi prinsipiallığı əldən vermədi, məsələləri bir-birindən ayrı saxladı və çox doğru da etdi.

Hazırda özünün bütün təsir imkanlarından məhrum duruma düşmüş Qərb dünyası ənənəvi “üsullara” əl atmaqdadır. Nədir həmin “üsullar”? Guya, Azərbaycanda söz və ifadə azadlığı pozulur, sərbəst toplaşmaq imkanı yoxdur, ölkə həbsxanalarında siyasi məhbuslar var, müxalif fəallara qarşı repressiv metodlar tətbiq edilir və sair. Bir sözlə, cəfəngiyyatlar gündəmə gətirilir. Üstəlik, bu cəfəngiyyatların Bakı həbsxanalarında qeyri-qanuni saxlanıldığı iddia edilən “erməni məhbuslar” istiqaməti də var.

Maraqlıdır ki, son günlər Ermənistan iqtidarı və ona yaxın siyasi çevrələr də eyni məsələləri qaldırmaqdadırlar. Amma ikincilərdən fərqli olaraq, baş nazir Nikol Paşinyanın komandasının üzvləri subliminal mesajlarla kifayətlənirlər. Yəni, istər yuxarıda qeyd etdiklərimizi dilə gətirərkən, istərsə də ölkəmizin, guya, irqi, dini, milli ayrı-seçkilik yaratdığına dair tezisləri qabardarkən, ad çəkmirlər. Ad çəkən isə Ə.Kərimlidir. Yoxsa, niyə səssizliyi pozsun ki?

Əlbəttə, Kərimli üçün müəyyənləşdirimiş “tezis” bir qədər fərqlidir. O, Azərbaycanla Gürcüstanın müqayisəsini aparır və bildirir ki, ABŞ və Avropa İttifaqı Gürcüstanın siyasi xadimlərinə, ayrı-ayrı rəsmilərinə sanksiya tətbiq etdiyi halda, Azərbaycanın məmurlarına münasibətdə eyni tədbiri görmür. Sən demə, bu, ikili yanaşma imiş. Belə təsəvvür yaranır ki, partiya sədri Qərbi qınayır. Əslində isə onun fikirlərində qınaq yoxdur. Ə.Kərimli, sadəcə, Qərbin direktivlərini çatdırır. Ona səssizliyi pozmağı əmr edənlər AXCP sədrinin dili ilə Azərbaycanı şantaj edir və bildirirlər ki, gürcü siyasilərlə bağlı görülmüş tədbirlər azərbaycanlı siyasilərə, daha doğrusu, ölkəmizin iqtidarının təmsilçilərinə də tətbiq edilə bilər. Beləcə, rəsmi Bakının nəyəsə məcbur ediləcəyi düşünülür. Nəyə? Artıq bu barədə söz açdıq və bildirdik ki, Azərbaycanın Ermənistanla ədalətsiz sülhə razılaşmasını istəyənlər fəaldırlar.

*

Ermənistan da öz növbəsində, “fəallıq” göstərir və Ə.Kərimlinin söylədikləri hazırda erməni mediasının başlıca mövzusudur. Xüsusun, onun qondarma siyasi məhbus məsələsi ilə bağlı bildirdikləri. Erməni tərəfi Qarabağdakı keçmiş separatçı rejimin Azərbaycanda saxlanılan rəhbərlərinin durumunu da həmin məsələnin tərkib hissəsinə çevirib. Ötürülən mesaj budur: Azərbaycanda bütün məhbusların, o cümlədən, erməni məhbusların saxlanılması qeyri-qanunidir. Beləliklə, hüquq anlayışı məqsədli şəkildə arxa plana atılır. Saxlanılan şəxslərin günahkar olduqları, konkret olaraq, aratunyanların, saakyanların, vardanyanların və digərlərinin qanlı cinayətlər törətdikləri heçə sayılır. Yaxşı, bəs görəsən, Ə.Kərimli bütün bunları görmür? Yoxsa, o, hansı məqamda, hansı mövzu ilə gündəmə gəldiyinin fərqinə varmır? Əslində, suallar çoxdur. Hamısının üzərində dayanmaq istəməzdik. Nə də ki, partiya sədrinə nəyi necə etmək barədə məsləhət vermək niyyətimiz var. Təkcə onu deyək ki, bu şəxs Azərbaycanda hakimiyyətə gəlmək istədiyini açıqlayanlardan biridir. Bu düşüncə, bu mövqe iləmi? Kozlarıçdən sitat gətirib keçmiş səfiri ortaya atanların xoşuna gəlməkləmi?

***Ə.RÜSTƏMOV***
***XQ***

# İsveçrənin “aşağı palataçıları”nın erməni təəssübü



**(əvvəli 1-ci səhifədə)**

Göründüyü kimi, dünyada özünü əbədi bitərəf ölkə sayan İsveçrə də erməni məsələsinə gələndə tərəf saxlayır. Ölkə parlamentinin aşağı palatasının gələn il Qarabağ üzrə beynəlxalq sülh forumunun təşkilinə dair Federal Şuraya çağırış etməsi bunu söyləməyə əsas verir. Sözügedən çağırışın yer aldığı qətnamədə, eyni zamanda, bildirilir ki, İsveçrə Azərbaycanla Qarabağ ermənilərinin nümayəndələri arasında açıq dialoqa yardım etməlidir.

Maraqlıdır, görəsən, nəyə görə ölkənin parlamentariləri bu qədər “gecikiblər”. Onlar 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirlərinədək rəsmi Bakının dəfələrlə Qarabağ erməniləri ilə danışıqlar təklifini irəli sürdüyünü “görməzdən gəliblər”. “Unudublar” ki, Azərbaycan dövlətinin çağırışları Qarabağdakı separatçı rejim tərəfindən nəzərə alınmadı. Daha doğrusu, separatçı rejim ölkəmizin təşəbbüslərinə etinasız yanaşdı, özünü beynəlxalq hüququn müstəqil subyekti kimi aparmağa üstünlük verdi, hətta bəzən demarş məntiqindən də çıxış etdi ki, bütün bunlar Ermənistan rəhbərliyi tərəfindən, faktiki olaraq, dəstək qazandı.

Bəli, İsveçrə parlamentinin aşağı palatası köhnə havalardadır. Ən əsası isə onun yanaşma tərzi Qarabağda separatizmin bərpasına xidmət amalı daşıyır. Məsələ ondadır ki, qurumun qətnaməsində Azərbaycanla Qarabağ erməniləri arasındakı dialoqun beynəlxalq nəzarət altında aparılmalı olduğu vurğulanır. Yada salaq ki, vaxtilə rəsmi İrəvan da Qarabağ erməniləri üçün beynəlxalq təminat məsələsini qabartmışdı və bu, Azərbaycan yurisdiksiyasının şübhələndirilməsi məramından irəli gəlirdi. Ermənistan rəhbərliyi dolayısı ilə separatçı rejimin qorunmasına çalışırdı.

İsveçrəli parlamentarilər qətnamələrində onu da bildirirlər ki, sözügedən beynəlxalq təminatın məqsədi “Qarabağda tarixən məskunlaşmış erməni əhalinin təhlükəsiz və kollektiv şəkildə bölgəyə qayıtması üçün danışıqlar aparılmasına” kömək göstərmək olmalıdır. Deməli, onlar da “etnik təmizləmə” məntiqindən çıxış edir, antiterror tədbirlərindən sonra Azərbaycan hakimiyyətinin Qarabağ ermənilərinin vətəndaş kimi bölgədə qalıb yaşamalarının mümkünlüyünə dair mövqeyinə əhəmiyyətsiz yanaşırlar.

Digər tərəfdən, nəzərə alaq ki, Qarabağ erməniləri Ermənistan vətəndaşlarıdır. Həmişə də belə olub. Onların bütün xərclərini də Ermənistan dövləti ödəyib və yenə ödəməkdədir. Əgər rəsmi İrəvan, həqiqətən, ötən ilin sentyabrında bölgəni tərk etmiş vətəndaşlarının yenidən əraziyə qayıtmalarını istəyirsə, özü Azərbaycana müraciət etməlidir. Amma bunu etmir və etməz də. Çünki erməni iqtidarı yaxşı anlayır ki, Azərbaycanın şərtləri dəyişməzdir və başqa cür mümkün deyil. Çünki Qarabağ beynəlxalq hüquqla Azərbaycana məxsusdur və bunu rəsmi İrəvan da tanıyıb.

Belə çıxır ki, məsələyə önəm verməyən, yuyulmamış çömçə kimi özünü ortaya atan avropalılar, indiki halda, İsveçrə parlamentinin aşağı palatasının üzvləridir. Şübhəsiz, onların təklifləri parlamentin yuxarı palatası olan Dövlətlər Şurasına göndəriləcək. Prosedura uyğun olaraq, Dövlətlər Şurası məsələni təsdiqləyərsə, Qarabağla bağlı konfransın təşkili İsverçrənin milli hökumətinə, yəni dövlətə həvalə olunacaq.

Əvvəldə bildirdiyimiz kimi, sözügedən qətnamənin müzakirəsində iştirak edən İsveçrənin XİN rəhbəri İ.Kassisin mövqeyi parlamentarilərin mövqeyi ilə üst-üstə düşməyib. Ancaq bu, heç nəyi dəyişmir. Çünki İsveçrə parlamenti iki ay öncə də oxşar xarakterli sənədlə çıxış etmişdi. Üstəlik, İsveçrə qondarma “erməni soyqırımı”-nı rəsmən tanıyan ölkədir və orada saxta soyqırımını inkar etmək cinayət məsuliyyəti yaradan hal kimi qiymətləndirilir.

Sonda onu da deyək ki, bu tip erməni təəssübkeşliyinə dair sənədlərin qəbulunun arxasında Ermənistan hakimiyyəti və onun xaricdəki havadarları, erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri dayanırlar. Onlar müştərək anti-Azərbaycan fəaliyyətindədirlər. Yəni, isveçrəli parlamentarilər elə-belədən qətnamə qəbul etmək sevdasına düşməyiblər. Nə qədər ki, rəsmi İrəvan bu sayaq əməllərini davam etdirəcək, ölkəyə güvən olmayacaq və nəticə etibarilə sülhə etimad quruculuğu prosesi zərər görəcək.

Yəni, istər İsveçrə parlamentinin qətnaməsi, istərsə də digər Avropa dövlətlərinin bu və ya digər dərəcədə ölkəmizin ərazi bütövlüyünü və suverenliyini şübhə altına alan lakmus kağızları Azərbaycanla Ermənistan arasında sülh mühitinin qərarlaşmasına ciddi əngəl törədir. Çünki belə mənasız sənədlər Ermənistanda illüziya doğurur, reallığı görməyi mümkünsüzə çevirir. Reallıq hissini itirməyin cəzasını isə Ermənistan 44 günlük müharibə zamanı bir dəfə çəkib. İkincidən indiki halda İsveçrə saxlasın. Özünün kağız-kuğuzları ilə saxlaya biləcəksə...

***R.ƏVƏZ***
***XQ***

# Erməni "tarixçi"nin Qərbi Azərbaycan xofu

(əvvəli 1-ci səhifədə)



Ermənistanın digər siyasi qüvvələri, ictimai-siyasi xadimləri, keçmiş dövlət məmurları, politoloq və jurnalistləri də azərbaycanlıların vaxtilə yaşadıqları yerlərə dinc qayıdışı məsələsinə münasibətdə hakimiyyətlə həmrəylik nümayiş etdirirlər. Onlar bu ideyanı, necə deyərlər, top-tüfənglə qarşılayırlar. Xüsusilə, son illərdə Qərbi Azərbaycana qayıdış məsələsinin rəsmi Bakı tərəfindən ardıcıl qaldırılması, bu məsələnin beynəlxalq təşkilatların gündəminə çıxarılması, eləcə də Qərbi Azərbaycan İcmasının aktiv fəaliyyəti qarşı tərəfi əndişələndirib. Ermənilərin isteriyaya düşməsində Qərbi Azərbaycan İcmasının dekabrın 5-də Bakıda "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda təşkil etdiyi II beynəlxalq konfransın özünəməxsus rolu var. Konfransdan sonra Hayastan mediasında bu istiqamətdə çıxışların sayı artıb. Erməni cəmiyyətinin "başbilənləri" hayları səfərbər olmağa, Qərbi Azərbaycan ideyasını heç bir halda yaxına buraxmamağa səsləyirlər.

Belə müzakirələrdən biri Qarabağ klanına yaxınlığı ilə seçilən "Nyus.am" saytının "Güc faktoru" verilişində aparılıb. İrəvan Dövlət Universitetinin "Ermənistan tarixi" kafedrasının dosenti, tarix elmləri namizədi Mikael Malxasyan azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı ilə bağlı "həyəcan təbili" çalıb. Onun sayta müsahibəsi azərbaycanlıların Qərbi Azərbaycana qayıdışının Ermənistan cəmiyyətində doğurduğu rezonansın, ermənilərin bundan təşvişə düşməsinin bariz göstrəricisidir. Malxasyan bildirib ki, Azərbaycan tərəfi bir vasitə tapıb azərbaycanlıları Ermənistana yerləşdirə bilsə, baş verəcək "fəlakət"in miqyasını təsəvvür etmək belə mümkün olmayacaq: "Belə olan təqdirdə, biz, bəlkə də, geridönməz mərhələyə qədəm qoyacağıq və Ermənistanda dəhşətli reallıq hökm sürəcək".

Tarixçi adlanan şəxs yaşlı nəslin gözləri önündə baş verən yaxın tarixi hadisələri aşkar təhrif edib. Deyib ki, guya, rəsmi Bakının azərbaycanlıların Ermənistandan zorla qovulması ilə bağlı iddiaları tamamilə yalandır: "Əksinə, azərbaycanlılar sovet Azərbaycanında "soyqırımları"na məruz qalan, mülkləri əllərindən alınan (?) ermənilərdən fərqli olaraq, buradan dinc şəkildə, heç bir zərər görmədən getdilər. Sovet Azərbaycanını tərk edən ermənilər özləri ilə heç nə götürə, heç bir əmlak məsələsini həll edə bilmədilər. Hər şeyi apara bilən (?) azərbaycanlılardan fərqli olaraq, sadəcə, xilas olub qaçdılar. Azərbaycanlılar isə sovet Ermənistanını heç bir təzyiq olmadan, öz istəkləri ilə (?) tərk etdilər. Üstəlik, ya mülklərini yerli sakinlərə satdılar, ya da təzminat aldılar".

Malxasyanın sözlərinə görə, hazırda təhlükənin miqyasını dərk etməmək üçün insanların sayıqlığını azaltmağa cəhd olunur: "Azərbaycan tərəfdən bununla bağlı bəyanatlar veriləndə bizim hökumət rəsmiləri deyirlər ki, fikir verməyin. Bununla da əhalinin sayıqlığını azaltmağa çalışırlar. Deyirlər ki, XXI əsrdə milyonlarla əhalisi olan İrəvanı hansı təhlükə təhdid edə bilər? Bəs Suriya həmin XXI əsrdə yaşamırdı? Yaxud, 3 milyonluq Hələbin əhalisi Ermənistanın bütün əhalisindən çoxdur, lakin Hələb cəmi bir neçə saat ərzində süqut etdi. Azərbaycanda hər hansı erməni toponiminin (?) işlədilməsi qeyri-rəsmi şəkildə qadağan edilib. Azərbaycan Müdafiə Nazirliyi "Vardenis", "Tavuş", "Sevan" gölünü erməni adı ilə adlandırmır".

**"World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** XQ-yə bildirdi



ki, M.Malxasyanın yanaşması digər radikal erməni millətçilərinin yanaşmasından heç nə ilə fərqlənmir. Onun sözlərinə görə, bu adamlar həmişə olduğu kimi, indi də özlərinin uydurduqları tarixlə yaşayırlar. Hər dəfə yalanlar uydurduqca, beyinlərində yeni-yeni yalanlar peyda olur. Sonra isə həmin yalanları doğru kimi sırımağa uğursuz cəhdlər edirlər. Əvvəlcə öz cəmiyyətlərinə təlqin etdikləri uydurmaları sonradan xaricdəki lobbiçilərinə ötürürlər və onların köməyi ilə dünya miqyasında yaymağa çalışırlar. Nəticədə yalanlar sonradan müxtəlif kitablara daxil edilir, daşlaşır, qəlibləşir və onu tədricən "doğru" kimi qəbul edirlər: "Bu mənada Malxasyanın yanaşması da istisna deyil. Əlbəttə, onun fikirlərinin heç biri həqiqəti əks etdirmir. Bu adam tarixçi kimi iddia edir ki, 1604-cü ildə I Şah Abbasın vaxtında hansısa "Ararat vadisi"ndən, Naxçıvandan və digər ərazilərdən 600 minədək (?) erməni İrana köçürülüb. Guya, bunun nəticəsində sovet Ermənistanında demoqrafik nöqteyi-nəzərdən erməni əhalisinin "onurğa sütunu" qırılıb. Həmçinin, o, ermənilərin köçürüldükləri yerlərdə Şərqin müxtəlif müsəlman tayfalarının məskunlaşdırıldığını iddia edir. Onun sözlərinə görə, Rusiya imperiyası dövründə müsəlman xalqları "tatar" adlandırıblar. O, həmçinin vurğulayıb ki, 1970-ci il siyahıyaalmasına qədər Bakıda ermənilər və ruslar birlikdə götürüldükdə azərbaycanlılardan üstün olublar. Bilirsiniz, bizim səhvimiz Sovet İttifaqı zamanında ermənilərə yüksək imtiyazlar verməyimiz olub. Ermənilər Azərbaycanda ən yaxşı vəzifələrdə çalışıblar, şəhərlərdə məskunlaşıblar. Xalqımız tərəfindən onlara yüksək münasibət göstərilib. Onlar isə bunun qarşılığını öz nankorluqları ilə ortaya qoydular. Ermənilər hər bir istəklərinin yerinə yetiriləcəyinə o qədər əmin idilər, o qədər arxayınlaşmışdılar ki, son nəticədə Qarabağın dağlıq hissəsinə də iddia etməyə başladılar. Qarabağın azərbaycanlılar üçün, necə deyərlər, qırmızı xətt olduğunu gördükdə isə havadarlarının köməyi ilə silahlı müdaxiləyə əl atdılar".

Politoloq dedi ki, M.Malxasyanın Bakı ilə bağlı dedikləri də cəfəngiyyatdır. Onun sözlərinə görə, baş verənlər Ermənistanda Qərbi Azərbaycana qayıdışın qarşısıalınmaz proses olduğunu, gec-tez baş verəcəyini dərk etməkdən irəli gəlir. Ancaq onlar unudurlar ki, biz ermənilərdən fərqli olaraq soyqırımları və etnik təmizləmə həyata keçirən xalq deyilik. Humanist dəyərlər Azərbaycan xalqının qanında, canındadır.

Prezident İlham Əliyevin dekabrın 5-də "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətdə bildirdiyi kimi, Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin icmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın icmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Cənab İlham Əliyev müraciətdə çox haqlı olaraq qeyd etmişdir ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan icma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

Müsahibimiz onu da bildirdi ki, bir müddət öncə Ermənistan baş naziri Nikol Paşinyan ölkəsinin ictimai televiziyasına müsahibəsində bu məsələdən danışmışdı. Nikol demişdi ki, İrəvanda müasir Türkiyənin bir hissəsi olan və vaxtilə ermənilərin yaşadıqları ərazilərə aid edilən "Qərbi Ermənistan" ifadəsi respublikanın qonşularını qıcıqlandırır: "O, eyni zamanda, Qərbi Azərbaycan ifadəsinin Ermənistanda narazılıq doğurduğunu söyləmişdi. Ancaq bütün azərbaycanlıları öz ərazisindən zorla çıxaran və onların geri qayıtmasına mane olan məhz Ermənistandır. Ermənistan hökuməti, o cümlədən baş nazir Paşinyan Qərbi Azərbaycan İcmasının Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətlə geri qayıtması üçün dinc dialoqa çağırışlarına məhəl qoymur. Digər tərəfdən Paşinyanın açıqlamasından sonra ermənilər arasında Qərbi Azərbaycan isteriyası yaranıb. Tarixçi Ayk Paytyan, Bostonda yaşayan konfliktoloq Artur Martirosyan, politoloq Suren Surenyants, şərhçi Arman Abovyanın fikir və iddialarına görə, tezliklə Ermənistan şəhərlərinin adlarını dəyişməyə və Azərbaycan adlarından istifadə edilməyə başlanacaq. Guya, artıq təhsil ocaqlarında Azərbaycanın maraqlarına uyğun tezislər yayılır və təhsil proqramı "real Ermənistan" iddiası ilə Bakıdan gələn tapşırıqlara (?) uyğunlaşdırılır. Əlbəttə, bütün bunlar cəfəng iddialardır. İndi onlara özünü tarixçi adlandıran Malxasyanın qoşulması tarixi reallıqları dəyişdirməyəcək".

Politoloq sonda qeyd etdi ki, Qərbi Azərbaycan məsələsi Ermənistan üçün seçim yox, reallıqdır. Azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli qayıdışı təmin edilmədiyi müddətdə Ermənistanın regionda dövlət kimi mövcudluq perspektivi daim sual altında olacaq. Çünki Cənubi Qafqazda pozulan tarixi ədalət bərpa edilməlidir. Bölgəmizə yalnız bundan sonra uzunmüddətli sülh və sabitlik gələ bilər. Ermənilərin "başbilənləri" bu reallığı anladıqları üçün isteriyaya qapılırlar.

*Səxavət HƏMİD*
*XQ*

# Vyetnamla statistika anlaşması



**Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ilə ölkəmizdə səfərdə olan Vyetnamın Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huongun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının böyük məmnunluq doğurduğu qeyd edilib.

Xalqlarımız arasındakı münasibətlərin təməlinin hələ SSRİ dövründə qoyulduğu xüsusi vurğulanaraq Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın ümummilli lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyəti qeyd olunub.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qarşılıqlı səfərlərin əhəmiyyəti nəzərə çatdırılaraq 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnama dövlət səfərinin, 2015-ci ildə isə Vyetnam Prezidenti Truonq Tan Sanqın Azərbaycana rəsmi səfərinin ölkələr arasında siyasi, iqtisadi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaratdığı vurğulanıb.

Milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin edən və beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirən Azərbaycan ilə Vyetnamın iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsində maraqlı olduqları diqqətə çatdırılaraq müvafiq dövlət qurumları, o cümlədən, Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında əməkdaşlığın önəmi vurğulanıb.

Hər iki ölkənin statistika sahəsində təcrübəsinin qarşılıqlı maraq doğurduğu qeyd olunaraq müvafiq dövlət qurumlarının fəaliyyəti barədə ətraflı məlumat verilib, islahatlardan və innovasiyaların tətbiqindən bəhs edilib.

Daha sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında "Statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

*XQ*

# Yeni Azərbaycan Partiyasında müşavirə



**Dekabrın 17-də Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planına uyğun olaraq səsvermə gününədək müşahidə aparacaq şəxslərin təlimatlandırılması məqsədilə onlayn müşavirə keçirilib.**

Partiyadan bildirilib ki, tədbirdə seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat və izahat verilib.

Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.

*XQ*

# Erməni hərbi cinayətkarların işi məhkəməyə göndərilib

**Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasına qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işi məhkəməyə göndərilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırımı, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində cinayət işinin istintaqı aparılıb.

2024-cü il mayın 2-də Baş prokurorun qərarı ilə 1987-ci ilin oktyabr ayından 2024-cü il aprelin 22-dək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

Toplanılmış mötəbər sübutlar əsasında, ümumilikdə, 2548 epizod üzrə Ermənistan Respublikası Silahlı Qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər – Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunub, hər birinin müdafiə, bildiyi dilindən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxslər vəkillə təmin olunub. Habelə, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Həm ibtidai istintaqın gedişində, həm də ibtidai istintaq tamamlandıqdan sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib, iş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib, onlar cinayət işinin bütün materialları ilə tanış edilib.

Eyni zamanda, çoxsaylı cinayətlər törətməkdə ittiham olunan digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılaraq ibtidai istintaq davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu həmin istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxslərin Ermənistan Respublikasının ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistan Respublikasının aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edir.

Cinayət işi üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən 2024-cü il dekabrın 16-da təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

# Bakıda "Media savadlılığı" konfransı



**Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə dekabrın 17-də Bakıda "Media savadlılığı" konfransı keçirilib.**

Agentliyin icraçı direktoru Əhməd İsmayılov media savadlılığının artırılmasının kifayət qədər miqyaslı və cəmiyyətin bütün seqmentlərini əhatə edən davamlı proses olduğunu, dövlət qurumlarının, medianın və cəmiyyətin ünsiyyətinin sağlam prinsiplər əsasında qurulmasının, effektiv kommunikasiyasının vacibliyini, medianın məzmun istehsalında peşəkarlığının yüksəldilməsinin bu istiqamətdə mühüm əhəmiyyət daşıdığını bildirib.

Audiovizual Şuranın sədri İsmət Səttarov çıxışında media savadlılığının ehtiyac duyulan məlumatı tapmaq, qiymətləndirmək və ondan səmərəli istifadə etmək bacarığı olduğunu diqqətə çatdırıb.

Mərakeş Krallığının Audiovizual Kommunikasiyalar üzrə Ali Qurumunun sədri Lətifə Axarbaş isə müasir dövrdə elektron informasiya cəmiyyətinin sürətlə genişlənməsi və rəqəmsal mühitdə məlumatlara asan çıxışın təmin edilməsi ilə əlaqədar auditoriyanın xəbərin doğru və etibarlı tərəfini müəyyənləşdirməkdə çətinliklərlə üzləşdiyini vurğulayaraq media savadlılığının artırılmasının əhəmiyyətindən danışıb.

Prezident mükafatçısı və texno-bloger Tariyel Ağazadə dezinformasiyanın aşkarlanması ilə bağlı "Tools and Techniques" mövzusunda təqdimatla çıxış edib. Sonra "Rəqəmsal dövrdə gənclər və media savadlılığı" mövzusunda panel sessiya təşkil olunub, mövzu ətrafında çıxışlar dinlənilib.

Konfrans işini "Süni intellekt və media savadlılığı" və "Təhsildə media savadlılığı" mövzularında dəyirmi masalarla yekunlaşdırıb.

**XQ**



# AZƏRBAYCAN interregional güc kimi

## I MƏQALƏ

**Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

### İnterregionallıq

İnterregionallığın məna çalarları fəlsəfə ilə politologiyanın konseptual (nəzəri və metodoloji, yəni bilik və yanaşma aspekti) kəsişmə sahəsindədir. İnterregionallıq anlamı "regionlararası" terminlə mənaca tam eyni deyildir. Bu, həmin anlayışa verdiyimiz fəlsəfi anlamla bağlıdır. İnterregionallıq bir neçə (iki və daha çox) regionda mövcud olan problemlərin iki və daha çox dövlətlər üçün ortaq olmasını qəbul etməyə əsaslanan və həmin ölkələrin kollektiv fəaliyyəti ilə həlli prosesini ifadə edən geosiyasi, siyasi və təhlükəsizlik fenomenidir.

Yəni fəlsəfi olaraq "interregional" anlayışı üç aspekti özündə birləşdirir:

Birinci, o, siyasi, geosiyasi və coğrafi olaraq bir neçə ölkənin ortaq fəaliyyət məkanıdır.

İkinci, orada həmin ölkələrin ortaq hesab etdiyi problemlər mövcuddur.

Üçüncü, onların həlli üçün birgə yanaşma, üsul, vasitə və ortaq məqsədlərin olması zəruridir.

Bu şərtlər ödəndikdə söhbətin interregional mühitdən getdiyini demək olar.

Buradan anlayışın politoloji mənasına keçid edə bilərik. Vurğulanan anlamda fəlsəfi mənası qəbul edilən interregionallığın politoloji məna çaları, ortaq problemlərin həllində siyasi üsul və vasitələrin tətbiq edilməsi ilə bağlıdır. Yəni bir neçə region üçün aktual və ortaq olan geosiyasi, siyasi, təhlükəsizlik problemləri siyasi-diplomatik və hərbi vasitələrlə həll edilirsə, həmin anlayışın politoloji məna yükü də vardır.

Bu anlamlardan çıxış edərək "regionlararası" termininin interregionallıqdan fərqini müəyyən etmək olar. "Regionlararası" özündə bəri başdan problemlərin ortaq həlli aspektini ehtiva etmir. Bu anlayış daha çox bir neçə regiona vahid coğrafi-siyasi və geosiyasi sistem kimi baxmağa istiqamətləndirir. Həmin yanaşmanın çətiri altında hərbi, iqtisadi, sosial, mədəni, demoqrafik və s. sferalar nəzərdə tutulur.

"Regionlararası" bir dövlətin mövcud problemlərə yanaşması və onu həll etməyə yönəlmiş addımlarını əks etdirir. Bu baxımdan həmin termin interregionallıqda nəzərdə tutulan "dövlətlərarası" anlayışına deyil "transdövlət" (bir dövlətin problemi həll etmək üçün özünün siyasi, iqtisadi, hərbi və digər sərhədlərini açması, daha geniş sahəyə özünü proyeksiya etməsi) anlamına üstünlük verir.

Bu izahlardan sonra "interregional güc" anlayışının fəlsəfi və politoloji anlamına keçə bilərik.

### İnterregional güc

"İnterregional güc" anlayışı konkret dövlətə aiddir. Ancaq onun güc olmasının interregional kontekstdə bir özəlliyi vardır. Hər şeydən öncə, burada "güc" dedikdə, yalnız geosiyasi aspekt nəzərdə tutulmur. Ona siyasi-diplomatik, təbliğat və təşviq potensialı (passiv+aktiv) da daxildir. Mühüm məqam ondan ibarətdir ki, interregional miqyasda ortaq qəbul edilən problemlərin razılaşdırılmış mövqedən həllində dövlət öz potensialını uğurlu şəkildə feili aspektə tətbiq edə bilir. Yəni məsələ, sadəcə, böyük potensial imkanlara malik olmaqla məhdudlaşmır.

İnterregional miqyasda güc olmaq mütləq şəkildə liderin siyasi-diplomatik məharəti ilə onun problemlərin həllində nəticəverici tətbiqinin harmoniyasına nail olmağı nəzərdə tutur.

Deməli, dövlətin interregional gücü, hər şeydən öncə, liderin ortaq qəbul edilən müxtəlif problemlərin həllində liderlik məharəti ilə onu praktiki reallaşdırma peşəkarlığının ahəngdarlığından asılıdır. Həmin məqam da öz növbəsində üç xüsusiyyəti ehtiva edir.

Birincisi, dövlətin interregional kontekstdə ortaq problemlərin (ən kəskinləri də daxil olmaqla) razılaşdırılmış yanaşma əsasında həllində iştirakına inam və etibarın mövcudluğu.

İkincisi, həmin dövləti siyasi, geosiyasi, diplomatik və digər sferalarda problemlərin həllində iştirakının təmin edilməsi.

Üçüncüsü, dövlətin konkret və praktiki fəaliyyəti ilə interregional məkan üçün aktual olan məsələlərin həllinə ortaq maraqlar çərçivəsində töhfə verməsinin təsdiq və qəbul edilməsi.

Belə alınır ki, hər bir dövlət o zaman interregional güc sayılır ki, onun potensialı ilə feili davranışının ahəngdarlığı fonunda interregional miqyas üçün ortaq sayılan problemlərin həllində siyasi-diplomatik və praktiki iştirakı həm real mövcud olur, həm bu fakt qəbul edilir, həm də dövlət praktiki fəaliyyəti ilə onu təsdiq edir. Faktiki olaraq məsələ nəzəri və praktiki fəaliyyətin siyasi ekspert qiymətləndirməsi də interregional güc olmağın kriteriyalarından biri kimi özünü göstərməlidir.

Bu qısa fəlsəfi və politoloji anlamların fonunda Azərbaycanın interregional güc kimi özəlliklərinin təhlilinə baş vura bilərik.

### Təcrübə bazası

Azərbaycan postsovet məkanında yeganə müstəqil dövlətdir ki, baxdığımız istiqamət üzrə müsbət nəticəverici təcrübəyə malikdir. Onun konkret ifadəsi Azərbaycanın regional miqyasda ciddi olan bir problemi həll etməsindədir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illər həm regionun, həm də dünyanın böyük güclərinin marağında olan problem idi. Regionda və dünyada bu münaqişənin həlli ortaq hesab edilsə də, real addım atan olmadı. Hətta, ATƏT adlanan və onun Minsk qrupu kimi təqdim edilən qurumlar kollektiv fəaliyyət mexanizmlərinə malik olsalar da, məsələni həll etmədilər. Qonşu dövlətlərdən situasiyaya Rusiya ciddi təsir edə bilərdi, lakin etmədi. İran heç bir iş görmədi.

Bütün bunların fonunda Azərbaycan dövləti regional miqyas üçün ortaq problem sayılan həmin münaqişəni həll etmək üçün ardıcıl və düşünülmüş fəaliyyət göstərdi. Burada ulu öndər Heydər Əliyevin hazırladığı siyasi kurs həlledici və istiqamətverici rol oynadı. Nəticədə 30 illik çalışmadan sonra Azərbaycan postsovet məkanında ilk olaraq regional miqyasda ortaq olan ciddi bir problemi həll edə bildi. Burada təcrübə kimi iki məqam çox önəmlidir.

Birincisi, Azərbaycan dövlət olaraq problemin həllində həlledici rol oynadı. Bu mənada ölkəmizin regional ortaq problemin həllində əsaslı təcrübəsi vardır. İkincisi, məsələnin regional və qlobal miqyaslarda geosiyasi və təhlükəsizliyin təmini baxımından etibarlı həlli üçün Türkiyə ilə sıx əlaqələri təmin etdi. Onu mütləq vurğulamaq lazımdır ki, bu prosesdə də Bakı aparıcı rol oynamışdır. Məhz Azərbaycan Prezidentinin davamlı, qətiyyətli və səmərəli siyasi-diplomatik fəaliyyəti əsasında Türkiyə mənəvi dəstəyini əsirgəməmişdir.

Həmin özəllik regional və interregional miqyaslarda Azərbaycanın ortaq sayılan problemlərin həlli təcrübəsinin çox vacib aspektini təşkil edir. Belə ki, XXI əsrdə müstəqil dövlətin problemləri həll etməkdə siyasi, diplomatik və təhlükəsizliyin təmini istiqamətlərində fəaliyyətində təşkiledicilik, birləşdiricilik potensialı olduqca əhəmiyyətli faktordur.

Bundan başqa, regional miqyasda ortaq olan problemin həllində Azərbaycanın yerli dövlətlərə münasibətində nümayiş etdirdiyi sivillik, sülhsevərlik, barışçıllıq, əməkdaşlıq və təhlükəsizliyin təmini kimi faktorlara önəm verməsi xüsusi fəaliyyət mədəniyyətidir. Onun interregional miqyasdakı fəaliyyəti üçün ciddi baza rolunu danmaq olmaz.

Burada onu da vurğulamaq istərdik ki, Azərbaycanın regional miqyasda ortaq problemlərdən birini həll etməsi təcrübəsi, bütövlükdə, Avrasiya məkanı üçün qiymətli təcrübədir. Eyni məntiqlə postsovet məkanında heç bir dövlətin belə təcrübəsi yoxdur. Buna görə də Azərbaycan Prezident İlham Əliyevin sayəsində çox əhəmiyyətli və tarixi mahiyyəti olan təcrübə toplamışdır. İndi həmin təcrübənin interregional miqyasa proyeksiyası prosesi gedir. Bununla Azərbaycan Respublikası həmin məkanda real geosiyasi güc statusundadır! Bu tezisi iki istiqamətdə – Türk Dünyası və Yaxın Şərqdə müşahidə etdiyimiz proseslərin fonunda izah edə bilərik.

### Azərbaycan Türk dünyasında interregional güc kimi

Bu, özlüyündə həm Azərbaycan təcrübəsi, həm də TDT təcrübəsi baxımından maraqlı məsələdir. Türk dünyası faktiki olaraq regionlararası məkanı əhatə edir. Avropa (biz, konkret olaraq Macarıstanı nəzərdə tuturuq–F.Q,), Balkanlar, Yaxın Şərq, Qafqaz, Mərkəzi Asiya, Rusiya, Uzaq Şərq, Cənub Şərqi və Cənub Qərbi Asiya kimi geniş bir geosiyasi məkanı əhatə edir. Bundan başqa, regionlararası miqyasda hər bir regionun özünəməxsus problemləri təsir göstərir. Nəticədə mürəkkəb bir situasiya yaranır. Onları interregional miqyasa proyeksiya edəndə isə ortaq problemlərin təsnifatı belə asan olmur. Lakin biz məsələyə sırf türk dövlətləri üçün ortaq olan məsələlərin prizmasında baxdığımızdan müəyyən düzən yaratmaq olar.

Azərbaycan sürətlə Türk dünyası üçün ortaq sayılan məsələlərin həllində fəal iştirak etməyə başlamışdır. Həmin problemlər siyasi, diplomatik, əməkdaşlıq, təhlükəsizlik, iqtisadi, energetik, informasiya-kommunikasiya, ticari, nəqliyyat-loqistika, hüquqi, mədəni, mənəvi, əxlaqi, elm, təhsil xarakterlidir. Bakı regional təcrübəsindən yaradıcı istifadə edərək Türk dünyası miqyasında interregional təcrübə toplamaqdadır. Politoloji kontekstdə həmin təcrübənin Azərbaycanı geosiyasi güc kimi xarakterizə edən bir sıra əlamətlərini göstərmək olar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

## Mark Endeveld

**(əvvəli ötən sayımızda)**

... Düzdür, prezident onları qorxudur, onlara hədə qorxu gəlir, onları manipulyasiya edir, amma o da həqiqətdir ki, bu adamların çoxu hər şeydən əvvəl makronizmdən məyus olan adamlardır. Onlar bizneslərini qorumaq üçün məcbur olub yavaş-yavaş silahlarını çıxarmağa başlayırlar. Çünki Makronun ən yüksək səviyyəyə qəfil gəlişi, onun göz qamaşdıran performansı, sağçılar və solçular arasında indiyədək mövcud olan kiçik vərdişləri pozdu, o cümlədən maliyyə səviyyəsində. Keçmiş bankir kimi Makron onu da yaxşı bilir ki, siyasət həm də pul məsələsidir. Hakimiyyətdə uzun müddət qalmaq, dövləti uzun müddət öz nəzarəti altında saxlamaq üçün o, indiki və gələcək düşmənləri ilə soyuq müharibə aparır. Benalla məsələsindən əvvəl, eləcə də sarı jiletlilərin sosial qarşıdurmasından çox-çox qabaq Nikola Sarkozini dəstəkləyən bir nəfər qorxu və həyəcan içində bizə demişdi: "Makron düz on il hakimiyyətdə qalacaq... Bir sıra siyasi çətinliklərlə qarşılaşmağına baxmayaraq, o, hakimiyyəti əlində saxlamaq üçün hər şeyə əl atacaq və heç kəsə onun yolunu kəsməyə imkan verməyəcək...".

jurnalına verdiyi müsahibədə açıq-aydın demişdi:

"Tam səmimiyyətimlə etiraf edirəm ki, mən prezidenti qorumaq üçün çox vaxt yalan danışıram..." (?)

Prezident seçkilərindən az sonra tarixçi Patrik Buşeron qeyd etdi ki, Makron siyasi fəaliyyətə özünün bandası – hakimiyyətə və hakimiyyətdə olanlarla dostluğa can atan gənclər bandası ilə başladı. Ancaq cəmi iki ildən sonra Makronun prezident olmasında əsas rol oynayan və seçki kampaniyasında ona dəstək verən "klan" Benalla məsələsindən sonra dağıldı. İlin əvvəlindən könüllü istefa verənlərin, eləcə də işdən xaric olunanların sayı artdı. İstər-istəməz ortaya belə bir sual çıxır: Bu cür hərəkət sistemdəki əxlaqsızlığı və pozğunluğu gizlətməyin bir yoludur, yoxsa bu əxlaqsızlıqları və pozğunluqları sifariş edən adamı qorumaq üçündür? Çünki o vaxt Aleksandr Benallanın missiyası yalnız təhlükəsizlik məsələləri ilə məhdudlaşmırdı. O, prezidentliyə namizəd Emmanuel Makronun səyahətlərini, xüsusən də xarici ölkələrə olan səfərlərini təşkil edirdi. Makron seçki kampaniyasını maliyyələşdirməkdən ötrü tez-tez Londona, Nyu-Yorka, Beyruta və Əlcəzairə səfər edirdi. Təbii ki, prezidentliyə namizəd olan bir şəxsin yanında daim fırlanan bir adam seçki kampaniyasının çox sirlərini bilir. Ona görə də Benalla məsələsi ortalığa çıxanda qorxudan prezidentin qarnına ağrı dolmuşdu; 2016-cı ildən bəri "Hərəkətdə!" hərəkatını yaratmaqda ona dəstək olan, indiyə qədər onunla irəliləyən "klan"ı başından eləməyə çalışırdı.




### Kiçik və böyük sirlər

Emmanuel Makronun hakimiyyətinin bünövrəsi müəmmalardan, sirlərdən və məxfi əlaqələrdən qurulub. Bu bünövrə ona əvvəllər bir-birinə zidd olan şəbəkələri manipulyasiya etməyə geniş imkan verir. Makron hakimiyyətə gələndə keçdiyi yolları, cığırları silib yox etməkdə, eləcə də ona hakimiyyətə gəlməkdə kömək edən adamları özündən uzaqlaşdırmaqda çox mahirdir. Bundan başqa, Makron onun hakimiyyətə necə gəldiyini araşdıran jurnalistlərin işini də çətinləşdirməyi ustalıqla bacarır. Onun ətrafındakı qeyri-rəsmi məsləhətçilər nəinki çoxdur, onlar hətta bütün nəzarətdən kənardadılar. Prezident seçkiləri kampaniyası zamanı bu namizəd ancaq Teleqram proqramından istifadə edirdi – klassik mesaj proqramlarına və elektron poçtlara etibar etmirdi. Onun sevdiyi idman növü? Çevrəsindəki adamları, kontaktda olduğu siyasətçiləri yalandan tərifləyib göylərə qaldırmaq və beləliklə, ona lazım olan məsləhətləri almaq. Ətrafındakı işçilərdən biri etiraf edir: "Bir də gördün prezident gecə saat birdə, ya ikidə zəng vurub səndən nə isə soruşur, ya müəyyən bir mövzuda sual verir, bəzən mübahisəli məsələlər olanda yazılı şəkildə açıq-aşkar izahat istəyir. O bu hərəkəti böyük şirkətlərin rəhbərlərinə, yüksək vəzifəli məmurlara, keçmiş həmkarlarına və institut yoldaşlarına, eləcə də bəzi jurnalistlərə qarşı edir. Təbii ki, özündənrazı, tərifi sevən insanlar, Makronun tərifləri qarşısında əriyib onun xahişlərini yerinə yetirirlər... Ancaq onların Makrona işi düşəndə prezident heç onların zənglərinə belə cavab vermir".

Makron prezident olandan Yelisey sarayında sirr və müəmma kultu ara vermədən davam edir. Emmanuel Makron senatorların narazılığına baxmayaraq, öz komandasındakı "qeyri-rəsmi məsləhətçilərin" sayını artırır. Belə ki, prezidentin komandasındakı səkkiz "missiya icraçısının" adları heç bir rəsmi siyahıda və rəsmi orqaniqramda qeyd olunmayıb. İndiyə qədər onların nə işlə məşğul olduqları hamı üçün sirr olaraq qalır. Bu müəmmanı artıq hamı, eləcə də prezidentin mətbuat orqanı da qəbul edib və buna təbii baxırlar. 2017-ci ilin iyul ayında prezidentin mətbuat şöbəsinin direktoru Sibet Ndiay L'Express

Makron yaxşı bilir ki, ona hakimiyyətə gəlməkdə kömək edənlərlə heç olmasa üzdə yaxşı olmalıdır. Vay o adamların halına ki, onlar Makronun qoyduğu qırmızı xətti keçib ona yaxınlaşmağa can atırlar. Necə ki vaxtilə ona vasitəçilik edən, onun seçki kampaniyasına pul toplayan Aleksandr Djuri... Makron prezident olandan sonra Əlcəzairə səfər edəndə, bu adam dəvətsiz-filansız özünü Fransa səfirliyində prezidentin şərəfinə verilən ziyafətə soxmuşdu... Bir müddət sonra isə o, London aeroportunda, ingilis polisi tərəfindən həbs olundu. 39 yaşında prezident seçilən Makron indi hakimiyyətə gəlməyində ona kömək edən, necə deyərlər, onun nə vaxtsa asılı olduğu adamlarla özü arasında sərhəd qoyur. Özünün etiraf etdiyi kimi hakimiyyətə "oğurluqla" gələn bu adam prezident olmaq üçün Monteburqun və Villpəntin çevrəsindəki adamlardan, vaxtilə Sarkozini, Şirakı dəstəkləyən Jan-Pier Raffaran, JanLui Borlo və onun keçmiş yol yoldaşı DSK (Dominik Stros-Kan) kimi şəxsiyyətlərdən ustalıqla istifadə etdi. Seçki kampaniyası zamanı Fransua Hollandın keçmiş maliyyəçiləri də ona xeyli kömək göstərdilər. "Pis qoxu hiss edən kimi Makron tez onlardan uzaqlaşır. Ancaq bu, o demək deyil ki, o, daha bu adamlardan istifadə etmir", – deyə onun çevrəsindəkilərdən biri bizə etiraf etdi.

Amma bu araşdırmalarımızın ən böyük sürprizlərindən biri odur ki, Makron kampaniya dövründə, hər şeydən əvvəl, 1990-cı illərin ortalarında prezident Mitteranla (solçu) Baş nazir Balladürun (sağçı) birgə hakimiyyətində iştirak edən siyasətçilərə arxalanırdı. Dövləti həmişə idarə edən Sosialist və Respublika partiyalarını, eləcə də onların üzdə olan rəhbərlərini uzaqlaşdırmaq üçün Makron keçmiş nəslin nümayəndələrindən ustalıqla istifadə etdi, daha doğrusu, Fransua Mitteranın hakimiyyətinin sonunu görən nəsildən.

Eyni zamanda, bu adam Mitteranın və Balladürun şəbəkələri arasındakı iri beynəlxalq müqavilələri də öz əlinə alıb İqtisadiyyat Nazirliyinin kölgəsində öz bildiyi kimi "fırlatdı".

**(ardı var)**

**Xatırladaq ki, azərbaycanlıların indiki Ermənistan ərazisində çəkdikləri əzab-əziyyət iki yüz il davam etsə də, onların öz ata-baba yurdlarından deportasiyası əsasən üç mərhələdə aparılmışdır. Ötən əsrin əvvəllərində, 1948–1953-cü illərdə və səksəninci illərin sonlarında. Bu yazıda bədnam qonşularımızın həmin vəhşiliklərinin ikinci mərhələsindən söz açmaq istəyirik.**

> **SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948–1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur.**
>
> ***"1948 –1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmandan***
>
> **Bakı şəhəri, 18 dekabr 1997-ci il**

# Qərbi azərbaycanlılar öz tarixi-etnik torpaqlarına qayıtmalıdırlar

*Ulu öndər düz 27 il bundan əvvəl bu fikri qətiyyətlə söyləmişdir*

Son iki əsrdəki tariximizin hansı səhifəsinə baxsaq, deportasiya, soyqırımı, sürgün, repressiya, terror, təxribat, işğal, ilhaq, milli ayrı-seçkilik və digər bu kimi mənfi tendensiyaların çoxsaylı fəsadları ilə üz-üzə qalırıq. Ancaq xalqımızın ağrı və itkiləri bunlarla da bitmir. Biz zorən qatıldığımız ( Çar Rusiyası və SSRİ dövründə), özümüzə qətiyyən dəxli olmayan müharibələrdə də çoxsaylı itkilər vermiş, maddi, mənəvi və iqtisadi cəhətdən ağır problemlər yaşamalı olmuşuq.

Nə yaxşı ki, ötən əsrin doxsanıncı illərinin əvvəlində biz həmin əsrin əvvəllərində qazanıb itirdiyimiz dövlət müstəqilliyimizin bərpasına nail olduq. Xoşbəxtlikdən bu dəfə müstəqil dövlətimizin sükanı arxasına Heydər Əliyev kimi siyasət dahisi gəldi. Bununla da, çoxsaylı tarixi faciələrimizin hamısının yenidən, obyektiv, ədalətli şəkildə qiymətləndirilməsinə nail olduq və bir çoxunun fəsadlarını aradan qaldıra bildik. Qətiyyətlə deyə bilərik ki, bugünkü qüdrətli Azərbaycan dövlətinin qazandığı bütün uğurların təməlində məhz ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun uğurla davam etdirilməsi dayanır.

Bəzi faktları qısaca da olsa xatırladaq. Tam əminik ki, 1989–1990-cı illərdə Kremlin kommunist rejiminin Azərbaycana qarşı yeritdiyi ayrı-seçkiliyi və öldürücü haqsızlığı heç kəs unutmayıb. Həmin faciələr ona görə törədilirdi ki, Azərbaycanın haqq səsini eşidən yox idi. Ona görə bizim səsimizi eşitmirdilər ki, xalqın önündə gedəcək lider yox idi.

Bəs sonra nə oldu? Sonra Azərbaycan Prezidenti İlham Əliyev BMT tribunasından çıxış edərək, bu beynəlxalq təşkilatın tamamilə hörmətsiz bir quruma çevrilməməsi üçün Təhlükəsizlik Şurasında islahatlar aparılmasının zəruriliyindən danışdı. Daha sonra isə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin Azərbaycan öz əsgərinin əli ilə həyata keçirilməsinə nail oldu.

Yaxud, Ermənistan rəhbərliyi Azərbaycana qarşı ərazi iddialarını reallaşdırmaq məqsədi ilə vəhşicəsinə yüz minlərlə insana sitəm edəndə, Xocalı soyqırımını törədəndə ABŞ rəhbərliyi işğaçlçı dövlətin "başını tumarlayaraq", Azərbaycana qarşı "907-ci düzəliş" deyilən iyrənc bir qərar ortaya qoymuşdu. Sonra nə oldu? Sonra Prezident İlham Əliyev vəhşi qonşularımızın yandırıb, yerlə-yeksan etdiyi Xocalıda Azərbaycan Bayrağını qaldırdı və həmin yurd yerimizi də işğaldan azad edilmiş digər şəhər və kəndlərimiz kimi cənnətə çevirməkdədir.

Bunlar tariximizdəki ağrılı faktların cəmi ikisinin fəsadlarının aradan qaldırılmasının göstəricisidir. Ancaq min illər boyu Azərbaycan türklərinin yaşadığı – indi Ermənistan adlanan ərazilərimizdən qovulmuş yüz minlərlə soydaşımızın hüquqları hələ də bərpa olunmayıb.

Nə zamansa bu prosesə də start veriləcəyini yaxşı bilən ulu öndər Heydər Əliyev hələ 27 il əvvəl – 1997-ci il dekabrın 18-də "1948 –1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi – etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalamış, həmin tarixi faktların dəqiq tədqiq edilməsi üçün mühüm dövlət komissiyası yaradılmışdı.



Sonra nə oldu? Sonra Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdəki nitqində birmənalı olaraq söylədi ki, deportasiya edilmiş soydaşlarımız öz ata-baba yurdlarına qayıtmalıdırlar. Əlavə etdi ki, biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterikaya başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən, beynəlxalq müstəvidə daha fəal olmalıyıq".

Fikrimizcə, cənab Prezidentin bu qətiyyətini şərtləndirən əsas məqamlardan biri də məhz ulu öndərin adı çəkilən fərmanla yaratdığı komissiyanın apardığı genişmiqyaslı tədqiqat işlərinin əldə olunan nəticələridir.

Heydər Əliyevin imzaladığı fərmanın preambulasında qeyd edilirdi ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizlənmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır: "Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Uzun illər Prezident Kitabxanasında şöbə müdiri vəzifəsində çalışmış, tarix elmləri namizədi, Dövlət Mükafatı laureatı Nazim Mustafa 1948–53-cü illər deportasiyasının səbəbləri barədə yazarkən qeyd edir ki, həmin illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası ermənilərin və onların havadarlarının İkinci Dünya müharibəsinin sonunda Sovet İttifaqının üstün mövqeyə çıxması ilə yaranan şəraitdən bəhrələnmək siyasətinin növbəti mərhələsi idi:

"İkinci Dünya müharibəsinin sonlarına yaxın ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin Türkiyəyə hücum etmək planları üst-üstə düşürdü. İ.V. Stalin Rusiya ilə Türkiyənin 1914-cü il sərhədlərini bərpa etmək, yəni Qars və Ərdahan vilayətlərini yenidən Türkiyədən qoparmaq istəyirdi. Lakin Türkiyədən qoparılması nəzərdə tutulan ərazilərin məskunlaşdırılması problemi qarşıya çıxmışdı. Bu problemin xaricdə məskunlaşan, əvvəllər Türkiyədə yaşamış ermənilərin hesabına həll edilməsi nəzərdə tutulurdu. Qarşıdan isə bütün ermənilərin katolikosunu seçmək kampaniyası gəlirdi.

İosif Stalin bu məqamdan istifadə edərək, Eçmiədzin kilsəsinin arxiyepiskopu, katolikos postuna real namizəd Gevorq Çörəkçyanı Moskvaya çağırır. 1945-ci il aprelin 19-da Çörəkçyan Stalinlə görüşür. Görüşün sonunda İ.Stalin deyir ki, sovet hökuməti 1921-ci ildə Türkiyəyə verilmiş torpaqları qaytarmaq istəyir, arzu olunandır ki, həmin torpaqlarda Türkiyədən qaçmış və hazırda xaricə səpələnmiş ermənilər məskunlaşdırılsınlar. İ.Stalin, təqribən, 100 min erməninin immiqrasiyasını təşkil etmək haqqında tezliklə hökumətin qərarının olacağını bildirir və Eçmiədzin kilsəsinin bu işdə kömək göstərməsini istəyir".

Bununla da, azərbaycanlıların kütləvi deportasiyasına hazırlıq işləri başlanır və həmin proses şərəfsizcəsinə reallaşdırılır. Yəni ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı bir alət kimi istifadə olunmuşlar.

Sonda, Qərbi Azərbaycan İcmasının dekabrın 16-da yaydığı bəyanatda deyilir: "BMT-nin İrqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitəsində Ermənistanın dövri məruzəsinə dair baxışı zamanı BMT ekspertləri tərəfindən azərbaycanlıların Ermənistandan deportasiya edilməsi və Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin dağıdılması ilə bağlı məqamların qabardılması təqdirəlayiqdir".

İcmanın bəyanatında əlavə edilir ki, Ermənistanın işğal dönəmində Yuxarı Gövhər ağa məscidinin Azərbaycan xalqına məxsusluğunu inkar etməsi siyasəti tam uğursuzluğa düçar olduğu kimi, Göy məscidin də Azərbaycan mənşəyini danmasının heç bir perspektivi yoxdur. Nə Ermənistan rəsmilərinin BMT kürsülərindən isterik cavabları, nə də Fransanın Ermənistandakı şovinist səfirinin gülünc "atmaca"-ları Azərbaycan xalqının qədim tarixini, zəngin mədəni irsini, izini silə bilməz.

***İttifaq MİRZƏBƏYLİ***

# Azərbaycan 2024–2026-cı illərdə AQEM-ə sədrlik edəcək




**Dekabrın 17-də ölkəmizin ev sahibliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xarici İşlər Nazirləri Şurasının virtual formatda 7-ci iclası keçirilib.**

Nazirlər Şurasının iclasında 27 üzv ölkədən nazirlər, dövlət nazirləri, nazir müavinləri, habelə nümayəndə heyətlərinin rəhbərləri iştirak ediblər. Tədbirə, həmçinin 3 müşahidəçi dövlət və 8 tərəfdaş beynəlxalq təşkilatın rəhbərləri qatılıb.

Nazirlər Şurasının 7-ci iclasında Müşavirəyə 2024–2026-cı illər üzrə Sədrlik Qazaxıstandan Azərbaycana keçib.

İclasda çıxış edən nazir Ceyhun Bayramov 2024–2026-cı illər üzrə AQEM-də Sədrliyi Azərbaycana həvalə etməklə ölkəmizə göstərilən etimada görə bütün üzv dövlətlərə təşəkkürünü bildirib.

Nazir, həmçinin çoxqütblülüyün gücləndiyi və çoxtərəfliliyin yeni çağırışlarla üzləşdiyi bir dövrdə Asiya qitəsinin həmin çağırışlara birlik və əməkdaşlıq şəraitində, eyni zamanda, ortaq məsuliyyət prinsipi əsasında cavab verməli olduğunu, AQEM-in bu əməkdaşlığı daha da inkişaf etdirərək çağırışları dəf etmək üçün unikal bir platforma olduğunu diqqətə çatdırıb.

İclasın yekununda "AQEM üzv dövlətləri arasında münasibətlərin rəhbər prinsipləri haqqında Bəyannamə"nin 25 illiyi ilə bağlı Nazirlər Şurasının Bəyanatı, Etimad quruculuğu tədbirlərinin icrasının modallıqlarına dair Nazirlər Şurasının qərarı, Etimad quruculuğu tədbirlərin kataloqunun yenilənmiş versiyası və AQEM üzv dövlətlərinin Aparıcı Universitetlərinin Tərəfdaşlıq Şəbəkəsinin təsis edilməsinə dair memorandum layihələri qəbul edilib.

*

Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Nazirlər Şurasının 7-ci görüşündə çıxış edib.

Nazir AQEM üzv dövlətlərinə Azərbaycana göstərdikləri etimad və inama görə təşəkkürünü bildirib. C.Bayramov qeyd edib ki, Azərbaycanın Sədrliyi "Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı inkişaf" mövzusuna əsaslanmaqla, 3 fundamental istiqaməti prioritetləşdirəcək. AQEM çərçivəsində təhsil və elm sahələrinin potensialı da az istifadə edilmiş olaraq qalır.

Sadalanan birbaşa prioritetlərdən başqa, sədrlik regionumuzun dəyişən ehtiyaclarının təmin olunması naminə qarşılıqlı əlaqə və etimad quruculuğu tədbirləri üzrə yeni istiqamətlərin araşdırılmasına açıqdır. Bu məqsədlə sədrlik əlaqələndiricilər və həməlaqələndiricilərlə yaxından işləyəcək.

# İsveçrə parlamentinin səlibçi mövqeyi ikrah doğurur

**İsveçrə parlamentinin aşağı palatasında Azərbaycan əleyhinə qəbul edilmiş qətnamədə yer almış şər-böhtan, hansısa "sülh forumunun çağırılması" kimi cəfəng çağırışlar ona səs verənlərin hər gün Zəngəzur dağlarından Azərbaycan tərəfə binoklla baxan təxribatçı siyasətçilər və diplomatlar ilə birlikdə hərəkət etdiklərini göstərir.**

Bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: "Qətnaməni dəstəkləyən deputatların ermənilərin qayıdışının vacibliyini qabardaraq biz Qərbi azərbaycanlılara münasibətdə Ermənistana çağırış etməmələri, etnik və dini təəssübkeşliyin girovuna çevrilmələri, XX əsrin əvvəllərində baş verdiyi iddia olunan uydurma hadisələrə istinad etmələri, Azərbaycana qarşı xüsusilə şanlı Vətən müharibəsindən sonra Qərbdə bəziləri tərəfindən aparılan "səlib yürüşü"nə qoşulmaları ikrah doğurur".

**Xarici media səhifələrində**

# "The Jerusalem Post": Ermənilər konstitusiyalarına yenidən baxmalıdırlar

**Bugünlərdə dünyanın ən nüfuzlu nəşrlərindən olan "The Jerusalem Post" qəzeti dərc etdiyi materialların birində belə bir fikir bildirib: "Ermənilər Azərbaycanın milli suverenliyinə hörmətlə yanaşmaq üçün konstitusiyalarına yenidən baxmalıdırlar". Bu fikri İsrailin ərəb dünyası və İran üzrə tanınmış eksperti, İsrail Müdafiə Qüvvələrinin Kəşfiyyat Korpusunun sabiq polkovnik-leytenantı, həmin ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı doktor Mordexay Kedar "Jerusalem Post"da dərc etdirdiyi "Türkiyə İranın yerinə yeni regional güc olacaqmı?" sərlövhəli məqaləsində irəli sürüb.**

Yazıda Rusiyanın dəstəyindən məhrum olan Ermənistanın ölkəmizlə sülh sazişi imzalamaq perspektivi fonunda Tehranın da dəstəyindən uzaqlaşaraq Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətləri yaratması alternativsiz variant kimi qiymətləndirilib. Müəllifin fikrincə, hadisələrin bu istiqamətdə cərəyan etməsi bölgədə Tehran tərəfindən təşviq olunan dini radikalizmi xeyli zəiflədəcək. Azərbaycan isə nəzarətində olan hər bir ərazidə dünyəvi qanunun aliliyini təmin edərək bugünədək uğurlu şəkildə dini radikalizmin yayılmasının qarşısını almaqla bölgədə dünyəvi dövlətçilik mühitinin bərqərar olmasına mühüm töhfə verib.



İsrailli professor qeyd edib ki, Türkiyənin strateji müttəfiqi olan Azərbaycanın Vətən müharibəsində qələbəsi bölgəni gərginlikdə saxlayan qüvvələrin zəifləməsinə, əvəzində türk alyansının təsirinin artmasına rəvac verib. Məqalədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayaraq 30 il ərzində Qarabağı və Azərbaycanın 7 rayonunu qanunsuz olaraq işğal altında saxlayan Ermənistanın təcavüzü nəticəsində bir milyona yaxın soydaşımızın məcburi köçkünə çevrildiyi də xatırladılıb. Müəllif bütün qeyd olunanların fonunda ermənilərin Azərbaycanın milli suverenliyinə hörmətlə yanaşdıqlarını göstərmələri üçün öz konstitusiyalarını yenidən nəzərdən keçirməsinin zəruriliyini diqqətə çatdırıb.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Gömrük-biznes dialoqu və iqtisadi tərəqqi

**Dünən "Gülüstan" sarayında Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatı Milli Konfederasiyasının təşkilatçılığı və "BP" şirkətinin dəstəyi ilə "Gömrük-Biznes Forumu 2024 Dialoq" adlı tədbir keçirilib.**




Gömrük-biznes əməkdaşlığının gücləndirilməsi, bu il ərzində həyata keçirilən və gələcəkdə reallaşdırılması nəzərdə tutulan layihələrin özəl sektorun və digər maraqlı tərəflərin nümayəndələri ilə birgə müzakirəsinə imkan yaradacaq işgüzar platformanın formalaşdırılması məqsədi daşıyan forumda dövlət və özəl sektorun, ictimaiyyətin nümayəndələri, gömrük işinin təşkili sahəsində ixtisaslaşan elm adamları, ekspertlər və media təmsilçiləri iştirak ediblər.

Tədbirin açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov çıxış edərək bildirib ki, son 5 ildə ölkəmizin xarici ticarət dövriyyəsi 2 dəfədən çox artaraq 52 milyard dollara çatıb. Qeyd olunub ki, gömrük prosedurlarının sadələşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması sayəsində yerli və xarici investorlar üçün daha əlverişli imkanlar yaradılıb. Nəqliyyat dəhlizlərinin Azərbaycanın tranzit imkanlarını artırdığını və biznes subyektləri üçün əhəmiyyətli imkanlar yaratdığını diqqətə çatdıran natiq deyib ki, Orta Dəhliz vasitəsilə Çindən Avropaya daşınan yüklərin tranzit müddəti 8-10 günə qədər azalıb.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov çıxışında bildirib ki, gömrük rüsumları və vergiləri 2023-cü ilin dövlət büdcəsinin 18 faizini, ÜDM-in isə 5,2 faizini təşkil edib. Qeyd olunub ki, büdcə daxilolmaları üzrə gömrük gəlirlərində 2023-cü ildə əvvəlki illə müqayisədə 12,4 faiz artım müşahidə olunub. Onun sözlərinə görə, komitə gəlirlərin toplanması istiqamətində beynəlxalq standartlara uyğun metodik vəsait, elektron bildiriş sistemi və təminat əsasında malların buraxılış mexanizmini hazırlayıb.

Komitə sədri qeyd edib ki, son bir il ərzində Avtomatlaşdırılmış Risk Təhlili Sisteminin tətbiqi nəticəsində orta sərhədkeçmə vaxtı 58 faiz, rəsmiləşdirmə müddəti 15 faiz, fiziki yoxlamaların sayı isə 20 faiz azalıb. Ötən il sözügedən sistemin tətbiqinin alətlərin daha effektiv istifadəsinə imkan yaratdığını vurğulayan Ş. Bağırov deyib ki, bu zaman gömrük rəsmiləşdirilməsinə sərf olunan vaxt azaldılır, daşımalar üzrə xərclər minimuma endirilir ki, bu da gömrük qanunvericiliyinə əməl edən xarici ticarət iştirakçıları üçün əlverişli biznes mühiti formalaşdırır.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxışında qeyd edib ki, son 6 ildə ölkəmizdə əməkhaqqı fondunun 3,2 dəfədən çox artması biznesin inkişafının əsas göstəricilərindəndir. Onun sözlərinə görə, bu dövr ərzində Azərbaycanda əmək müqavilələrinin artımının 80 faizi özəl sektorun sayəsində olub. Qarabağda əmək qabiliyyətli vətəndaşların 85 faizinin işlə təmin olunduğunu diqqətə çatdıran nazir deyib ki, hazırda qalan vətəndaşların da məşğulluğunun təmin edilməsi istiqamətində lazımi işlər görülür.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin (KOBİA) sədri Orxan Məmmədov çıxışında kiçik və orta biznes subyektlərinin ölkə iqtisadiyyatındakı rolundan bəhs edib. Müasir dövrdə gömrük əməliyyatlarının biznes prosesinin mühüm tərkib hissəsini təşkil etdiyini vurğulayan KOBİA sədri deyib ki, ölkəmizdə fəaliyyətdə olan sahibkarların 99,7 faizini KOB subyektləri təşkil etdiyini nəzərə alsaq, gömrük əməliyyatı istifadəçiləri olan sahibkarların da mütləq əksəriyyətinin KOB-ların payına düşdüyünü söyləmək olar. Onun sözlərinə görə, Dövlət Gömrük Komitəsi ilə əməkdaşlığın həcm və effektivlik baxımından böyük hissəsi xidmət təminatı ilə bağlıdır.

Hazırda "KOB ev"lərində müxtəlif dövlət və özəl qurumlar, o cümlədən Dövlət Gömrük Komitəsi tərəfindən vahid məkanda xidmətlərin təmin olunduğunu diqqətə çatdıran O. Məmmədov deyib ki, "Bakı KOB evi"ndə həm də Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonası fəaliyyət göstərir ki, burada "KOB gömrük anbarı" ilə yanaşı, gömrük təmsilçiləri, logistika şirkətləri və digər idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər mövcuddur. KOBİA sədri, həmçinin bildirib ki, hazırkı gömrük-biznes forumu da idxal-ixrac əməliyyatları sahəsində maraqlı tərəflərin bir araya gəlməsi, yeniliklərin paylaşılması, müzakirələrin aparılması üçün əlverişli platforma təmin edir.

Forumda, həmçinin Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Sahibkarlar Təşkilatı Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və digərləri çıxış ediblər.

Sonra Dövlət Gömrük Komitəsinin mütəxəssisləri tərəfindən hazırlanan, 2025-ci ildən etibarən tətbiqinə başlanacaq gömrük dəyərini qabaqcıl beynəlxalq təcrübə əsasında dəqiq və dürüst, rəqəmsal həllər əsasında müəyyənləşdirən "Rəqəmsal Gömrük Dəyəri", saxlanc xərclərinin azaldılmasına, malların istehlakçıya daha sürətli şəkildə çatdırılmasına, biznes proseslərin çevikliyinin artırılmasına şərait yaradacaq "İkipilləli Buraxılış Sistemi" və daşıyıcılar üçün resursların daha rasional bölüşdürülməsi, sərhədkeçmə və rəsmiləşdirilmə proseslərinin sürətləndirilməsi, logistika işinin səmərəli təşkili və proqnozlaşdırılması baxımından əhəmiyyətli olan "İlkin Məlumatlandırma Sistemi" layihələrinin təqdimatı keçirilib.

Yeri gəlmişkən, rəqəmsal həllərə və beynəlxalq dəyərləndirmə standartlarına, süni intellektə və elmi araşdırmalara əsaslanan yeni layihələr əlverişli biznes mühitinin formalaşdırlması, vaxt və vəsaitə qənaət olunması, gömrük işinin səmərəliliyinin artırılması baxımından xarici ticarət iştirakçılarına əlavə imkanlar yaradacaq.

Daha sonra Səlahiyyəti İqtisadi Operator layihəsi çərçivəsində SİO statusu alan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-yə və "FoodCity Aqrokompleks"ə sertifikatlar təqdim olunub.

Forum öz işini panel müzakirə ilə davam etdirib.

## Qeyri-yaşayış sahələrinin istismarı asanlaşır

**Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyev 2023-cü il iyunun 14-də "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Sözügedən sənəd qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin təhlükəsiz istismarının təmin edilməsi, tikinti sektorunun likvidliyinin artırılması, eləcə də vətəndaşların və sahibkarlıq subyektlərinin əmlak hüquqlarının tanınmasının səmərəli şəkildə təşkili məqsədi daşıyır. Həmin sənədə uyğun olaraq hazırda ölkə ərazisində qeyri-yaşayış obyektlərinin istismarına icazələrin verilməsinin asanlaşdırılması ilə bağlı tədbirlərin icrası davam etdirilir.**



Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Rüstəm Şahbazov mətbuata açıqlamasında ölkə rəhbərinin imzaladığı məlum fərmanı qeyri-yaşayış sahələrinin amnistiyası kimi dəyərləndirib: "Tutaq ki, kənd təsərrüfatı təyinatlı torpaqda qeyri-yaşayış obyekti tikilib, bu halda kateqoriya dəyişməsi üçün Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və digər aidiyyəti qurumların müvafiq razılıqları varsa, hüquqların qeydiyyatı sahəsində bizə müraciət edilir və biz həmin vəsatəti kateqoriya dəyişilməsi üçün Nazirlər Kabinetinə təqdim edirik".

Belə müraciətlərin ilkin olaraq Fövqəladə hallar Nazirliyinə təqdim olunduğunu diqqətə çatdıran rəis müavini deyib ki, indiyədək 25 minə yaxın hüquq sahibinin müraciəti qeydə alınıb. Onun sözlərinə görə, nazirliyin, təqribən, 12-13 minə yaxın müraciəti əsasında Dövlət Xidməti tərəfindən yer quruluşu planları hazırlanaraq istismarın sənədləşdirilməsi üçün sistemə daxil edilib. "Müvafiq icra hakimiyyəti orqanından və Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bizə daxil olan sənədlər əsasında, təqribən, 1500-ə yaxın mülkiyyət hüququ tanınıb. Proses davam edir. Mürəkkəb məsələlər çoxdur. Əksər hallarda bu tikililər mühafizə əraziləri, mühəndis-kommunikasiya qurğularının əhatə dairəsi və ümumi istifadədə olan ərazilərə düşdüyünə görə çoxlu təhlillər aparılır", – deyə o əlavə edib.

## "S&P" COP29-un maliyyə uğurunu alqışlayır






(əvvəli 1-ci səhifədə)

Qurumun məlumatına görə, bu cür alətlər maliyyə resursları məhdud olan, borc yükü isə ciddi olaraq qalan həssas ölkələr üçün fiskal məkanı azad etməyə kömək edəcək. "S&P"nin hesabatında inkişaf etməkdə olan bazarlarda, o cümlədən yerli valyutalarda dayanıqlı borcun əhəmiyyətli artımı göstərilir. Bununla belə, aşağı gəlirli ölkələr borc yükünü artırmayacaq iqlim maliyyəsinə çıxışda çətinliklərlə üzləşməyə davam edirlər. Agentlik analitiklərinin fikrincə, borc yükünün hətta kiçik və ya müvəqqəti olaraq yüngülləşdirilməsi həssas dövlətlərə iqtisadi dayanıqlığı yaxşılaşdırmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün daha çox resurs yönəltməyə imkan verə bilər.

Yeri gəlmişkən, COP29-un əsas uğurlu nəticələrindən biri kollektiv məqsəd üzrə razılaşma – iqlimin maliyyələşdirilməsinə dövlət və özəl mənbələrdən hər il 300 milyard ABŞ dolları məbləğində vəsait ayrılmasına dair razılaşmanın əldə edilməsi oldu. Xatırladaq ki, bu, əvvəlki hədəfin üç qatı deməkdir. Elə "S&P" də hesab edir ki, bu, funksional qlobal karbon bazarlarının yaradılması istiqamətində mühüm addım olacaq. Bu məqsədin xüsusi əhəmiyyət daşımasına baxmayaraq, agentlik bildirir ki, onun həyata keçirilməsi ayrı-ayrı ölkələrin öhdəliyindən və imkanlarından, həmçinin özəl investisiyaların səfərbər edilməsindən və çoxtərəfli kredit təşkilatlarının dəstəyindən asılı olacaq.

"S&P Global Ratings"in hesabatında inkişaf etməkdə olan ölkələrin iqlim maliyyələşdirilməsinə olan artan ehtiyaclarının ödənilməməsinin uzunmüddətli iqtisadi və sosial riskləri artıra biləcəyini vurğulanır. İqlim təhlükələrinə qeyri-mütənasib şəkildə məruz qalan inkişaf etməkdə olan ölkələrin iqtisadi artımı və yoxsulluğun azaldılması ilə bağlı tədbirləri aşağı karbon texnologiyalarına əsaslanmadığından əsas karbon emissiyaçılarına çevrilmək riski ilə üzləşirlər. Bu da aşağı karbon texnologiyalarına keçid və davamlılığı yaxşılaşdırmaq üçün onların əhəmiyyətli investisiyalara ehtiyacı olduğunu göstərir. Həmin ehtiyacların ödənilməməsi istər yerli, istərsə də də qlobal miqyasda uzunmüddətli iqtisadi və sosial riskləri artıra bilər.

Qeyd edək ki, COP29-dan sonra ölkələrin öz milli müəyyənləşdirilmiş töhfələrini və iqlim dəyişikliyinə uyğunlaşma planlarını yenidən nəzərdən keçirəcəkləri gözlənilir. Bu addımlar, xüsusilə fiziki iqlim risklərinə məruz qalan ölkələr üçün orta və uzunmüddətli hədəflərə yönəldiləcək. Bu baxımdan "S&P" hesab edir ki, iddialı maliyyə hədəfləri ölkələri daha ciddi planlar hazırlamağa sövq edə bilər ki, bu da iqtisadiyyatın əsas sektorlarına, xüsusən də inkişaf etməkdə olan ölkələrə əhəmiyyətli təsir göstərəcək.

Beynəlxalq reytinq agentliyi iqlim məqsədlərinin səmərəli həyata keçirilməsinə mane olan bir neçə amili fərqləndirir. Bunlara qeyri-kafi institusional dəstək (geosiyasi qeyri-müəyyənliyin qalması və milli strategiyaların dəyişməsinə görə), standartlaşdırılmış qarışıq maliyyə mexanizmlərinin olmaması və özəl kapitalı cəlb etmək üçün risklərin azaldılması alətlərinin olmaması daxildir. Qurumun dayanıqlı maliyyə ekspertlərinin fikrincə, bu maneələrin aradan qaldırılması dayanıqlılıq və xalis sıfır emissiya məqsədlərinə nail olmaq yolunda mühüm addım olacaq. Onlar düşünürlər ki, COP29 iqlim təşəbbüslərinin təşviqində mühüm mərhələ sayılsa da, qarşıya qoyulmuş məqsədlərə nail olmaq ölkələr və özəl sektor arasında əhəmiyyətli səylər və koordinasiya tələb edir. Elə "S&P"nin borc alətlətinin qiymətləndirməsinə yenilənmiş yanaşması da davamlı maliyyənin qlobal iqtisadiyyatın əsas amilinə çevrildiyini təsdiqləyir.

## Cənubi Qafqaz kəmərində artım

**Bu ilin yanvar–noyabr aylarında Azərbaycanın magistral qaz kəmərləri ilə 36 milyard 319,3 milyon kubmetr qaz nəql edilib. Bu isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. Qaz nəqlinin 57,2 faizi Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib.**



Xatırladaq ki, bu boru kəməri vasitəsilə "Şahdəniz" yatağında hasil edilən qaz ixrac olunur. Hesabat dövründə Cənubi Qafqaz boru kəməri vasitəsilə 20 milyard 786,7 milyon kubmetr qaz ötürülüb. Bu da ötən ilin eyni dövrünə nisbətən 4,3 faiz çoxdur.

## Ölkəmiz elektrod da ixrac edir

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Neftçala Sənaye Məhəlləsinin rezidenti "Gedik Kaynak" MMC tərəfindən ilk dəfə olaraq İraqa elektrod ixrac edilib. İlkin mərhələdə bu ölkəyə 150 ton məhsul göndərilib. Bu, həm də Azərbaycanın elektrod istehsalı sahəsində ilk məhsul ixracıdır.**

Xatırladaq ki, "Gedik Kaynak" MMC 2021-ci ildə Neftçala Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb. Şirkət tərəfindən sənaye məhəlləsinin ərazisində 2 növdə olmaqla 8 ölçüdə elektrod istehsalı həyata keçirilir. Müəssisənin aylıq istehsal gücü isə 300 ton təşkil edir. İnvestisiya həcmi 7,5 milyon manat olan müəssisədə 20 nəfər daimi işlə təmin edilib.




## Meyvəçiliyə subsidiya dəstəyi genişlənir

**Ölkə ərazisində intensiv meyvə bağlarının subsidiyalaşdırılması ilə bağlı tədbirlər davam etdirilir. Kənd Təsərrüfatı Nazirliyindən qəzetimizə verilən məlumatda bildirilir ki, 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək Mərkəzi Aran, Mil-Muğan, Şirvan-Salyan və Qarabağ iqtisadi zonalarına daxil olan rayonlarda salınacaq intensiv ərik və şaftalı (nektarin) bağlarının hər hektarına görə fermerlərə 4 min manat birdəfəlik əkin subsidiyası ödəniləcək.**



Nazirliyin məlumatına görə, subsidiyanın verilməsi fermerlərin həmin bağlara görə çəkdiyi xərclərin bir hissəsinin dövlət tərəfindən qarşılanması məqsədi daşıyır. Xatırladaq ki, bu subsidiya ən azı 3 hektar sahədə salınan, hər hektarda minimum 650 ting əkilən və damcı suvarma sistemi ilə təmin olunan bağlara şamil edilir.

Bununla yanaşı, regionlarda yeni salınan püstə bağlarına da birdəfəlik əkin subsidiyaları veriləcək. Belə ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu ilin sentyabr ayının 1-dən etibarən Abşeron-Xızı, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi zonalarında dəniz səviyyəsindən 150 metrdən aşağı olan ərazilərdə salınacaq püstə bağlarının hər hektarına görə fermerlərə əkin üçün 3 min manat birdəfəlik subsidiya ödəniləcək. Bu növ subsidiyalar isə 2025-ci il mayın 31-dək damcı suvarma sistemi quraşdırılmış, hər hektarda ən azı 400 ting əkilmiş püstə bağlarının sahiblərinə veriləcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# O, elə bir məktəb yaradıb ki...

## *Milli mətbuatımızın 150 illiyi ərəfəsində ustad jurnalist Şirməmməd Hüseynovun 100 illik yubileyi media təntənəsinə çevrildi*

**Bakı Dövlət Universitetində (BDU) görkəmli alim və mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan mediası: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə II Fəxri xiyabanda Şirməmməd Hüseynovun məzarını ziyarət ediblər. Görkəmli alimin xatirəsi ehtiramla yad edilib, məzarı üzərinə əklillər və tər çiçəklər düzülüb. Ardınca onlar BDU-nun jurnalistika fakültəsinin milli mətbuat tarixi kafedrasında Ş.Hüseynovun xatirəsinə həsr olunmuş guşə ilə tanış olublar.



BDU-nun akt zalında anşlaq idi. **Görkəmli alimin həyat və yaradıcılığına həsr olunmuş filmin nümayişindən sonra çıxış edən universitetin rektoru Elçin Babayev** professor Şirməmməd Hüseynovun mətbuat tədqiqatçısı, nüfuzlu pedaqoq kimi şərəfli bir ömür yaşadığını vurğuladı. O, konfrans iştirakçılarının nəzərinə tədqiqatçı-alimin öz araşdırmalarına hələ Moskva Dövlət Universitetinin aspiranturasında oxuduğu illərdən başladığını və bütün ömrünü bu işə sərf etdiyini bildirdi: "Professor Şirməmməd Hüseynov böyük bir ənənənin, tarixi missiyanın, "Əkinçi" məktəbinin davamçısı idi. Bu ənənə XIX əsrin sonları – XX əsrin əvvəllərində yaranan və formalaşan, klassik mətbuat xadimlərimizin milliliyə, vətənpərvərliyə əsaslanan ənənəsi idi. Şirməmməd müəllimin elmi–publisistik yazıları klassik mətbuat xadimlərimizlə müasir dövrümüz arasında bir körpü rolunu oynayır. Alim həmin dövrün ziyalılarının həyat və yaradıcılığını, milli mətbuatın fəaliyyətini bizə yeni tərzdə, yeni təqdimatda çatdırır".

**Türkiyənin Üsküdar Universitetinin rektoru Nazifə Güngör** böyük alim Şirməmməd Hüseynovun millətinə, xalqına xidmət edən, tarix yaradan bir jurnalist-alim olduğunu bildirdi. "Bəzi insanlar tarix olur, bəziləri isə tarix yaradırlar. Şirməmməd Hüseynov tarix yaradanlardandır" – deyən N.Güngör peşəkar jurnalist olmağın çətinliyindən, amma bundan daha önəmlisi, yaxşı insan kimi yetişməyin vacibliyindən söz açdı. "Savad almaq, texniki vərdişləri öyrənmək asandır, məsləyin əxlaqını gözləmək isə bir missiyadır". Bunu böyük jurnalist, əsl pedaqoq Şirməmməd Hüseynovun timsalında gördüyünü qeyd edən türkiyəli qonaq Mustafa Kamal Atatürkün Cümhuriyyəti qurarkən öncə qəzetçilərə güvəndiyini, Anadolu Agentliyini yaratdığını diqqətə çatdırdı.





**Milli Məclisin deputatı, Bakı Slavyan Universitetinin jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə** bildirdi ki, Şirməmməd Hüseynov müasir dövrün çağırışlarına cavab verən, ölkənin ictimai-siyasi mühitinə təsir imkanlarına malik minlərlə jurnalist yetişdirib. Böyük pedaqoqun yeni jurnalistikanın təməlini qoyduğunu, məktəb yaratdığını deyən V.Rəhimzadə Ş.Hüseynovu təkcə milli mətbuatın deyil, istiqlal tariximizin cəfakeş araşdırmaçısı kimi xarakterizə etdi: "Əməlləri ilə adını əbədiləşdirən Şirməmməd Hüseynovun zəngin irsi bu gün də, sabah da öz rolunu oynayacaq".

**Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid** çıxışında qeyd etdi ki, Şirməmməd Hüseynov təkcə yazıları ilə deyil, vətəndaşlığı ilə də neçə jurnalist nəslinə dərs keçib, nümunə olub: "Bu məktəbin yetirmələri görkəmli alimdən həm də cəmiyyəti maarifləndirmək, xalqa xidmət etmək missiyasını öyrəniblər".

**"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov** özünəməxsus məktəb yaratmış böyük alimin Vətən, Millət, Dövlət anlayışlarına, ADR irsinə sevdalı yanaşmasını xüsusi olaraq vurğuladı: "Şirməmməd müəllim Məmməd Əmin Rəsulzadənin əsərlərinin beşcildliyini çapa hazırlamışdı. Onları şəxsi təqaüdü hesabına az tirajla çap etdirirdi. Mən Mətbuat Şurasının sədri kimi Prezidentimizə məktub göndərdim ki, kitabların çapına dövlət yardım etsin. Cavab iki gün çəkmədi. Tezliklə Məmməd Əmin Rəsulzadənin beşcildliyi çox tirajla dövlətimizin maliyyəsi hesabına çap edildi.

Daha sonra çıxış edənlər – "ARB24" telekanalının direktoru Radik İsmayılov, BDU-nun milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev Şirməmməd Hüseynovun elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, təmənnasız və peşəkarlıqla yerinə yetirdiyini bildirdilər, ustad sənətkarla bağlı xatirələrini bölüşdülər.

Sonda alimin qızı, Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova çıxış edərək konfransın təşkilatçılarına minnətdarlığını bildirdi. O qeyd etdi ki, Şirməmməd Hüseynov öz xalqını ürəkdən sevən, son dərəcə saf və dürüst insan idi: "Biz onunla daim qürur duymuşuq və özümüzü Şirməmməd Hüseynovun məsləkdaşı hesab etmişik. Çox sevinirəm ki, atamın yetirmələri, tələbələri də bu yolla gedirlər".

* * *

Bütün çıxışlarda Şirməmməd Hüseynovun Azərbaycanda peşəkar jurnalist kadrların yetişdirilməsində xidmətləri xüsusi olaraq vurğulandı. Mübaliğəsiz deyə bilərik ki, məhz Şirməmməd Hüseynov kimi alim-pedaqoqların əməyinin nəticəsində müstəqil Azərbaycan mətbuatı özünün 150 illik tarixi irsinə, ənənələrinə söykənərək yenidən formalaşdı, yeni mərhələyə qədəm qoydu. Onun yaratdığı məktəbin ardıcılları həmin ənənəni bu gün uğurla inkişaf etdirirlər.

Daha sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirdi.

***İ.HƏSƏNQALA***
***XQ***

# Xatirələrdə yaşayan böyük müəllim

**Müsahibim ölkəmizdə elmi jurnalistikanın əsasını qoyan qələm adamlarından biri, 47 il "Elm və həyat" jurnalında müxtəlif vəzifələrdə çalışmış, görkəmli alim və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru Şirməmməd Hüseynovun həyat yoldaşı Ülkər Hüseynovadır. Şirməmməd müəllimin yubileyi ərəfəsində Ülkər xanımla alimin həyat və yaradıcılığından danışdıq. O, xatirələrini "Xalq qəzeti" ilə bölüşdü.**

**– Ülkər xanım, Şirməmməd müəllimin dünyasını dəyişməsindən 5 il keçir. Media aləmində qoyduğu boşluq hər birimizə aydındır. Bəs evdə, ailədə necə?**

– Şirməmməd müəllimin yoxluğu ailəmizdə hər an hiss olunur. Mənim də, övladlarımın, nəvələrimin, nəticələrimin də gözü hər an onu axtarır. Azyaşlı nəticələrim evə gələndə "baba hanı?", – deyə məndən soruşurlar. Cavab tapa bilmirəm. Şirməmməd qayğıkeş həyat yoldaşı, gözəl ata, baba idi.

**– Şirməmməd müəllim xaraktercə sərt adama bənzəyirdi, sözünü deməkdən çəkinməzdi. Evdə bu necə hiss olunurdu?**

– Düzdür, çoxları onu sərt adam kimi tanıyırdı. Amma son dərəcə mülayim insan idi. O, haqq-ədalət tapdalananda sərt olurdu, haqsızlıqla barışmırdı.

**– Deyirlər, qız atası olmaq fərqli xoşbəxtlikdir. Şirməmməd müəllimin qızlarına münasibəti necə idi?**

– Bizim Fərəh və Lalə adında qızlarımız var. O, qızlarını çox istəyirdi, onlarla olduqca mehriban idi. Bir dəfə də olsun onlarla yüksək səs tonunda danışmayıb, qəlblərinə dəyməyib. Görünür, övladlarımız da elə davranıblar ki, onlara əlavə söz deməyə gərək olmayıb.

**– Ülkər xanım, illər əvvələ qayıdaq, necə oldu ilk tanışlığınız?**

– Mən də Şirməmməd müəllimin tələbəsi olmuşam. Bir dəfə mən də daxil olmaqla, 8 qız tələbəsini "Azərbaycan pioneri" qəzetində praktika keçməyə apardı. Qəzetin baş redaktoru Əmrah Əmrahova bizi təqdim elədi. Onu da deyim ki, Əmrah müəllim Şirməmmədin tələbə yoldaşı olub. Qəzetin əməkdaşı Hənifə xanım tanışlıq əsnasında Şəkidən olduğumu bilib Şirməmməd müəllimə dedi ki, bu tələbələrin içərisində sizin yerliniz də var. Şirməmməd müəllim bizə sarı döndü və mənə baxıb gülümsədi. Hər şey bu gülümsəməkdən başladı...

**– Müəllim-tələbə münasibətləri evdə də hiss olunurdumu?**

– Evlənəndə mən onun tələbəsi deyildim. Fəqət evdə həmişə ona böyük kimi baxmışam. O, mənə qarşı son dərəcə ədalətli olub. Düzə düz deyən olub. Evliliyimizin 60 ilə çatmasına 10 gün qalırdı. Deməli, Şirməmməd müəllim iyunun 24-ü vəfat etdi. İyulun 3-də isə evliliyimizin 60 ili tamam olacaqdı. Bu 60 ildə acı günümüz, münaqişəmiz olmayıb, xatırlamıram. O məni başa düşdüyü kimi, mən də onu anlamışam. Birimiz digərimizi tamamlamışıq.

**– Eşitdiyimə görə, Şirməmməd müəllimin dostları da çox olmayıb.**

– Mən deməzdim dostları az olub. Əksinə, çox olub. Onun dostları da özü xarakterində adamlar idi. Məsələn, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Məmməd Xələfov onun dostu idi. Məmməd müəllim dövrün əvəzolunmaz, vicdanlı, ədalətli hüquqşünası idi. Tarix elmləri doktoru, professor Süleyman Əliyarov, tarix elmləri doktoru Mahmud İsmayılov, Xalq şairi Bəxtiyar Vahabzadə onun dostları idi.

**– Bəxtiyar Vahabzadədən söz düşmüşkən, şair şeirlərinin birində onu ləyaqət, dəyanət mücəssəməsi adlandırırdı.**

– Şirməmməd müəllim ömrünün sonuna kimi Bəxtiyar Vahabzadə ilə yaxın dost olub. Ailəvi gediş-gəlişimiz var idi. Bəli, şeirlərin birində şair: "Şirməmməd – əxlaqın, haqqın öz səsi, ləyaqət, dəyanət mücəssəməsi!" demişdi. Həqiqətən də, Şirməmməd müəllimi düz yolundan heç kim sapdıra, əqidəsindən döndərə bilməzdi. Bəxtiyar müəllim də onu dəfələrlə sınayıb bu nəticəyə gəlmişdi. Məlumdur ki, universitetdə yaxşı qiymət yazılsın deyə, tələbəni tapşıranlar da olurdu. Şirməmməd müəllimin kredosu bu idi: oxu, qiymətini al! Vəssalam. Kim tapşırsa da, tələbə kim olsa da, o, heç kimə haqq etmədiyi qiyməti yazmazdı.

**– Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasına görə basqılardan qorunmasında Şirməmməd müəllimin rolu olub...**

– Keçən əsrin 60-cı illərində Azərbaycanın Rusiyaya birləşdirilməsini bayram etmək istəyirdilər. Ziyalı təbəqə, Şirməmməd, Bəxtiyar da başa düşürdülər ki, işğalı bayram etmək olmaz. Çar Rusiyası Azərbaycanı işğal etmişdi. Sovetlərin dövründə bunu işğal kimi qiymətləndirmək ölüm idi. Bəxtiyar müəllim məsləhət almaq üçün bir neçə dəfə deyir ki, Gülüstan müqaviləsi barəsində poema yazmaq istəyirəm, amma ehtiyat edirəm. Bu barədə Şirməmməd müəllim şairə tutarlı bir neçə fakt tapıb verir və bildirir ki, real mətnlər onu xilas edə bilər. Məsələn, Leninin redaktorluğu ilə Bakıda 1900-cü ildə bolşevik mətbuat orqanı kimi nəşrə başlamış "İskra" qəzetində o, məqalələrinin birində yazırdı ki, Rusiya xalqlar həbsxanasıdır. Digər bir məqaləsində isə Rusiyanın işğalçı dövlət olmasını qeyd edir. Şirməmməd müəllim bunları və əlavə faktları toplayıb Bəxtiyar müəllimə verir ki, kimsə nəsə desə, bunları göstər. Həqiqətlər qarşısında susacaqlar, təhlükə sovuşacaq. Belə də oldu.

Ağrılı mövzu olan "Gülüstan" poeması sovetlər əleyhinə bir sözün işlədilə bilmədiyi dövrdə yazıldı. Poemanı Bakıda heç bir mətbəə qorxudan çap edə bilmədi. Şirməmməd və Bəxtiyar müəllim, ən nəhayət, "Gülüstan"ı Şəkidə "Nuxa fəhləsi" qəzetinin mətbəəsində çap edirdilər. Çapdan sonra söz-söhbət çox böyüdü. Məsələ Mərkəzi Komitəyə də çatdı. Bildirdilər ki, Bəxtiyar Vahabzadə kimdir ki, Azərbaycanın Rusiyaya ilhaq olunmasını işğal adlandırır? "Gülüstan" poeması o qədər geniş yayıldı ki, qapalı məkan olan hərbi hissələrdə belə əsgərlərin cibindən o əsər çıxırdı. O dövrdə "Gülüstan"ı oxumayan tapılmazdı.



**– Növbəti sualım gözlənilməz ola bilər. Düşünürəm ki, ən doğru cavabı sizdədir. Qeyd edilir ki, Şirməmməd müəllimdən bağ, villa qalıb. Bir az da bu barədə danışardınız.**

– Deməli, 1966-cı ildə Bilgəhdə, dənizin kənarında 400 manata ərazisində tavanlı vaqonu olan torpaq sahəsi aldıq. Həmin torpaq sahəsi də, vaqon da olduğu kimi qalır. Gördüyümüz iş aldığımız ərazini hasarlamaq və ağaclar əkmək oldu. Universitetin digər müəllimləri də orada yer alıb evlər tikdilər. Bizi tanıyan müəllimlər bəzən ironiya ilə deyirdilər ki, "oradakı Şirməmmədin imarətidir". Bu ifadə oranı görməyənlər üçün yarı həqiqətə çevrildi. Bundan başqa, 1920-ci ildə Şəkidə atasının yarımçıq tikilmiş evini 1969-cu ildən başlayaraq tamamlayıb. Vəssalam.

Jurnalist Mirşahin Ağayev Şirməmməd müəllimi verilişinə çəkmək üçün evimizə gəlmişdi. Evin dörd bir tərəfini gəzib demişdi ki, Şirməmməd müəllim, mən sizi bu evdə çəkə bilmərəm, normal yeri yoxdur. Evimiz onun xoşuna gəlməmişdi. Ən nəhayət, verilişi evdən kənar bir yerdə çəkmişdilər.

Şirməmməd müəllimin 95 illik ömründə tikdiyi, ucaltdığı imarətlər, qazancı yazdığı kitabları, elmə verdiyi tələbələri oldu. Maddi sərvət toplamadıq, buna cəhd belə etmədik.

**– Ülkər xanım, bu həyat yolunu onunla bir də keçmək istərdinizmi?**

– Vallah, bu sualın cavabı yoxdur, axı (kövrəlir). Şirməmməd müəllim kimi dahi ilə yaşayıb tək qalmaq bu gün çox çətindir. Həyatımda onun kimi vətənpərvər, savadlı ikinci bir şəxs tanımamışam.

**– Müəllim yoldaşları, dostları, tələbələri… onu necə xatırlayır?**

– Şirməmməd müəllimin vəfatından sonra – 2019-cu ildən etibarən qəzetlərdə, saytlarda barəsində xeyli yazılar çıxdı. Müəlliflərin birinin yazısında qeyd edilmişdi ki, Azərbaycan mətbuatı tarixi Həsən bəy Zərdabidən sonra ikinci jurnalistin bu cür kütləvi, təmtəraqla dəfnini Şirməmməd müəllimdə gördü. O dəfn edilən günü 37-38 dərəcə isti var idi. Buna baxmayaraq, universitetin zalında, həyətində, küçədə izdihamdan tərpənmək olmurdu.

Onu sevdirən insani keyfiyyətləri, canıyananlığı, haqqı deməsi, dövlətinin yanında olması idi. Yadımdadır, ilk dəfə 1958-ci idə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutu tərəfindən "Azərbaycan Kommunist Partiyasının tarixi" kitabı yazıldı. Müəlliflər azərbaycanlılar idi. Bu kitab, nədənsə, Moskvanı qane etmədi. Kitabın müzakirəsinə Şirməmməd müəllimi də çağırmışdılar. Sovetlər birliyinə daxil olan respublikaların tarix institutlarının rəhbərlərini dəvət etmişdilər. Müzakirələr Şirməmməd müəllimə ağır təsir edib. Çünki hamı birnəfəsə yazılmış kitabın, müəlliflərini tənqid atəşinə tutub. Hətta erməni tədqiqatçılardan biri bildirib ki, kitabda Nəriman Nərimanovun adı 260, Şaumyanın adı isə 110 dəfə çəkilir.

Fikir verin, bunlar nəyin ədavətini aparırlarmış. Buna Şirməmməd müəllim dözərdimi heç? Əsla! Çıxış üçün söz alaraq bildirib: "Nəyə görə Azərbaycanı Rusiyada mağmun kimi tanısınlar? Halbuki ölkəmizin böyük tarixi var, dəfələrlə müstəqilliyimiz olub. Bizim imperiya ilə vuruşan Cavad xanımız və daha kimlərimiz olub. Sizə elə gəlmirmi ki, Azərbaycan yenidən rus əsarətindən qurtulub müstəqil olacaq?". Çıxışından sonra ona qarşı Moskvadan təzyiqlər artıb. Məsələ o qədər qəlizləşib ki, Moskvadan, Mərkəzi Komitənin ideoloji şöbəsindən göndərilmiş Snastin adlı məmur raport verib ki, Şirməmməd Hüseynov adlı tarixçi jurnalist məsələləri başqa yönə çəkərək Azərbaycanın müstəqil olacağından danışır. Ümumiyyətlə, onun cəsarətli çıxışlarının sayı olduqca çoxdur və təbii ki, bunlara görə təqiblərə məruz qalıb. Heç bir təzyiq onu haqq yolundan çəkindirə bilməyib.

Bu məsələdən bir neçə gün sonra universitetin rektoru, kimyaçı-alim Yusif Məmmədəliyev ona yaxın olan işçilərlə birlikdə Şirməmməd müəllimin dərsində əyləşib 90 dəqiqə gedişatı izləyirlər. Tanınmış alimin birbaşa onun dərsini 90 dəqiqə izləməsi Şirməmməd müəllimdə narahatlıq yaradır. Amma sonda aralarında maraqlı dialoq olur. Dərsdən sonra onu otağına çağırıb niyə evlənmədiyini soruşur. Şirməmməd müəllim evinin olmadığını deyəndə isə Yusif müəllim şəhər rəhbərliyinə zəng edib mənzillə bağlı xahiş edir. Bu söhbəti açmaqda məqsədim Yusif Məmmədəliyevin böyüklüyünü izah etmək, Şirməmməd müəllimin meydanda tək olmadığını, tərəfdarlarının olduğunu qeyd etməkdir.

**– Siz Şirməmməd müəllim haqqında yazılmış xatirələri, yazıları toplayırsınız...**

– Mən həmkarları, tələbələri tərəfindən haqqında bu qədər xatirə yazılan ikinci jurnalist tanımıram. Çoxsəhifəli 3 kitablıq xatirəsini toplamışam. Hələ nə qədəri də qalır. Gündən-günə yazılar, xatirələr çoxalır. Buna səbəb Şirməmməd müəllim özü olub, onun yaxşılıqları, insani keyfiyyətləri olub. Moskvada yaşayan Ulduz Qasım adında tələbəsi 50 ildən sonra onun haqqında xatirə yazıb. Məsələn, onun sağlığında – 2004-cü ildə tələbəsi olmuş Vəsilə Usubova "525-ci qəzet"də "Şirməmməd müəllim, sizdən bir də olmayacaq" başlıqlı məqalə yazmışdı. Yazıda maraqlı məqamlar var idi. Başlıq da, mətn də mənə təsir edə bilmişdi. Bu adam millətini, dövlətini sevən əvəzedilməz pedaqoq olub. Axı mən də onun tələbəsi olmuşam, hər şey gözlərimin önündə baş verib.

Bu yaxınlarda Azərbaycan Milli Kitabxanası Şirməmməd müəllimin biblioqrafiyasını hazırlayıb. Mənə göstərdilər, baxdım. Gördüm ki, onun haqqında yazılan məqalələrin heç üçdən birini bir araya yığa bilməmişəm. Kitabxananın işçiləri arxivdəki qəzetlərdən onun barəsində xeyli xatirəni üzə çıxarıblar. Allah ömür versin, hamısını bir araya toplamağı qərara almışam.

**– Sonda istərdim ki, Şirməmməd müəllim barəsində mətbuatda olmayan bir neçə xatirənizi bizimlə bölüşəsiniz.**

– O, 75 yaşı olanda səhhətində nasazlıq yarandı. Dost-tanışla, evdə danışanda hey deyirdi ki, yaşamaq limitim bitir. Bu ifadə məni çox kövrəldirdi. Fikirləşirdim ki, nə edim ki, bunda yaşamaq, həyat eşqi yaradım. İşdə ağlıma gəldi ki, ona məktub yazım və elə də oldu. Ona mənzum məktub yazdım. Amma cəsarət edib özünə verə bilmədim, evdə kitabların arasına qoydum. Şükürlər olsun ki, onun səhhəti düzəldi. Daha sonra o məktubu hara qoyduğumu unutdum. Bir gün o məktubu axtarmağa başladım. Onu tapa bilməsəm də, qoyduğum kitabın arasında Şirməmməd müəllim öz xətti ilə mən yazdığımı köçürüb, qoyub. O məktubu hələ də saxlayıram.

Başqa bir xatirə isə ikinci qızım Lalə barəsindədir. O, anadan olanda qardaşım mənə dedi ki, Şirməmməd müəllim ikinci övladın qız olmasına görə nəsə narahat olmadı? Şirməmməd müəllim xəstəxanaya gedəndə yazmışdı ki, "O qıza da qurban!" Qeyri-adi, mehriban ata olub.

**– Ülkər xanım, bizimlə həmsöhbət olduğunuz üçün təşəkkür edirəm. Şirməmməd Hüseynov tarix yazmaqla yanaşı, taleyimizi də yazdı. Allahdan mərhum alimimizə rəhmət diləyirəm.**

***Müsahibəni apardı:***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

AMEA kitabxanası – 100

# Milli elmimizin mənbə xəzinəsi

## *Burada 50-dən çox dildə 1,5 milyon nüsxə kitab toplanıb*

**Müsahibimiz AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru, texnika elmləri doktoru, dosent Hüseyn Hüseynovdur.**

**– Hüseyn müəllim, Mərkəzi Elmi Kitabxananın əsas fəaliyyəti haqqında oxucularımızı məlumatlandırardınız.**

– AMEA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) ölkəmizin milli-mənəvi irsinin qorunması və gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır. 100 illik tarixi olan bu kitabxana yarandığı gündən etibarən dövrün tələblərinə uyğun inkişaf edərək elm və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərir. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində toplanmış görkəmli ziyalıların təşəbbüsü ilə əsası 1923-cü ildə biblioqrafiya bürosu kimi qoyulan kitabxana 1925-ci ildən Kitabxana-biblioqrafiya bürosuna çevrilmişdir. Zaman-zaman inkişaf edən və təkmilləşən Mərkəzi Elmi Kitabxananın fondu hazırda dünya xalqlarının 50-dən çox dilində 1 milyon 500 mindən artıq ədəbiyyatı özündə ehtiva edir ki, bu da onu Azərbaycanın ən zəngin kitabxanalarından birinə çevirir.

MEK xalqımızın qədim tarixini və zəngin mədəniyyətini, Azərbaycan Respublikasının müstəqillik illərində qazanılmış siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərini uğurla təbliğ edir, müasir elmi araşdırmaların aparılması üçün informasiya təminatını daim yaxşılaşdırır, ölkəmizin milli-tarixi irsini təşkil edən, eləcə də dünya tarixi və mədəniyyətinə aid bütün növ mövcud informasiya vahidlərinin toplanılıb saxlanmasını, istifadəçilərə təqdim olunmasını təmin edir. 100 illik yubileyi ərəfəsində AMEA-nın Mərkəzi Elmi Kitabxanası ənənəvi kitabxanaçılıqdan daha çoxunu təqdim edir. Kitabxana xidmətində müasir informasiya texnologiyalarının tətbiqi, şəbəkə texnologiyalarının formalaşması və onun dünya informasiya mübadiləsinə daxil olması və s. prosesləri MEK-də dinamik xarakter alıb. Məqsədimiz müxtəlif elm sahələrinə dair nəşrləri rəqəmsal formatda təqdim edərək onların hər kəsə əlçatanlığına imkan verir.

**– Rəqəmsallaşdırılmış kitabxananın nə kimi üstünlükləri var?**

– Müasir İnformasiya Kommunikasiya Texnologiyalarının kitabxana və informasiya sahəsinə dərindən nüfuz etməsi nəticəsində yeni nəsil e-kitabxanaların formalaşması prosesi davam edir. Veb texnologiyaların e-kitabxanalarda tətbiq olunması kitabxanaçılar və istifadəçilər üçün geniş imkanlar açır.

Hazırda biz MEK-də tammətnli nəşrlərin rəqəmsallaşdırılması üzərində çalışırıq. Məqsədimiz, tədqiqatçılar və tələbələr üçün lazımi məlumatların sərbəst şəkildə əlçatan olmasını təmin etməkdir. Elektron kitabxana vasitəsilə artıq bir sıra tammətnli nəşrlər istifadəyə verilib və bu proses davam edir. Elektron kitabxananın fəaliyyəti ölkəmizdə elmi tədqiqatların inkişafına ciddi töhfələr verir. Belə ki, nəşrlərə və rəqəmsal resurslara çıxış elmi işlərin keyfiyyətini və sürətini artırır. Bundan əlavə, kitabxanamızın elektronlaşma sahəsində beynəlxalq əməkdaşlıq imkanları da genişlənir.

Gələcəkdə elektron kitabxananın inkişafı ilə bağlı müəyyən planlarımız da var. İrəlidə daha çox beynəlxalq nəşrləri və elmi məlumat bazalarını sistemimizə daxil etməyi planlaşdırırıq. Həmçinin, istifadəçi təcrübəsini daha da yaxşılaşdırmaq üçün kitabxanamızda müxtəlif interaktiv xidmətlərin tətbiqi üzərində çalışırıq. Məsələn, tədqiqatçılar üçün birbaşa onlayn məsləhət xidməti və yeni avtomatlaşdırılmış axtarış alətlərini istifadəyə verməyi düşünürük.

**– Elektron kitabxananın istifadəçi bazası haqqında nə deyə bilərsiniz?**

– Elektron kitabxanamızdan müxtəlif yaş və peşə qrupları istifadə edirlər. Ən çox istifadəçi sırasına universitet tələbələri, elmi tədqiqatçılar və müəllim heyəti daxildir. Eyni zamanda, tədqiqat mərkəzləri və dövlət qurumları da kitabxanamızdan fəal şəkildə faydalanırlar.

**– Kitabxananın rəqəmsal infrastrukturunun inkişafı üçün hansı texnoloji yeniliklər tətbiq edilib?**



– Son zamanlarda kitabxananın rəqəmsal infrastrukturunu təkmilləşdirmək üçün bir sıra yeni texnologiyaları tətbiq etmişik. Məsələn, kitabxanada mövcud nəşrləri skan edən (rəqəmsallaşdıran) Almaniya istehsalı “By Metis”, “Zeutschel” aparatlarının sayı artırılıb. Bu aparatların köməyi ilə qısa zamanda daha çox mətnləri rəqəmsallaşdırmaq mümkündür. Bunun nəticəsidir ki, son aylar ərzində MEK-in fondlarındakı nəşrlərin PDF-lərinin sayı on dəfədən çox artıb. MEK-də, həmçinin müasir surətçıxarma aparatları, çap qurğuları və başqa yüngül texniki avadanlıqlardan da gündəlik olaraq geniş istifadə edilir.

**– MEK-in beynəlxalq əməkdaşlığı barədə nə deyə bilərsiniz?**

– Müxtəlif beynəlxalq kitabxanalar və elmi platformalarla əməkdaşlıq edirik. Hazırda 46 ölkənin 127 təşkilatı, 80 elmi jurnalı ilə, o cümlədən ölkəmizdəki bir sıra səfirliklərlə, Azərbaycanın xaricdəki səfirlikləri ilə əlaqələr yaradaraq əməkdaşlığımızı genişləndiririk. Həmçinin, məlumat mübadiləsi və ortaq layihələr də həyata keçiririk. Bu əməkdaşlıq çərçivəsində istifadəçilərimizə beynəlxalq elmi nəşrlərə və tədqiqat bazalarına geniş çıxış imkanları yaradırıq.

MEK-in yenilənmiş veb saytından (https://mek.az/) dünyanın 84 qabaqcıl kitabxanasına keçid etmək mümkündür. Bundan əlavə, sayt vasitəsilə IMF eLİBRARY, Open TextBook Library, Artefakt, Jurnal zalı, Project Gutenberg kimi rəqəmsal kitabxanalarının məlumatlarından faydalanmaq imkanı yaradılıb. Oxucular üçün maraq kəsb edəcək daha bir yenilik tammətnli məlumat bazaları olan EBSCO dissertasiya bazası, DOAB–açıq giriş kitablar kataloqu, POLPRED-KİV icmalı, Ulusal Tez Mərkəzinə uzaq məsafədən istifadə imkanıdır.

**– Hüseyn müəllim, MEK 2024-cü ildə nələrə nail oldu, hansı yeniliklərə imza atdı?**

– 2024-cü il ölkəmiz üçün yaddaqalan oldu. Azərbaycanın COP29-a ev sahibliyi etməsi dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Dünyanın Bakı şəhərinə toplanması vətəndaş olaraq hamımızı qürurlandırdı. Ölkə başçısının 2024-cü il sərəncamlarından irəli gələn vəzifələrin icrası ilə əlaqədar AMEA Rəyasət Heyətinin qərarlarına əsasən kitabxanada ilin əvvəlindən başlayaraq “Yaşıl dünya naminə həmrəylik ili”, “Naxçıvan Muxtar Respublikası –100”, “Məhəmməd Əmin Rəsulzadə –140”, “Məhəmməd Füzuli– 530” adlı sərgilər və digər daimi guşələrdə il boyu ənənəvi formada kitab sərgiləri təşkil edildi. Eyni zamanda, kitabxananın rəsmi saytında həmin sərgilərin virtual forması və mövzu ətrafında elektron məlumat bazaları da MEK oxucularımızın istifadəsinə verildi. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Mərkəzi Elmi Kitabxananın tərtibatında və əməkdaşların müəllifliyi ilə “Təbiət bir kitabdır” adlı nəşr, “Azərbaycanın milli parkları, qoruqları və yasaqlıqları: soraq-biblioqrafik məlumat kitabı”, “Naxçıvan Muxtar Respublikası-100” və “Azərbaycan ekologiyası” adlı biblioqafik göstəricilər, “Naxçıvan Muxtar Respublikasında dövri mətbuat məlumat kitabı” bunlardandır.

AMEA Rəyasət Heyətinin qərarları əsasında Mərkəzi Elmi Kitabxana tərəfindən alimlərin şəxsi biblioqrafiyaları hazırlanıb. Bunlara misal olaraq, Böyükağa Əzimovun, Fazil Qurbanovun, Ovsat Abdinovun, Tariyel Talıbovun və başqa alimlərimizin biblioqrafiyalarını qeyd edə bilərəm.

2024-cü ilin iyun ayından başlayaraq mənim təşəbbüsümlə hər ayın ilk iki iş günündə “Açıq qapı” günləri keçirilir ki, bu da yeniyetmə və gənclərdə kitabxanaya, kitaba, mütaliəyə həvəsin artmasına, onların bu istiqamətə köklənməsinə müsbət təsir edir.

Bundan əlavə, Mərkəzi Elmi Kitabxananın strukturunda dəyişikliklər edildi, xidmət işini təkmilləşdirmək məqsədilə fondlardan oxucuların verdiyi sənəd sifarişinin vaxtı uzadıldı, Elmlər Akademiyası sistemində ilk dəfə Mərkəzi Elmi Kitabxanada könüllülük fəaliyyəti, “İraq-türkman kitabxanası” və fondumuzda qorunan akademiklərin çoxsaylı kolleksiyaları əsasında “Akademiklər kitabxanası” yaradıldı.

İşğaldan azad olunmuş torpaqlarda yeni yaranmış məktəb kitabxanalarına, o cümlədən Zəngilan rayonunun Ağalı kənd kitabxanasına, Şuşa şəhər 1 nömrəli məktəbin kitabxanasına MEK tərəfindən nəşrlər hədiyyə edildi. İşğaldan azad olunmuş torpaqlarda yeni qurulan kitabxanalara dəstək məqsədilə nəşrlərin göndərilməsi davam etdirilir.

Cari ildə Özbəkistanın Ürgənc Dövlət Universiteti, Bolqarıstan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası ilə əməkdaşlığa dair memorandum imzalanıb, Türk İşbirliyi və Koordinasiya Agentliyinin nümayəndələri MEK-də olarkən əməkdaşlıq haqqında ilkin razılığa gəlinib.

Şimali Kipr Türk Cümhuriyyətinin təhsil naziri Nazim Çavuşoğlu və bu ölkənin Bakıdakı nümayəndəsi Ufuk Turqanerin iştirakı ilə Mərkəzi Elmi Kitabxanada “Şimali Kipr Türk Cümhuriyyəti” adlı diplomatik guşə yaradılıb.

Nobel mükafatı laureatı Əziz Sancarın Mərkəzi Elmi Kitabxanaya səfəri isə əsl bayrama çevrildi, alimin həyat və yaradıcılığını özündə əks etdirən kitab sərgisi təşkil olundu.

Qeyd edim ki, MEK-in beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində də işlər davam etdirilir. Cari ilin oktyabr ayında Azərbaycanın Türkiyədəki səfirliyi yanında Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Ankara şəhərində işgüzar səfərdə olarkən Türkiyənin Millət Kitabxanasının rəhbəri Ayhan Tuğlu, Türkiyə Milli Kitabxanasının baş direktoru Taner Bəyoğlu, Qazi Universitetinin Mərkəzi Kitabxanası və Türkiyənin bir sıra tanınmış universitetlərinin kitabxana rəhbərləri ilə görüşdüm. Qarşılıqlı əməkdaşlığımızın faydalı olacağına və bundan tərəfdaş kitabxana oxucularının da bəhrələnəcəyinə inanıram.

Əməkdaşlarımız işin keyfiyyətinin yüksəldilməsi, daha çox oxucu kontingentinə çatmaq üçün bir sıra xarici ölkələrdə ezamiyyələrdə olub, təlimlərdə iştirak ediblər.

MEK “Şuşa – İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı 2024” Beynəlxalq Proqramında uğurla təmsil olundu.

Söhbətimiz “Yaşıl dünya naminə həmrəylik ili”nə təsadüf etdiyindən bir maraqlı faktı da qeyd etmək istərdim ki, MEK-in yaşıl kitabxanaya çevrilməsi üçün imkanlar yaradılıb. MEK-in mövcud binasının hər tərəfdən şüşə ilə əhatə olunması enerjiyə qənaət yaradan amillərdir. Elektron kitabxanalarda davamlılığı artırmaq məqsədilə yaşıl və rəqəmsal transformasiyalar yaradılacaq ki, bu da elektron kitabxanaya girişi və istifadəçilər arasında əlaqələri yaxşılaşdırmaq funksiyasını yerinə yetirəcək.

*Müsahibəni qələmə aldı:*
***Anar TURAN***
***XQ***

**Dekabrın 17-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı və istedadlı uşaqların iştirakı ilə “Qalib ölkənin qalibləri–2024” adlı mükafatlandırma mərasimi keçirilib. Cari ildə istedadlı uşaqların qazandıqları uğurları əks etdirən videoçarx nümayiş etdirilib.**

Komitə sədri Bahar Muradova uşaqların həyatlarının erkən vaxtlarından özlərini qələbəyə köklədiyini qeyd edərək onlara yeni uğurlar arzulayıb. “Qalib ölkənin qalibləri” layihəsindən bəhs edib, bunun ənənə halı aldığını və 3-cü dəfə müxtəlif sahələrdə Azərbaycanın adını yüksəklərə qaldıran uşaqların mükafatlandırıldığını diqqətə çatdırıb.

B.Muradova bildirib ki, hər bir ölkə üçün görüləcək ən vacib iş onun başlıca sərvəti olan insan kapitalının inkişafına sərmayə qoyulması, diqqət və qayğı göstərilməsidir. O, ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini əlavə edib. Azərbaycanın geostrateji mövqedə yerləşməsinə diqqət çəkən sədr, ölkəmizin inkişaf yoluna nəzər salıb, tarixin miras qoyduğu çətinliklərdən azad olaraq, ərazi bütövlüyü, suverenliyimizi bərpa etdiyimizi və bu gün bütün dünyada inkişafın Azərbaycan örnəyini yaratdığımızı söyləyib. Qeyd edib ki, bu proseslərin davamı kimi dövlət tərəfindən insan kapitalına, xüsusilə də uşaqların erkən dövrdə inkişafına qoyulan sərmayə də nümunəvidir.

# Qalib ölkənin qalib uşaqları




Qələbə qazanan uşaqların uğurlu nəticələrinin hər kəsi qürurlandırdığı vurğulanıb. Qeyd edilib ki, bu gün orta ümumtəhsil məktəblərində yaradılan maddi-texniki baza, yüksək “smart” yeniliklər imkan verir ki, uşaqların uğurlarının miqyası daha da genişlənsin, nailiyyət qazandıqları hər bir sahədə peşəkar olmaq üçün imkanlara əlçatanlıqları təmin edilsin.

Komitənin uşaq və gənclərə yönəlik məsələlərlə birbaşa məşğul olduğunu diqqətə çatdıran sədr, uşaqların həm ailədə, həm cəmiyyətdə, həm də ümumtəhsil məktəblərində bütün imkanlara əlçatanalığının təmin edilməsinin diqqət mərkəzində olduğunu bildirib: “Uşaq və gənclərlə işləmək həm qürurvericidir, həm də böyük zəhmət və səy tələb edir. Eyni zamanda onlarla birgə bu yolu getmək, düşüncələrini öyrənmək, istək və arzularını dinləmək bu və ya digər ehtyaclarını öyrənmək və təmin etmək həm şərəfli, həm çətin, həm də maraqlıdır”.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov müxtəlif sahələrdə qazandıqları nailiyyət münasibətilə uşaqları təbrik edib. Bildirib ki, bu gün gənclərin istedadının aşkar olunması və inkişaf etdirilməsi üçün hər cür şərait yaradılır: “Siz bacarıqlarınızı ölkənin iqtisadiyyatını müəyyən edən sahələrdə tətbiq edərək, dövlətimizin inkişafını təmin edəcəksiniz. Hər bir gəncdə istedad var, sadəcə onu görmək lazımdır”.

Hər il respublika fənn olimpiadalarında kifayət qədər istedadlı şagirdin iştirak etdiyi və aşağı siniflərdə təhsil alanların olimpiada mərkəzlərinə cəlb olunduqları qeyd edilib. Bir neçə il öncə olimpiadalarda yüksək nəticələr əldə edən gənclərin hazırda dünyanın bir sıra ölkələrində yüksək vəzifələrdə çalışdıqları vurğulanıb.

Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev bildirib ki, dünyanın indiki inkişaf sürətinə çatmaq üçün uşaqlar daim öz üzərində çalışmalı və müxtəlif sahələrdə potensiallarını inkişaf etdirməlidirlər. Azərbaycanın qazandığı tarixi qələbədən sonra övladlarımızın suverenliyini tam bərpa etmiş bir ölkədə böyüdüyünü bildirən F.Hacıyev əlavə edib ki, bugünkü güclü dövlətimizi qoruyub saxlamaq və daha işıqlı bir gələcəyə aparmaq yolunda siz uşaqların üzərinə böyük məsuliyyət düşür.

Mədəniyyət Nazirliyinin müşaviri Cəsarət Valehov süni intellekt əsrində yaradıcı təfəkkürün əhəmiyyətindən bəhs edib. O, rəqəmsal dünyada öz istedadı və bacarığı ilə seçilməyi bacaran uşaqların uğurlarını yüksək qiymətləndirib.

Qalib uşaqlar adından çıxış edən Toğrul Şahtahtinski, Murad Xəlilzadə, Rəfiqə Verdiyeva tədbirin təşkilatçılarına təşəkkür bildirərək, dövlət tərəfindən onlar üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Toplantıda elm, təhsil, mədəniyyət və idman sahələrində il ərzində Azərbaycanı beynəlxalq olimpiada və yarışlarda təmsil edərək qalib gəlmiş 100 uşaq mükafatlandırılıb. Sonda mədəniyyət sahəsində uğur qazanmış uşaqlar tərəfindən müxtəlif musiqi alətlərində ifalar səsləndirilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Sosial müdafiə qurumlarının yeni uğuru

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin “Tibbi Şəhadətləndirmə” altsistemi IDDA AWARDS müsabiqəsində “İlin Rəqəmsal Layihəsi” nominasiyası üzrə birinci yeri, nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun proaktiv təyinat mexanizmi isə ikinci yeri tutub.**

Müsabiqə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən təşkil edilib. Məqsəd ekosistemin ən perspektivli innovatorlarını tanıtmaq və fəaliyyətinə dəstək olmaq, ölkə innovasiyasının inkişafında fəal iştirak edənlər arasında rəqabət mühiti yaratmaqdır.

“İlin Rəqəmsal Layihəsi” nominasiyası üzrə müsabiqənin qalibi elan edilən "Tibbi Şəhadətləndirmə" altsistemi vasitəsilə çağırışçıların yekun tibbi qiymətləndirilməsinin həyata keçirilməsi prosesində qurumlararası məlumat mübadilələrinin elektronlaşdırılması təmin edilib. Bu da prosesdə şəffaflıq və çevikliyin, obyektiv yanaşmanın, vətəndaş məmnunluğunun təminatına imkan verib.




Çağırışçının yekun tibbi müayinəsinin aparılması üçün Mərkəzi Hərbi-Həkim Komissiyasının rəyi təsdiq edilərək nazirliyin “Tibbi şəhadətləndirmə” altsisteminə müvafiq göndəriş daxil edilir. Həmin göndərişə əsasən çağırışçılar onlara avtomatik təyin edilən e-növbəlilik qaydasında agentliyin Tibbi Qiymətləndirmə Mərkəzində əyani müayinələrdən keçirilir.

2019-cu ildən yaradılan proaktiv təyinat mexanizmi isə sosial ödənişlərin onları almağa hüququ yaranmış vətəndaşların müraciət etmələrinə və sənəd təqdim etmədən elektron qaydada təyin edilməsinə şərait yaradıb. Sosial ödənişlərin proaktiv təyinatı mexanizmi ötən dövrdə bir çox beynəlxalq mükafatlara da layiq görülüb.

***Z.HÜSEYNOVA***
***XQ***

## Goranboy və Mingəçevirdə məşğulluğa dəstək



**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan “Məşğulluğa Dəstək Layihəsi” barədə növbəti ictimai dinləmələr Goranboy rayonunda və Mingəçevir şəhərində təşkil olunub. Məqsəd layihə barədə məlumatlılığı artırmaq, nəzərdə tutulmuş hədəf kateqoriyaları layihəyə cəlb etməkdir.**

İşsiz şəxslərin iştirakı ilə keçirilən dinləmələrdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi barədə məlumat verilib. Layihənin icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblərdən, proqramın gözlənilən faydalarından, layihəyə müraciət qaydalarından bəhs olunub.

Əlavə dəstək mexanizmi kimi layihə çərçivəsində təşkil edilən “Həvəsləndirmə mükafatı” müsabiqəsi və digər məşğulluğa dəstək mexanizmləri barədə məlumatlar da iştirakçıların diqqətinə çatdırılıb.

## Psixoloji bərpa xidməti genişlənir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin mütəxəssisləri 2024-cü ilin ötən dövründə 271 repatriantla sosial reabilitasiya işi aparıb.

Repatriasiya olunmuş hər bir şəxsin, ilk növbədə, sosial-psixoloji qiymətləndirilməsi həyata keçirilib. Bunun əsasında müvafiq sosial reabilitasiya planı hazırlanıb. Bundan sonra həmin plan üzrə sosial işçi və psixoloqlar tərəfindən sosial reabilitasiya prosesi həyata keçirilib.

Agentlik tərəfindən hazırda 47 repatriantla sosial iş çərçivəsində reabilitasiya xidmətləri davam etdirilir. Ümumilikdə isə 2018-ci ildən bugünədək agentlik 500-dən çox repatriantı sosial reabilitasiya xidmətləri ilə təmin edib.

***XQ***

İlin yubileyləri: Qazi Bürhanəddin – 680

# Türkdilli poeziyanın ilk divan şairi

**Zəmanəsinin böyük şairi, alimi və dövlət xadimi Qazi Bürhanəddin oğuzların Salur boyundan olub. Əcdadlarının Xarəzmdən Anadoluya köç etdiyi barədə məlumatlar var. Özü isə 1344-cü ildə Kayseridə doğulub, Dəməşqdə təhsil alıb, orada Qütbəddin Razidən şairlik öyrənib. Sonra bir müddət Şam, Məkkə, Hələbdə yaşayıb, nəhayət, Vətənə qayıdıb. Onun şəcərəsi nəsilbənəsil qazı vəzifəsini icra edib. Şərqşünas Aqafangel Krımski Bürhanəddinin “qazının oğlu, qazının nəvəsi, qazının nəticəsi və qazının kötükçəsi” olduğunu yazıb.**



Bürhanəddin özü də əvvəllər qazılıq edib, daha sonra Ərətha bəyliyinin vəziri olub, ən sonda isə öz adına paytaxtı Sivas olmaqla bəylik formalaşdırıb. Oranın müstəqilliyini qorumaq üçün Osmanlıya, Məmlükə, Qaramanoğulları və Ağqoyunlulara qarşı 18 il mübarizə aparıb. Döyüşkən şair 54 yaşında Sivas uğrunda savaşda həlak olub.

Onun saray şairi – Əziz ibn Ərdəşir Astrabadi əzmkar şəxsiyyət haqqında “Bəzm və Rəzm” (“Şənlik və savaş”) yazaraq geniş məlumatlar verib. Sonrakı təzkirəçi və tarixçilər bu mənbəyə istinad ediblər. Kitablarda Qazi Bürhanəddinin şairliyindən “xəsisliklə” bəhs olunsa da, igidliyi, cəsurluğu, güclər önündə əyilməzliyi yetərincə vəsf olunub. Özü də yazdıqlarında Allaha tapınıb hünər göstərməyin mümkünlüyünü qeyd edib:

**Əzəldə Haqq nə yazmış isə olur,**
**Göz nəyi ki, görəcək isə görür.**
**İki aləmdə Haqqa sığınmışız,**
**Toxtamış nə ola, ya axsaq Teymur.**

Həyatı mübarizə və çarpışmalarda keçən Qazi Bürhanəddin tarixə türk dilində yazılmış ilk divanın müəllifi olması ilə də möhür vurub. O, ümumiyyətlə, türkcə ədəbiyyatın qurucularından sayılır.

Universitet müəllimim, AMEA-nın müxbir üzvü, mərhum Əlyar Səfərli bir sıra orta əsr şairi kimi, Qazi Bürhanəddinin də əsərlərinin elmi-tənqidi mətnini hazırlayaraq nəşr etdirib. O, anadilli ədəbiyyatımızın ilk gülüstanı olan Bürhanəddin divanının xalqımızın bədii zövqünün, gözəllik və nikbinlik dünyabaxışının bəhrəsi kimi təravətli və cazibədar olduğunu bildirib. Çapa verdiyi 1319 qəzəl, 20 rübai və 108 tuyuqdan (tuyuq –yalnız türk ədəbiyyatında istifadə olunan, 11 hecalı, 4 misralı duyğu yarpaqları) ibarət kitaba ön sözündə yazıb ki, “Var canım igidlərə qurban olsun” – deyən Qazi Bürhanəddin öz əsgərlərini göylərə ucaldaraq sanki döyüşə ruhlandırıb, bütün dünyaya örnək göstərib:

**Ərənlər öz yolunda ər tək gərək,**
**Meydanda erkək kişi nər tək gərək.**
**Yaxşı-yaman, qatı-yumşaq olsa xoş,**
**Sərvərəm deyən kişi erkək gərək.**

Qəzəllərinin birini şair belə bir mətlə ilə başlayıb:

**Bu nə hüsnü, bu nə xəttü,**
**bu nə qəddü, nə bəladır,**
**Cəmalün rövzəmi,**
**ya rəb və ya firdovsi-əladır.**

Qazi Bürhanəddinin bir beytini də yada salaq:

**Cananı cana tərk qılan müşkülə düşər,**
**Canana canımı qıyıb asana düşmüşəm.**

“Canı kim cananı üçün sevər, cananın sevər” deyən Məhəmməd Füzulinin də, digər şairlərin də məşhur şeirlərini yazarkən Bürhanəddinin söz bulağından su içdiyi aşkar görünür. Təsadüfi deyil ki, türk alimi Vəsfi Mahir Qocatürk onu Nəsimi və Nəvainin ustadı kimi qələmə verib. Qazi Bürhanəddin özü isə el ədəbiyyatı havasını da qəzələ gətirmək məharətinə malik olub. Aşıq üslubunda çox işlənən “dedim-dedi” formasından qəzəldə incəliklə istifadə edib:

**Dedi könlündə nə vardır, dedim həm,**
**Dedi gözündə nə vardır, dedim dəm.**

**Dedi nədir bu aləmdə muradın,**
**Dedim bir dilbəri-zibayi-həmdəm.**

Əlyar Səfərli qeyd edib ki, şair sənətin mayasını gözəllikdə axtarır, ona görə, sevgilini vəsf etməyən söz-şeir adi bir küləkdir. Bir rübaisinə nəzər salaq:

**Ol göz ki, üzün görməyə, göz demə ona,**
**Ol üz ki, tozun silməyə, üz demə ona.**
**Ol söz ki, içində, sənəma, vəsfin yox,**
**Sən badi-həva tut onu, söz demə ona.**

Şairin rübailəri, qəzəlləri kimi, ilk nümunələri məhz ona aid olan tuyuqları da dərin mənası, fədakarlığa çağırışı, gözəlliyə aşiqanə etinası ilə seçilir:

**Sənciləyin dünyada xub az imiş,**
**Nəğməni rast anladım, şahnaz imiş.**
**Könüllər kəkliyinə bu dünyada**
**İlla, şahin gözlərin şahbaz imiş.**

Şairin azərbaycanca “Divan”ı bircə nüsxədə saxlanıb ki, o da hələ müəllifin sağlığında xəttat Xəlil ibn Əhməd tərəfindən yazılıb və hazırda Britaniya muzeyindədir.

Sonda xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Qazi Bürhanəddin əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

*Əli NƏCƏFXANLI*
*XQ*

Yeni kitablar

# Füzuli sözünün sadə anlamı

**Füzuli sözü nə vaxt sadə olub ki... Füzulini tanıdığımız vaxtdan qəliz ərəb-fars sözləri, mürəkkəb, mübhəm fikirlər həmişə ətrafımızda dolaşmış, biz isə Füzuli sözünü, mənasını, eşqini bu mürəkkəbliyin içərisindən çıxarıb, özümüz üçün aydınlaşdırmağa çalışmışıq. Buna isə bəzən nail olsaq da (son onilliklərdə), adətən (sovet dövründə), nail olmamışıq. Amma nə olur-olsun, biz Füzulini sevmiş, onun təkcə ziyalılar, alimlər üçün deyil, bütün xalq üçün oxunaqlı, əlçatan olmasını istəmişik.**

Alimlərimiz daim Füzulinin əsərlərinin müxtəlif nəşrlərini hazırlamış, onun haqqında rəngarəng tədqiqatlar aparmışlar. Amma son illəri çıxmaq şərtilə Füzuli əsərlərini sadələşdirmək fikri ağlımıza gəlməmiş, ümumiyyətlə, biz klassik ədəbiyyata yanaşmaqda türk və İran ədəbiyyatşünaslığında geniş yayılmış bu prinsipdən istifadə etməmiş, daha çox içi boş, adı dəbdəbəli dissertasiyalar yazmağa üstünlük vermişik. Nəticəsi də bu... Ona görə də xalq Füzuliyə həmişə əlçatmaz, anlaşılmaz, lakin müqəddəs, sirli-sehirli bir şair kimi yanaşmışdır. Bu mənada Prezident İlham Əliyevin Füzulinin 530 illiyi barədə verdiyi fərman dahi şairin irsinin öyrənilməsinə xüsusi bir təkan vermiş və hamını bu böyük şairin yaradıcılığını bir daha öyrənməyə, araşdırmağa həvəsləndirmişdir.

Bu baxımdan tanınmış jurnalist Vasif Sadıqlının yenicə işıq üzü görmüş “Füzuli. Qəzəllər” kitabı olduqca dəyərlidir. Dəyərlidir ona görə ki, bu kitab bizi, ilk növbədə, Füzuli sözünün, Füzuli qəzəllərinin sadələşdirilmiş variantı ilə tanış edir. Yəni Füzuli sözünü orijinalda, Azərbaycan dilində oxuyub başa düşməyən oxucu, bu kitab vasitəsi ilə Füzuli sözü, Füzuli fikri ilə tanış olur, onun mürəkkəb düşüncə tərzinin sirlərini qavrayır. Bu işi görmək isə o qədər də asan, sadə iş deyildir. Füzuli sözünün məna incəliyini anlamaq geniş oxucu kütləsinə çətin olduğu kimi, bəzən alimlərin özləri üçün də çətindir. Lakin alimin, tədqiqatçının işi, bu mürəkkəbliyi asan etməkdən ibarət olduğu üçün, biz öz işimizdən zövq alır, xüsusilə Füzuli kimi böyük bir şairin irsi ilə məşğul olduğumuza görə ikiqat ləzzət alırıq. Amma Füzuli sözünü, Füzuli mənasını anlamaq, həqiqətən də, bəzən alimlər üçün də çətin olduğundan bu kitabın əhəmiyyəti bir daha məlum olur.

Bu baxımdan Vasif Sadıqlının indi daha çox jurnalist kimi fəaliyyət göstərməsinə baxmayaraq, onun bir filoloq kimi baza təhsilinə sadiq qalaraq Füzuli sözünü - qəzəllərini sadələşdimək kimi çətin bir işə girişməsi olduqca diqqətəlayiqdir. Bu isə, dediyimiz kimi, müəllifdən xüsusi hazırlıq tələb edir. Birincisi, bu çətin işə qədəm qoyan tədqiqatçı, ilk növbədə, klassik irsə yaxşı bələd olmalı, onun ruhunu, mahiyyətini duymalıdır. Təbii ki, müasir ədəbiyyatı bilməklə və jurnalist fəaliyyəti ilə məşğul olmaqla bu ruha sahib çıxmaq olmaz. Bəzən, hətta, ömrü boyu klassik ədəbiyyatla məşğul olanların əsərlərində heç biz bu ruhu görmürük. Çünki onlar ömrü boyu əslində klassik ədəbiyyatla məşğul olsalar da, ruhları, mahiyyətləri, qələmləri publisistdir. Və yaxud da, ümumiyyətlə, qələmləri yoxdur. Şükür Allaha ki, Vasif Sadıqlı klassik ədəbiyyata, onun ruhuna yaxşı bələd olan və gözəl qələmə malik araşdırıcılarımızdandır.

İkincisi, ümumiyyətlə, Füzuli irsi ilə məşğul olmaq bu sahənin adamından araşdırıcılıq qabiliyyəti istəyir. Çünki Füzuli sözünü anlamaq üçün onu təkcə üzündən oxuya bilib, mənasını ala-yarımçıq başa düşmək kifayət etmir. Füzulini başa düşmək, ən azı, onun əsərlərinin məzmununu anlamaqdan keçir. Bu mənada Vasif Sadıqlının kitabının əvvəlinə və sonuna nəzər salmaq kifayət edir. Belə ki, müəllif kitabın əvvəlinə eşqlə, sufizmlə, irfanla bağlı kiçik bir giriş daxil etmiş, sonuna isə ədəbiyyat siyahısı əlavə etmişdir ki, oxucu da bu hissələrlə tanış olduqda müəllifin bu kitabı hazırlayan zaman özünün hansı mərhələlərdən keçdiyini aydın görür. Sufizmlə tanış olan zaman müəllifin Füzuli eşqinin mahiyyətini aydınlaşdırmağa, ədəbiyyatla tanış olan zaman isə bununla bərabər, eyni zamanda, onun sözünün də mənasını düzgün izah etməyə çalışdığı görünür. Çünki Füzuli üslubu çox mürəkkəb olduğu üçün onun sözünün üst qatını da anlamaq o qədər asan məsələ deyildir. Bəlkə də Füzuliyə yanaşmaqda ən çətin məsələ elə budur. Axı, ilk növbədə, şairin nə demək istədiyini ən sadə şəkildə anlamasaq, təbii ki, onun məna qatlarının dərinliyini də aça bilmərik. Bu mənada, həqiqətən də, Vasif Sadıqlının gördüyü iş olduqca böyük və əhəmiyyətlidir. Əhəmiyyətlidir ona görə ki, onun sadələşdirilmiş mətni ilə tanış olduqda bəzən həmişə oxuduğun, hətta əzbər bildiyin Füzuli sənə başqa şəkildə görünür. Və bu “başqa şəkildə görünmə” sənin üçün Füzuli məzmununun yeni istiqamətini, mənasını açdığına görə zövq verir. Və beləliklə, Füzuli sənin gözlərin qarşısında tam açılır. Bu baxımdan indi biz daha “Füzuli qəzəlləri mənim üçün anlaşılmazdır” deyə bilmərik. Füzulini duymaq, bilmək istəyirsənsə, buyur oxu. Əvvəl sadələşdirilmiş mətni oxu, başa düş, sonra qayıt orijinalı oxu və Füzuli sənətindən zövq al. İndi təbii ki, təkcə alimlər, füzulişünaslar deyil, füzulisevərlərin hamısı Füzuli sözünün mənasını tam şəkildə duyub, ondan zövq alacaqlar. İndi daha heç kim deyə bilməz ki, mən Füzulini oxudum, amma başa düşmədim. İndi Füzulinin hətta ən qəliz təşbehləri, istiarələri, mübaliğələri belə aydınlaşacaq. Qəliz ərəb-fars sözlərinin üstündən pərdələr götürüldükcə Füzuli bizə daha da yaxınlaşacaq və doğmalaşacaq. Füzulinin bədii təfəkkürü daha aydın görünəcək, onun mürəkkəb bədii konstruksiyaları




əyanilləşəcək və biz onun nə böyüklükdə şair olduğunu bir daha görüb, onun istər Azərbaycan poeziyası və istərsə də Şərq ədəbiyyatı tarixində hansı mövqedə durduğunu bir daha anlayacağıq.

Beləliklə, Vasif Sadıqlı çiyinlərini bu ağır işin – Azərbaycan ədəbiyyatşünaslığında bu vaxta qədər, demək olar ki, heç kəsin görmədiyi bir işin altına vermiş və cənab Prezidentin Füzulinin 530 illiyi ilə bağlı verdiyi sərəncamla əlaqədar olaraq ilin sonunda füzulişünaslığa gözəl bir hədiyyə bəxş edə bilmişdir. Lakin bu kitabda bir qədər yuxarıda qeyd etdiyimiz kimi, Vasif Sadıqlı daha bir neçə iş görmüş, kitabın əvvəlinə irfan, sufizimlə bağlı “Ağıl-eşq “qarşıdurması” barədə bir neçə kəlmə” (Ön söz əvəzi)” adlı kiçik bir ön söz əlavə etmişdir. Doğrudur, sufizim, irfan haqqında olan bu ön soz bu vaxta qədər yazılanlardan bir o qədər fərqlənməsə də, əslində, yığcamlığına görə və bu yığcamlığın içərisində verdiyi məlumatın dəyərinə görə fərqlənir. Belə ki, biz bu ön sozdən aldığımız elmi, dəqiq məlumatları bəlkə də böyük-böyük məqalələrdən ala bilmirik. Digər tərəfdən, Vasif Sadıqlı kitabın əvvəlinə Füzulinin türkcə – Azərbaycanca Divanının mənim tərəfimdən sadələşdirilmiş dibaçəsinin mətnini də daxil etdiyi üçün kitab daha dolğun görünür. Çünki Dibaçənin, sadəcə olaraq, mənim tərəfimdən sadələşdirildiyinə görə yox, ümumiyyətlə, Füzulinin türkcə Divanının ayrılmaz tərkib hissəsi olduğuna görə, təbii ki, onun da bu kitaba daxil olunması olduqca zəruri idi. Və Vasif Sadıqlının gördüyü müsbət işlərdən biri də budur ki, o, bu zərurəti görmüş və Füzuli Divanının onun Dibaçəsindən ayrı olmayacağı kimi düzgün bir qərara gəlmişdir.

İndi söz hörmətli oxucularındır. Buyurun, bu da Füzuli sözünün sadəsi. Oxuyun və Füzulini daha dərindən anlayın.

***Tərlan QULİYEV,***
***filologiya elmləri doktoru,***
***professor***

Maqsud Əliyev – 100

# Gəncədə yubiley konfransı

**Elm və Təhsil Nazirliyi, qurumun Fizika İnstitutu, Milli Elmlər Akademiyası və akademiyanın Gəncə Bölməsi tərəfindən görkəmli fizik alim, Əməkdar elm xadimi, akademik Maqsud Əliyevin 100 illiyinə həsr olunmuş “Fizikanın aktual problemləri” mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Nüfuzlu elmi tədbirə Azərbaycan və MDB ölkələrinin elmi tədqiqat və ali təhsil ocaqlarını təmsil edən alimlər qatılıblar.**



İştirakçılar görkəmli alimin həyat və fəaliyyətindən bəhs edən sərgi ilə tanış olublar. Sonra akademik Maqsud Əliyevin həyat və fəaliyyəti haqqında bioqrafik videoçarx təqdim edilib.

Qeyd olunub ki, Azərbaycan fizika-riyaziyyat tədqiqatlarının əməli və nəzəri məktəbinin patriarxlarından sayılan akademik Maqsud Əliyev (1924–2016) elmimizi dünyada şöhrətləndirən şəxsiyyətlərdəndir. O,1957-ci ildə fizika üzrə elmlər namizədi, 1966-cı ildə elmlər doktoru, 1967-ci ildə professor adını almışdır. 1969-cu ildə AMEA-nın müxbir üzvü, 1980-ci ildə həqiqi üzvü seçilmişdir. Alim yarımkeçiricilər fizikası sahəsində tədqiqatların aparılmasında və elmi kadrların hazırlanmasında böyük xidmətlər göstərmişdir.

Akademik Maqsud Əliyev 20 ixtiranın müəllifi olub. Onun “Yarımkeçiricilərin istilikkeçirməsi” adlı kitabı böyük şöhrət qazanıb. Maqsud Əliyevin rəhbərliyi ilə 35 fəlsəfə doktoru, 7 elmlər doktoru yetişdirilib. Maqsud Əliyev ənənəvi elmi istiqamətilə bərabər, məşhur alim Lütfi Zadənin əsasını qoyduğu qeyri-səlis çoxluqlar, qeyri-səlis məntiq sahəsində də tədqiqatlar aparıb. O, “Fizika problemləri və qeyri-səlis məntiq” üzrə elmi problemlərin araşdırılması ilə geniş məşğul olub, bir neçə beynəlxalq konfranslarda məruzələrlə çıxış edib. “Şöhrət”, “Vətən müharibəsi”, “Xalqlar dostluğu” ordenləri, akademik Y.Məmmədəliyev adına mükafat və medal, “Sülhün səfiri” beynəlxalq diplomu ilə təltif olunub. Görkəmli alim 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar elm xadimi adını alıb. 24 dekabr 2016-cı ildə 92 yaşında Bakıda vəfat edib.

Beynəlxalq elmi konfransı açan AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev bu mötəbər məclisin ümummili lider Heydər Əliyevin əziz xatirəsinin anıldığı əlamətdar günlərlə səsləşdiyini qeyd edərək Ulu öndərin Azərbaycan elminin inkişafına xüsusi diqqət göstərdiyini, onun layiqli davamçısı Prezident İlham Əliyevin ölkənin gələcəyinin təminatı naminə vacib olan bu sahənin müasir tələblər baxımından yüksəlişi strategiyasını uğurla həyata keçirdiyini vurğulayıb.

Sonra konfransın iştirakçıları arasında görkəmli alim Maqsud Əliyevin yaratdığı Azərbaycan yarımkeçiricilər elmi məktəbinin ardıcıllarının olduğu da qeyd edilib. Akademikin xatirəsinin Gəncənin elmi mühiti, bu şəhərdə çalışan alimlər tərəfindən xüsusi rəğbətlə yad edildiyi vurğulanıb. Respublikamızın ikinci şəhərində çoxşaxəli elmi mərkəzin yaranması, burada aparılacaq tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi, hətta onun üçün böyük binanın seçilməsi məsələlərinin reallaşmasında Maqsud müəllimin də həlledici rolu olduğu göstərilib.

Beynəlxalq konfransı idarə edən Fizika İnstitutunun baş direktoru, AMEA-nın akademik-katibi, akademik Arif Həşimov Maqsud Əliyevin respublikamız üçün böyük sınaqlar dövrü olan 90-cı illərdəki fəal mövqeyi, o cümlədən Ulu öndərin dövlətçiliyimizin formalaşdırılması naminə yorulmaz səylərinə öz dəstəklərini nümayiş etdirmiş ziyalı-alimlərimiz sırasında olduğunu vurğulayıb.

Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov, Fizika İnstitutunun laboratoriya rəhbəri, fizika-riyaziyyat elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Səlimə Mehdiyeva, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, texnika elmləri namizədi, dosent Zəfər Qurbanov, Azərbaycan Texnologiya Universitetinin rektoru, biologiya elmləri namizədi, dosent Yaşar Ömərov, Gəncə Dövlət Universitetinin prorektoru, iqtisad elmləri üzrə fəlsəfə doktoru Şahin Xurşudov, alimin yetirmələrindən fizika-riyaziyyat elmləri doktoru, professor Məntiq Cəfərov və fizika elmləri doktoru, professor Adilə Abbasova, fizika-riyaziyyat elmləri doktoru, professor Dürdanə Araslı çıxış ediblər. Onlar Maqsud Əliyevi elm ilə nəcabətin vəhdətinin təcəssümü kimi xarakterizə ediblər.

Akademik Maqsud Əliyevin yaxın qohumu Xanlar Məmmədov alimin elmi, ictimai fəaliyyətinə və onun şəxsiyyətinə böyük həssaslıq nümayiş etdirərək bu mötəbər elmi forumu təşkil edənlərə alimin ailəsi adından minnətdarlıq bildirib.

Üç günlük beynəlxalq konfrans bölmə iclasları ilə davam etdirilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# AZƏRTAC “Mir” Teleradio Şirkəti ilə əməkdaşlıq edəcək



**Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə “Mir” Teleradio Şirkəti arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb.**

“Mir” Teleradio Şirkəti sədrinin müavini Vladimir Kazarezovla görüşdə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, AZƏRTAC dünyanın 53 informasiya agentliyi və media strukturu ilə əməkdaşlıq edir: “Əminəm ki, bu memorandumun imzalanması “Mir” Teleradio Şirkəti ilə AZƏRTAC arasında əlaqələrin möhkəmlənməsinə kömək edəcək”.

“Mir”in Azərbaycandakı nümayəndəliyinin direktoru İlqar Paşazadə iki media strukturu arasında əməkdaşlığın qarşılıqlı faydalı xarakter daşıyacağını vurğulayıb.

Beynəlxalq həyat

# Qərb Gürcüstanda etimadı itirir

## Radikal müxalifətin zorakılıq resursu isə sıfıra endirilib



**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Avropa İttifaqı (Aİ) xarici işlər nazirlərinin diplomatik pasport sahibləri üçün viza rejiminin tətbiqi barədə qəbul etdiyi qərarını anti-Gürcüstan addım adlandırıb. Baş nazir bu barədə dünən keçirdiyi brifinqdə bildirib: "Bu qərar gürcü cəmiyyətində Avropa strukturlarına olan etimadı sarsıdan anti-Gürcüstan addım kimi qiymətləndirilə bilər".**

Baş nazir iclasda gürcü xalqının maraqlarını müdafiə edən Macarıstan, Slovakiya, İtaliya, İspaniya və Rumıniyanın xarici işlər nazirlərinə təşəkkür edib. "Onlar Avropa İttifaqı Şurasında gürcü xalqının maraqlarını müdafiə ediblər... Bizdə 5 ölkə ilə bağlı konkret məlumat var. Sanksiyaya qarşı çıxan ölkələrin siyahısı daha genişdir. Bu da bizim üçün çox vacibdir. Biz gürcü xalqını dəstəkləyən bütün ölkələrlə məsləhətləşmələri davam etdirəcəyik".

Hökumət başçısı müxalifətin etiraz aksiyalarına da toxunub: "Hər şey bitdi, radikal müxalifətin zorakılıq resursu sıfıra endirilib. Biz artıq dördüncü inqilab cəhdinin qarşısını almışıq. Dörd siyasi partiya və 10-dan çox varlı QHT-nin gücü ən çoxu 800 nəfərdir və onlar bundan artıq toplaya bilməzlər. Bitdi! "Finita la commedia" italyanların dediyi kimi". Onun sözlərinə görə, "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası radikal müxalifətin ölkədə dördüncü dəfə inqilab cəhdinin qarşısını aldı.

Gürcüstanın baş naziri İrakli Kobaxidze ölkənin hazırkı prezidenti Salome Zurabişvilinin dekabrın 29-da postunu tərk edəcəyini bildirib. "Bir ölkədə üç de-fakto prezident ola bilməz. Salome Zurabişvili özünü Abxaziya və Cənubi Osetiya prezidentləri ilə eyniləşdirir. Biz, sadəcə olaraq, bunu ciddi qəbul edə bilmərik. Dekabrın 29-da Zurabişvili öz postunu tərk etməli olacaq və onun yerinə seçilmiş Prezident Mixail Kavelaşvili gələcək. Salome Zurabişvilinin bəyanatı ilə bağlı hər hansı fəsadın olacağını düşünmürəm. Zənnimcə, o bunu edəcək. Hər hansı çətinlik gözlənilmir", – deyə Kobaxidze bildirib.

Qeyd edək ki, Salome Zurabişvili parlamentin və prezident seçkisinin legitimliyini tanımadığını, bu səbəbdən prezident səlahiyyətinin yeni prezidentin andiçməsinin keçiriləcəyi 29 dekabrdan sonra da davam edəcəyini bəyan edib.

Bu arada, Birləşmiş Ştatlar Gürcüstana qarşı əlavə sanksiyalar tətbiq etməyə hazırlaşır. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bildirib. Onun sözlərinə görə, Vaşinqton Gürcüstanda demokratiyanın vəziyyətindən və bu demokratiyaya zərbə vuran "Gürcü arzusu" partiyasının hərəkətlərindən "son dərəcə narahatdır".

Dövlət Departamenti bundan əvvəl Gürcüstanın 20 vətəndaşına qarşı viza məhdudiyyəti tətbiq etdiyini açıqlamışdı. Siyahıda adlar çəkilməsə də, onların arasında nazirlər, millət vəkilləri və yüksək rütbəli təhlükəsizlik məmurlarının olduğu məlumdur.

***PÜNHAN***
***XQ***

# Polis Akademiyasında təhsil almaq istəyən abituriyentlər üçün müsabiqə elan edilir



**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan "Hüquqşünaslıq" ixtisasına 500, I qrupdan "İnformasiya təhlükəsizliyi" ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan, və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

"Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012)-590-97-76, (012) 454-12-78, nömrəli telefonlar, habelə Polis Akademiyasının 8880 qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.

# Suriya dinc həyata qayıda biləcəkmi?

## Aktorlar qaliblərin yanında yer tutmağa çalışırlar

**(əvvəli 1-ci səhifədə)**

Sabiq cihadçı hazırda Qərb mediasına fəal şəkildə müsahibələr verir və hamının qəbul etməsinə çalışır ki, vəziyyətə məhz o nəzarət edir və mümkün qədər tez yeni Suriyanın inşasına başlamaq istəyir: "Pərdə arxasında çox sayda qərarlar var ki, onlar haqqında sonra danışacağıq. Baş verənlər təsadüfi deyildi, biz buna illərdir hazırlaşırdıq. Bütün böhranları aradan qaldırmaq və Suriyanın inkişafı üçün yaxşı işlənmiş planlarımız var".

Lakin yeni rəhbərliyə yaxın mənbələrin bildirdiyinə görə, hazırlıqlara baxmayaraq, indi keçid hökumətinin formatı və siyasi sistemin strukturu kimi təməl prinsiplərlə bağlı məsləhətləşmələr aparılır. Ölkə prezidentli, yoxsa parlamentli respublika olacaq? Bu məsələlər təkcə Dəməşqdə deyil, Ankarada da müzakirə olunur. Ötən həftənin sonunda ABŞ dövlət katibi Antoni Blinken oraya səfər edib və prezident Rəcəb Tayyib Ərdoğanla görüşündən sonra ABŞ və Türkiyənin Suriyanın gələcəyi ilə bağlı ortaq baxışa malik olduğunu bildirib.

Ancaq Rusiyanı və İranı başqa məsələ daha çox narahat edir: Dəməşqin yeni rəhbərliyi fəaliyyətində nə dərəcədə müstəqil olacaq? Onun İran və İsraillə münasibətləri necə olacaq? Yeni hökumət öz döyüşçülərinə nəzarət edə biləcəkmi? Rusiya hərbi bazalarını Aralıq dənizi sahillərində hansı aqibət gözləyir? Mütəxəssislərin bu suallara konkret cavabları yoxdur. Amma bəzi ekspertlər bildirirlər ki, Suriyadakı indiki vəziyyət bir çox qonşu ölkələri ciddi narahat edir. Xüsusilə İordaniya əndişələnir, Əmmanda çox qorxurlar ki, vaxtilə Suriyada Bəşər Əsədə qarşı döyüşən beynəlmiləlçi qüvvələr qonşu Haşimilər Krallığına keçə bilərlər. Amma Əhməd əl-Şaraa hamını əmin edir ki, uzun illər davam edən müharibə və münaqişədən sonra Suriya "daha böyük dağıntılara səbəb ola biləcək yeni zəifldici münaqişələrə girməyə" tab gətirə bilməz. Onun sözlərinə görə, sülhü və sabitliyi qorumağı qarşısına əsas vəzifə kimi qoyan yeni hökumət "inqilabçı zehniyyəti rəhbər tutmamalıdır": "Diplomatik həll yolları təhlükəsizlik və sabitliyi təmin etməyin yeganə yoludur".



Əhməd əl-Şaraa müsahibəsində Rusiya barədə də danışıb. Moskvanın Bəşər Əsəd rejimi ilə münasibətlərinin tarixinə baxmayaraq, o bildirib ki, bu, Suriyanın yeni hakimiyyətləri üçün keçilməz maneə ola bilməz. Lakin əl-Şaraa diqqətə çatdırıb ki, Rusiyanın Dəməşq siyasətinə yenidən baxılmasını gözləyirlər. Onun cavabından belə çıxır ki, Rusiya–Suriya münasibətlərinin təftişi əvvəlki kursdan tamamilə imtina etməyi nəzərdə tutmalıdır. Suriyanın yeni rəhbərliyinin Moskvaya yeni münasibətlər qurmaq imkanı verdiyini vurğulayan Əhməd əl-Şara əlavə edib ki, ölkənin yeni rəhbərliyi Rusiyaya qarşı heç bir kəskin addım atmadı.

Bundan əvvəl Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov bildirib ki, Moskva "Həyat Təhrir əş-Şam" qruplaşmasının siyasi komitəsi ilə birbaşa əlaqə qurub. O, Suriyadakı Rusiya hərbi bazaları ətrafında yaranmış vəziyyəti şərh edərək deyib ki, onların gələcək taleyi ilə bağlı heç bir qərar verilməyib, lakin Yaxın Şərq regionunda terrorla mübarizə hələ bitməyib və Rusiyanın hərbi mövcudluğu bunda mühüm rol oynayır. Xatırladaq ki, Rusiya hərbçiləri Suriyada Xmeymim aviabazasında və Tartusdakı logistika məntəqəsindədir. İkitərəfli razılaşmaya əsasən, Moskva bu bazalardan 2066-cı ilə qədər istifadə edə bilər.

Həftənin sonunda TASS danışıqların gedişi ilə tanış olan mənbəyə istinadən xəbər verib ki, Rusiya Suriyanın yeni hakimiyyət orqanları ilə ölkədə özünün iki hərbi bazasının saxlanması məsələsini müzakirə edir. Ötən həftə TASS-dakı mənbə Suriyanın silahlı qüvvələrinin Rusiya bazalarının yerləşdiyi Latakiya və Tartus əyalətlərinə tam nəzarəti bərpa etdiyini, lakin Tartus və Xmeymimdəki hərbi obyektlərin ərazisinə daxil olmadığını bildirib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan da ötən həftənin sonunda Rusiyanın Suriyada gələcək hərbi mövcudluğu mövzusunu şərh edərək "hərbi obyektlərin taleyinin Moskva ilə Dəməşqdə yeni hakimiyyət orqanları arasında danışıqlar çərçivəsində həll olunacağını" təsdiqləyib. "Biz də öz növbəmizdə müşahidə edəcəyik", – deyə türkiyəli nazir NTV telekanalında əlavə edib.

Bunun fonunda Qərb ölkələri də yeni Suriyada öz təsir dairələri uğrunda mübarizəyə qoşulublar. ABŞ, Avropa İttifaqı, Böyük Britaniya bildirirlər ki, Suriyanın yenidən qurulmasına kömək edəcəklər. Belə görünür, Suriya hələ uzun müddət aktorlar arasında müzakirə və mübahisə mövzusu olaraq qalacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# ELAN

**2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən media subyektlərində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq:**

- İctimai Televiziya və Radio Yayımları Şirkəti;
- "Azərbaycan" qəzeti;
- "Xalq qəzeti";
- "Respublika" qəzeti;
- "Bakinski raboçi" qəzeti.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları bələdiyyə seçkilərinin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək (2024-cü il dekabrın 28-dək) dərc etməlidirlər.

***Azərbaycan Respublikasının***
***Mərkəzi Seçki Komissiyası***

# "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansında olan bəzi əmlakların (aktivlərin) satışa çıxarılması barədə

# ELAN

I. Lotlar üzrə satılacaq əmlaklar barədə məlumat:
1.Qızıl-ziynət əşyaları.

I. Alqı-satqıda iştirak etmək istəyən şəxslər ən geci satış gününə bir gün qalmış "Aqrarkredit" QSC-nin baş ofisinə ərizə ilə müraciət etməlidirlər. Ünvan- AZ1006, Azərbaycan Respublikası, Bakı şəhəri, Qədirli küçəsi 125.

II. Əmlakla, onun növü və parametrləri ilə tanış olmaq, alınması qaydası və müddəti:

1. Qızıl-ziynət əşyalarını əldə etmək istəyən şəxslər 10 yanvar 2025-ci il saat 11.00-da "Aqrarkredit" QSC-nin baş ofisi - Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda yerləşən ofisində qızıl-ziynət əşyalarının çeşidi və onların satış qiymətləri ilə tanış ola bilərlər.
2. Əgər eyni əşyaya iki və daha çox təklif irəli sürülərsə, əşya daha çox qiymət təklif edən şəxsə satılacaqdır.

Əlaqəli şəxs- Şahin Seyidov- telefon-050-235-99-90.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 279 (30683) 18 dekabr 2024-cü il, çərşənbə

## “Qarabağ”ın 900-cü qolu



**“Qarabağ” Azərbaycan çempionatlarında 900-cü qolunu vurub. Bu, Misli Premyer Liqasının XVII turuna təsadüf edib.**

“Sumqayıt”la görüşdə vurulan sonuncu top yubiley xarakteri daşıyıb. “Qarabağ”ın öz meydanındakı 900-cü qoluna Toral Bayramov imza atıb.

“Qarabağ” Azərbaycanın evdə və səfərdə 900 və daha çox qol vuran 2-ci komandası olub. Bu günə qədər isə yalnız “Neftçi” öz meydanında bu qədər qola sahib ola bilib.

Qeyd edək ki, Ağdam klubunun ilk ev qolunu 1992-ci il mayın 3-də Sabirabad “İnşaatçı”sı ilə matçda Mehman Alışanov vurub.

***S.FİDAN***
***XQ***

**Xatirələrə köçənlər**

# Tofiq Abbasovun “Zenit”ə vurduğu qol…

**Keçmiş SSRİ çempionatlarında “Neftçi”nin şərəfini qorumuş və inamlı oyunu azarkeşlərdə xoş təəssürat yaratmış futbolçulardan biri də bu yaxınlarda, dekabrın 4-də 75 yaşında həyatla vidalaşıb, xatirələrə köçən yarımmüdafiəçi Tofiq Abbasov olmuşdur. Ölkə çempionatının güclülər dəstəsində 101 oyunun iştirakçısı və 9 qolun müəllifi kimi yadda qalmış Sumqayıt futbol məktəbinin yetirməsi 1970-ci illərdə meydanda fəal, əzmkar mübarizəsi ilə komandaya əlindən gələn köməyi etmişdir. T. Abbasovun vurduğu qollardan biri stajlı azarkeşlərin yaddaşından hələ də silinməyib. Hərçənd həmin gündən artıq 47 il ötür.**



16 aprel 1977-ci il. 40-cı SSRİ çempionatı. “Neftçi”nin Leninqradın “Zenit” komandası ilə görüşünü izləmək üçün Respublika stadionunun tribunalarına 28 min azarkeş toplaşmışdır. Bu, həmin mövsümün startında bakılıların öz meydanlarında keçirdikləri ardıcıl üçüncü oyundur. İlk iki matçda Moskvanın “Dinamo” və OMİK komandaları ilə heç-heçə oynayan (müvafiq surətdə 0:0 və 1:1) “Neftçi” daha bir iddialı rəqibi qəbul edir.

Tamaşaçılar bütün 90 dəqiqə ərzində qarşılıqlı hücumlar şəraitində davam edən oyundan sonra sevimli komandanı meydandan alqışlarla yola saldılar. Onlar qollarla zəngin mübarizənin şahidi olmuşdular. Başlıcası isə, futbolumuzun flaqmanı Neva sahillərindən olan qonağına 3:2 hesabı ilə qalib gələrək, həmin çempionatda respublikaya ilk qələbə sevinci yaşatmışdı.

Görüşün taleyi moskvalı hakim A.Kadetovun final işarəsinə iki dəqiqə qalmış həll olundu. Buna qədər hesab 2:2 idi. “Neftçi”dən Nikolay Smolnikov və Füzuli Cavadov fərqlənmişdilər. Bakılıların son hücumlarından birində isə həlledici sözü Abbasov dedi. Tofiq qonaqların cərimə meydançasında topa özünü hamıdan tez çatdırıb, dəqiq zərbə ilə qələbəmizi təmin etdi. Əlbəttə ki, həmin an futbolçularımızın da, onların pərəstişkarlarının da sevinci yerə-göyə sığmırdı.

Nəticədə dörd illik fasilədən sonra yenidən sovet futbolunun “yüksək cəmiyyətində” öz yerini tutan “Neftçi” güclülər dəstəsinə qayıtmasının təsadüfi olmadığını inamla sübuta yetirdi.

Tofiq Abbasovun həlledici qolun müəllifi olduğu görüşdə statistikanın köməyi ilə komandamızın tam heyətini də xatırlayaq: Yuri Romenski, Rafiq Quliyev (Rəşid Özbəyov, 46), Bəxtiyar Qulamov, Arif Orucov, Asəf Namazov, Tofiq Abbasov, Füzuli Cavadov, Əli Rəhmanov (Asif Əliyev, 48), Anatoli Banişevski, Səməd Qurbanov, Nikolay Smolnikov.

Bu futbolçuların hər biri hər oyunda “Neftçi” adına layiq olmaq üçün bütün qüvvəsini gərgin mübarizə meydanında qoymağa hazır idi.

Diqqətinizə çatdırdığımız foto təxminən yarım əsr əvvəl lentə alınmışdır. T.Abbasov yüksəkdən ötürülən top uğrunda mübarizədə rəqib komandanın iki müdafiəçisini qabaqlamağı bacarmışdır.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Lənkəran “Prokuror”u Bakıda



**Akademik Milli Dram Teatrı səhnəsində Lənkəran Dövlət Dram Teatrı yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin “Prokuror” pyesi əsasında hazırlanmış eyni adlı tamaşanı nümayiş etdirib. 1976–1987-ci illərdə Lənkəran rayonunun prokuroru olmuş Əməkdar hüquqşünas Tələt Qənbərovun 90 illik yubileyinə həsr edilən bu səhnə əsəri konkret cinayət faktı üzərində qurulub.**

Gənc hüquqşünas Şöhrət Poladov Xınalı rayonunun prokuroru təyin olunur. Anası Surə xanım oğlunun bu təyinatına əsla sevinmir. Hadisələrin gedişi onu göstərir ki, qadının həyat yoldaşı illər əvvəl burada qətlə yetirilib. Lakin cinayətin üstü hələ açılmayıb. Cinayətkarları ifşa etmək üçün yeni prokuror olan Şöhrət Poladovun bacarığı və peşəkarlığından çox şey asılıdır. Tamaşanın sonunda ədalət zəfər çalır. Prokuror Poladovun gərgin əməyi nəticəsində cinayətkarlar öz layiqli cəzalarını alırlar.

Səhnə əsərinin quruluşçu rejissorları Əməkdar incəsənət xadimi Oruc Qurbanov və Anar Babalı, quruluşçu rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı isə Miranda Qurbanovadır.

Rolları Əməkdar artist Sücəddin Mirzəyev, aktyorlar Saleh Əzimzadə, Qızılgül Quliyeva, Allahverən Babayev, Hikmət Cəfərov, Şəbnəm Hüseynova, Vəfa Hacızadə, Emil Tağı və başqaları ifa ediblər.

Əsər tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

**Sonda hüquqşünas Kəramət Qənbərov (Tələt Qənbərovun oğlu) XQ-yə müsahibəsində dedi:**

– İlk dəfə Lənkəran Dövlət Teatrında bu tamaşa 1981-ci ildə səhnəyə qoyulub. Uzun illər rayon prokuroru vəzifəsində çalışmış Əməkdar hüquqşünas Tələt Qənbərovun həyat yolundan bəhs edir. Əsərin baş qəhrəmanı gənc hüquqşünas rolunu oynayan Şöhrət Poladov isə onun prototipidir. Bu tamaşanın gənc nəslin vətənpərvər ruhda böyüməsində xüsusi rolu var. İnanırıq ki, teatr gələcəkdə daha yaxşı əsərlərlə tamaşaçıları sevindirəcək.

***Fidan SALMAN***
***XQ***



**Açılmamış sirlər**

# Antarktidada piramidalar?



**Qədim dövrlərdə insanların yaratdığı ən möhtəşəm əsərlərdən biri olan Misir piramidaları özlərinin sirlərini qoruyub saxlayıb. Bu gün də onların necə tikildiyi barədə dəqiq məlumatlar yoxdur. Belə bir vaxtda Antarktidada yeni piramidalar aşkar olunub. Amerika və Avropa alimlərindən ibarət qrup qitədə 3 piramida formalı tikiliyə rast gəlib. Onlardan ikisi dənizdən 16 kilometr, üçüncüsü isə dənizə çox yaxın ərazidə tapılıb. Piramidaların təbii, yoxsa insanlar tərəfindən tikildiyi alimlər tərəfindən uzun müddət araşdırılıb.**

Bəzi alimlərin fikirincə, qitə bir zamanlar kifayət qədər isti iqlimə malik olub. Bu tikililər də o dövrlərdə insanlar tərəfindən inşa olunub. Son illərdə alimlər mövzu ilə bağlı susmağa üstünlük veriblər. Çünki tikililərin insan əli ilə inşa olunduğu təsdiqlənərsə, bu kəşf bəşər tarixi haqqında bildiyimiz hər şeyi unutduracaq və tarixin yenidən yazılmasına səbəb olacaq.

Araşdırmaçılar vaxtilə qitədə isti iqlimin olduğunu sübut edən dəlillər də tapıblar. 2009-cu ildə bölgədə çalışan iqlim alimləri tozcuq hissəciklərinə rast gəliblər. Onlar bununla Antarktidada palma ağaclarının bir zamanlar böyüdüyü və yayda temperaturun 21 dərəcəyə çatdığı qənaətinə gəliblər.

2012-ci ildə isə Nevada Tədqiqat İnstitutunun alimləri qitənin cənubunda yerləşən Vida gölündən 32 fərqli bakteriya növünə aid nümunələr aşkarlayıblar.

Peyk görüntülərinin ən son texnologiyalar əsasında analizi sayəsində əldə edilən nəticələr də bəşəriyyətin inkişaf tarixinin bizim bildiklərimizdən fərqli olduğunu göstərir.

***PÜNHAN***
***XQ***

**Sağlamlıq**

# Sarımsaqla yağ – başın ağrımayacaq

**Maqnit burulğanları, həyat tərzi, havanın temperaturunun tez-tez və kəskin dəyişməsi, kompüter arxasında çox oturmaq, telefondan müntəzəm və davamlı istifadə insan orqanizminə təsirsiz ötüşmür. Yaşından asılı olmayaraq insanlar baş ağrılarından şikayətlənirlər. Bəzən nevropatoloqların məsləhət gördükləri dərmanlar da bu diskomfortu aradan qaldırmağa kömək etmir.**



Təbii vasitələrlə müalicə mütəxəssisləri isə bununla bağlı müxtəlif üsullar təklif edirlər. Bildirirlər ki, başda, beyində skleroz əleyhinə, damar genişləndirici, ürək və beyin damar spazmlarını aradan qaldırmaq üçün ən effektiv vasitələrdən biri sarımsaqdır.

Sarımsaqdan bir neçə növ “dərman” hazırlamaq olar. Mütəxəssislər onlardan birinin – illərin sınağından çıxmış reseptin hazırlanma qaydasını təqdim edirlər:

“2 diş sarımsaq əzilib sıyıq halına salınır, şüşə butulkaya tökülür və üzərinə 1 stəkan rafinə olunmamış günəbaxan yağı əlavə edilir. Məlhəmi soyuducunun aşağı gözündə saxlamaq lazımdır. Ertəsi gün bir çay qaşığı təzə limon suyunun üzərinə bir çay qaşığı sarımsaqlı yağdan əlavə edib, yeməkdən 30 dəqiqə əvvəl qəbul etmək lazımdır”.

Bu müalicə kursu 1–2 ay davam edir. Cövhərin qəbuluna 1–2 ay fasilə verdikdən sonra istifadə etməyi yenidən təkrarlamaq olar.

***Z.HÜSEYNLİ***
***XQ***

# Aranda yağmursuz, dağlarda yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir.**



Gecəyə doğru yarımadanın bəzi yerlərində intensivləşəcəyi, sulu qara keçəcəi ehtimalı var. Arabir güclənən cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 4-6°, gündüz 8-12° isti olacaq.Atmosfer təzyiqi 762 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin səhər dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1°şaxrtadan 4°-dək isti, gündüz 9-14° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq.

***Q.QASIMOV***
***XQ***

*✓ Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Hərbi Komissarlığı tərəfindən Əliyev Pərviz Nəsib oğluna verilmiş M/V seriyalı, 053409 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

“Azərsutikinti” Səhmdar Cəmiyyətinin sədri Yusif Hümbətov Əmlak Məsələləri Dövlət Xidmətinin Dövlət əmlakının özəlləşdirilməsinin təşkili şöbəsinin müdiri Əziz Mirzəyevə qardaşı

**PULAĞA MİRZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00